AMİD SƏLİMOĞLU

*"Kimsəsiz" romanının müəllifindən*

# BƏYAZ DƏHLİZ

2021

**Amid Səlimoğlu “Ruhilər”.**

**İnstagram.com/amidselimoglu**

**Facebook.com/amidselimoglu**

**Linkedin.com/amidselimzade**

**Bakı 2021**

**Salam, bu yazını oxuyan, möhtərəm oxucu! Bil ki, bu yazını yazarkən bir xeyli düşünmüş, çox xəyaldan sonra yazmağa qərar vermişəm. Mən deyim bir ay, sən anla iki ay. Ancaq il olmaz, buna tam əmin ol! Xəyalımdan nə keçmişsə, onu da sənə danışacağam. Sənə tanış edəcəyim bu hekayədə hadisələr bəzən həqiqət, bəzən də bu biçarə yazıçının könlündən keçənlər olacaq. Amma və lakin nə mən səni yubadacaq, nə də sən oxuyarkən bikef olacaqsan. İnan mənə, ey əziz oxucu!**

**Nəysə! İndi isə gələk hekayəmizə. Sənə nağıl edəcəyim bu əhvalat Sabir adında işsiz, gücsüz adamın başına gələnlər haqqında olacaq. Onu oxuyarkən bəlkə sən də özünü onda görəcəksən. Nə bilmək olar!**

**Aha, gəlir bizim adam...**

Sabir şirkət binasından çıxaraq yolun o biri tərəfinə keçdi. Həmişə olduğu kimi yenə də bikef idi. Özünü qəmgin göstərməmək istəsə də, ancaq bu heç də asan deyildi. Yazıq gündə idi. Arabir gələn ümid hissi isə anidən yox olur, yerini bədbəxtlik doldururdu. Bu artıq neçənci şirkət idi ki, müraciət edirdi. Amma hələ ki, yaxşı xəbər ala bilməmişdi. Elə vəziyyətdə idi ki, nə iş desələr edəcəkdi. Gəl ki, işə qəbul edən yox idi.

Fikirli halda avtobus dayanacağına doğru addımlayırdı. Evə getməkdən başqa əlindən heç nə gəlmirdi. Evdə isə həyat yoldaşı ilə uşaqlar onu gözləyirdi. Bunu fikirləşdikcə daha da sıxılır, ürəyi yerindən çıxacaq kimi döyünürdü. Avtobus dayanacağına çatıb dayanacağın sol tərəfində durdu. Elə bu vaxtı bir oğlan uşağı qabağına çıxıb əlini açaraq ona uzatdı.

– Əmi, əmi, əmi. Mənə pul ver də. Nə olar! Neçə gündü acam, heç nə yeməmişəm. Sən canı, çörək almağa pul ver də. – Uşaq üzünü qırışdıraraq yazıq-yazıq ona baxıb dedi.

Sabir çarəsizcə əlini cibinə ataraq son qalan qəpikləri çıxarıb saydı. Sonra isə otuz qəpiyini onun əlinə qoydu.

– Əmi, birazda ver də. Bu azdı axı.

– Yaxşı. – İyirmi qəpikdə verdi.

Uşaq pulu alıb “sağ ol” belə demədən onun yanından uzaqlaşdı. Sabir isə onun arxasıyca baxaraq qalmışdı. Bir qədər uşağın arxasıyca baxdıqdan sonra əlindəki qəpiklərə nəzər saldı. Qırx qəpiyi qalmışdı. O da ki, kəndə getmək üçün. “Uşaqdakı fərasətə bax”, – deyə qəpikləri cibinə qoydu. Bir neçə dəqiqə sonra avtobus da gəldi. Hamı avtobusa minmək üçün arxa qapının önünə yığışmışdı. Qadınlar mindikdən sonra kişilərdə basabasla avtobusa minməyə başladı. Sabir də o qarışılıqda avtobusa minib arxa oturacaqların

birində əyləşməyə macal tapdı. Dua edirdi ki, kəndə kimi heç bir tanış avtobusa minməsin. Çünki cibindəki pul ancaq özünə çatırdı.

Bir saat sonra avtobus kəndə çatmışdı. Sabir avtobusdan enərək evin yolunu tutdu. Tez-tez addımlayırdı. Tanışlardan kimisə görmək istəmirdi. Onların suallarına verəcək düz-əməlli cavabı yox idi. Buna görə də gözə dəymədən evə çatmaq istəyirdi.

Qaldığı evin qapısına çatanda "Şükür" deyərək həyət qapısını açıb həyətə girdi. Dörd yaşında olan oğlu onu görüb qaçaraq üstünə tullandı. Sabir də gülümsəyərək oğlunu qucağına götürdü.

– Mənə nə almısan?

– Al, – deyə Sabir səhər evdən çıxarkən cibinə qoyduğu konfeti çıxarıb oğluna verdi.

Uşaq konfeti alaraq yeməyə başladı. Sabir isə onu yerə qoyub ev qapısına yaxınlaşdı. Qapının önündə başqa ayaqqabı da var idi. Ayaqqabı qadına aid idi. "Görəsən, yenə kim gəlib", – deyə düşünə-düşünə ayaqqabısını çıxarıb içəri girdi.

– Xoş gəldin. – Yasəmən Sabiri qapıda qarşılamışdı.

– Sağ ol. – Sabir təbəssümlə ona baxdı. – Kim gəlib?

– Qonşu Pakizə xaladı. – Yasəmən mətbəği göstərdi.

– Yaxşı. – Qaşlarını çataraq mətbəğə girdi. – Xoş gəlmisən, Pakizə xala.

– Sağ ol, bala. Necəsən? Nə var nə yox? İşlərin necədir? Bir iş tapa bildin? – Qadın nəfəs almadan suallarını verməyə başlamışdı.

– Yox hələki, xala. Axtarıram. Olanda sizə də xəbər edəcəm. – Sabir kinayə ilə sözünü deyib stula əyləşdi.

– Olar, bala. Müvəqqəti çətinlikdi. – Qadın sakitdə dedi.

– Sizin uşaqlar hardadılar?

– Heç, ay bala. Hamısı işdədilər.

– Vüsal iş tapa bildi?

– Həəə... tapdı. Bacarığı olan üçün iş tapmağa nə var!

Pakizə xalanın sözü Sabiri qıcıqlandırsa da, ona heç nə demədi. Yasəmənin qabağına qoyduğu çaydan bir qurtum aldı. Pakizə xala isə elə hey oğlunu tərifləyirdi.

– Bir qız da tapmışam. Əgər Vüsal razılaşsa, evləndirəcəm.

– İnşaAllah, Pakizə xala. Allah arzuna çatdırsın. – Yasəmən dedi.

– Sağ ol, qızım. – Ayağa qalxaraq paltarını səliqəyə saldı.

– Hara gedirsən, Pakizə xala? Hələ gəlinindən danışacaqdıq. – Sabir zarafatla ona baxdı.

– Yox, bala. Gecdir. Gedim evə. Uşaqlar işdən gələr.

– Necə istəyirsən.

– Sağ olun.

– Xoş getdin. – Sabir çayını içməyə davam etdi.

Yasəmən Pakizə xalanı yola saldıqdan sonra mətbəxə qayıtdı. Sabirin önündə əyləşərək maraqla ona baxdı.

– Necə keçdi günün?

– Həmişəki kimi.

– Görüşdün?

– Hə.

– Nə dedilər?

– O birilər nə dedisə, onlar da eyni şeyi. Dedilər xəbər edəcəyik.

– Ürəyini sıxma. Yaxşı olar. – Yasəmən əlini Sabirin əlinin üstünə qoydu.

– Bilirsən, səni sevindirməyi nə qədər istəyirəm? Xoş xəbər verim, deyim ki, iş tapmışam. – Sabir gözlərini Yasəmənə dikmişdi.

– Əsas can sağlığıdır. Qalan hər şey düzələr. Darıxma. – Yasəmən gülümsəyərək dedi.

Elə bu an otağa Aytac daxil oldu.

– Salam. – Çiynindən məktəb çantasını çıxarıb yerə atdı.

– Xoş gəldin. – Sabir qızına baxaraq yanına çağırdı.

Aytac cəld atasının qucağına əyləşib yanağından öpdü.

– Oxxx... – Sabir də onun hər iki üzündən öpüb qucaqladı. – Necə keçdi dərslər? Öyrəşə bilirsən?

– Məktəb hələ təzə başlayıb. Çətin deyil. Bugün müəllim məndən dərs soruşdu. Mən də şeiri danışdım.

– Lap gözəl. Dərslərinin hamısını oxu. Yaxşı?

– Yaxşı. – Aytac sevinərək dedi.

– Sözün qurtardısa, get əynini dəyiş. – Yasəmən Aytaca baxdı.

– Baş üstə. – Aytac Sabirin qucağından enərək çantasını da alıb öz otağına qaçdı.

– Uşaqlar da böyüyür. – Sabir Aytacın arxasıyca baxaraq dedi.

– Hə. Vaxt çox tez gedir. – Yasəmən qazı söndürərək dedi. – Yemək də hazırdır. Rüfəti də gətirim, başlayaq.

– Kömək lazımdır?

– Yox. Sağ ol. Özüm süfrəni hazırlayacam. Aytac da kömək edəcək.

– Yaxşı.

Yasəmən mətbəxdən çıxıb həyətə getdi. Sabirsə, masanın arxasında gələcək haqqında düşünürdü. Başqa heç nə edə bilmirdi.

***

Yemək yedikdən sonra Yasəmən Rüfəti yatızdırmaq üçün otağına apardı. Aytac isə dərslərini oxumağa getmişdi. Sabah yenə dərs var idi. Sabir isə mətbəxdə oturmuşdu. Edəcək bir işi yox idi. Fikirli halda sabahı düşünürdü. Əslində sabahı deyil, birisigünü də, o biri günü də, bir həftə sonranı da, bir ay sonranı da düşünürdü. Düşünə-düşünə dəliyə dönmüşdü. Çıxış yolları axtarır, axtardığı yollarda itib batırdı. Kömək olacaq bir düz-əməlli fikir tapa bilmirdi. Rayondan gələndən bu günə kimi bir çox işdə çalışmışdı. Ancaq heç birinin ömrü uzun olmamışdı. İşləri heç cür gətirmirdi. Sonuncu işindən isə səkkiz ay idi ki, çıxmışdı. Pandemiya çalışdığı şirkətdən də təsirsiz ötməmişdi. Şirkət məcbur olub işçilərin bir çoxunu işdən çıxarmışdı. Onların içində Sabir də vardı. Bu səkkiz ay Sabirə kabus kimi gəlirdi. Bütün günü iş axtarır, ancaq yenə əliboş qayıdırdı, evinə. Evdə tək çalışan Yasəmən idi. O da evlərə təmizliyə gedirdi. Qazandığı pulla da birtəhər keçinib gedirdilər. Sabiri bu hal daha çox sıxırdı. Əlindən isə bir şey gəlmirdi. Özünü aciz hiss edirdi. Daha doğrusu, hiss etmirdi, aciz olduğunu qəbul etmişdi. Yoxsa bir insan niyə bu qədər işsiz qalsın ki?!

Bir neçə saat eləcə mətbəxdə oturub qarşısındakı stəkanla oynadıqdan sonra yatmaq vaxtının gəldiyini görüb ayağa qalxdı. Uşaqlar

çoxdan yatmışdı. Bircə Yasəmən həyətdə yuduğu paltarları sərirdi. Paltaryuyan maşınları olmadığından paltarları əllə yuyurdu. Bu da həm əziyyətli idi, həm də çox vaxt aparırdı.

Mətbəxdən çıxıb yataq otağına girdi. Əynini dəyişib xəstə adamlar kimi yerinə uzandı. Bir qədər sonra Yasəmən də yanına gəldi.

– Paltarları sərdim. Çox Şükür işimi qurtara bildim. Elə bilirdim, çatdıra bilməyəcəm. – O da Yatağa uzandı.

Yasəmən yatağa uzandıqdan sonra Sabirin dinməzcə divarı izlədiyini gördü. O da başa düşürdü ki, həyat yoldaşı “bugünlərdə” çox düşüncəlidir. Ona görə də birazda ona yaxınlaşaraq başını çiyninə söykədi.

– Niyə narahat olursan? Hər şey yaxşı olacaq.

– Sən elə deyirsənsə, olsun. – Sabir gülümsəyərək dedi.

– Hə Vallah. Hər ailədə çətinlik olur. Axır-əvvəl bir yol tapıb çətinlikdən çıxacağıq.

– Nə bilim, ay Yasəmən. Neçə aydır, işsizəm. Əlimə bir qəpik də dəyməyib. Çörək belə ala bilmirəm. Sən işləyirsən...

– Elə şey demə! – Yasəmən onun sözünü kəsərək dedi. – Mən ya sən. Nə fərqi var? Bugün mən sənin üçün, sabah da sən mənim üçün. Biz bir ailəyik axı.

– Düz deyirsən. – Sabir onun xətrinə dəymək istəmirdi.

– Həm belə çox istəyirsən, işləyəndə borcumu qaytararsan qurtarıb gedər. – Gülərək dedi.

– Daha denən, dağlar qədər borcum var ki. – Sabir də gülməyə başladı.

– Sən narahat olma. Təki canımız sağlam olsun. Qalan şeylər düzələn şeydi. Bugün Pakizə xala deyirdi ki, bir qohumları var, xaricdə yaşayır. Varlı adamdılar, ancaq uşaqları xəstədir. Yazıq heç yerindən tərpənə də bilmir. O qədər var-dövlət, gəl ki, bir oğulları var, o da xəstə. Ona görə də, Şükür edək. Canımız sağlam olsun, qalan bütün çətinliklər gəlib gedəndir.

– Elədir.

– Hə.

– Aytac interneti necə elədi? O dəfə deyirdi, nəsə köçürməli idi. – Sabir söhbəti dəyişdirdi.

– Heç nə. Qonşunun internetindən istifadə edir. Sağ olsunlar, kodu dedilər. Aytac da nə lazımdırsa, ordan köçürür.

– İndi uşaqlara internet də lazımdır. Hər şeyi elə ordan öyrənirlər. Bütün məhəllə qoşdurub, bir bizdən başqa.

– Bugün ev yiyəsi də gəlmişdi. Pul üçün.

– Sən nə dedin?

– Heç nə. Nə deyəcəm. Yarısını verdim, getdi. Evdə o qədər pul var idi.

– Lap yaxşı. – Sabir dərindən nəfəs aldı.

– Bilirsən nə olub? – Yasəmən üzünü Sabirə tərəf çevirib maraqla dedi.

– Nə?

– Fəridə xanımla danışdım səhər. Bankda işləyir axı. Dedi ki, yoldaşının rəsmi iş yeri olsa, bankdan kredit götürməyə kömək edərəm. Həm də dedi ki, ödəyəndə əlavə çox pul ödəməzsiniz.

– Faizi deyib yəqin.

– Hə, elə ondan.

– İnşaAllah, Yasəmən. Niyə də olmasın. Pul götürüb evimizi tikərik bizdə.

– Həə... elə buralardan bir yerdə torpaq alıb başlayarıq tikməyə. Burada torpaq elə də baha deyil. İki otaq tiksək bəs edər. Balaca həyəti də olar.

– Uşaqlar üçün də ayrı otaq edərik. Bəzəyərik istədikləri kimi.

– Həə... Hədiyələr də alarıq onlara. Aytac, yazıq uşaq neçə dəfə kukla istəyib məndən. Siniflərindəki qızlarda görüb. Uşaqlar üçün aboy olur haa, ondan da alarıq.

– Alarıq. Nə istəsələr alarıq. – Sabir Yasəmənə baxdı. – Bəs sən? Sən nə istəyirsən?

– Mən heç nə. Daha nə istəyəcəm. Evimiz olsun bəsimizdir.

Sabir Yasəməni çox yaxşı tanıyırdı. Bilirdi ki, bir şey istəsə də, utancından ağız açıb istəyə bilmirdi. Əslində, Sabir onun əziyyətini çox yaxşı görürdü. Yazıq qız bütün günü dayanmadan işləyirdi. Gündüzlər başqalarının evinin, axşamlar isə öz komasının dərdinə çarə olmağa çalışırdı. Sabir gecələr daha çox düşüncələr içində boğulurdu. İki il bundan qabaq rayondan necə ümidlərlə gəlmişdilər Bakıya. Sabir işləyəcək, ev tikəcəkdi, ailəsi üçün gözəl gələcək quracaqdı. Ancaq bu elə də asan deyildi. İşlər heç istədiyi kimi getmirdi. Rayona da qayıtmaq mümkün deyildi. Qayıdıb harada yaşayacaqdılar, necə dolanacaqdılar! Atasından qalan bircə ev var idi, onda da qardaşıgil qalırdı. Ona görə də Bakıda məskən salmaq üçün özünü məcbur edirdi. Yasəmən isə onun qol-qanadı idi. Arabir, daha doğrusu tez-tez "Yasəmən kimi həyat yoldaşına sahib olmaq üçün görəsən, necə bir savab iş görmüşəm?" – deyə öz-özünə sual verirdi. Yasəmən onun hər şeyi idi. Onu məktəb vaxtı, dördüncü sinifdə gördüyü gündən indiyə kimi. Və bu heç vaxt dəyişməyəcəkdi.

Sabir bir qədər düşüncələrə daldıqdan sonra özünü toparlayıb dedi:

– Sənin o dəfə gördüyün üzüyü də alarıq. Çox istəyirdin.

– Necə istəyirsənsə, elə də olsun. – Yasəmənin qara gözləri parlayırdı.

– Hələ başqa şeylərdə.

– İnşaAllah.

Yasəmən başını Sabirin sinəsinə qoydu. Sabirsə, əli ilə onun saçlarını oxşayırdı.

– Zakirlə danışdın?

– Yox. Niyə ki?

– Nə bilim. Fikirləşdim, yəqin danışarsan.

– Yox. Danışmamışam. Fikrim də yoxdur. Bircə dəli olmağım çatmırdı.

– Necə istəyirsən.

– Hə. – Sabir qısaca dedi. – Yat, qadası. Yat. Yuxun şirin olsun.

– Sənin də.

***

Gecədən xeyli keçsə də, Sabir hələ də oyaq idi. Gözünə yuxu getmirdi. Necə getsin axı?! O qədər dərd var idi ki. Rahat yatmaq olardımı? Gözlərini tavana zilləyərək eləcə donub qalmışdı. Düşünür, düşünür, düşünür və yenə də düşünürdü. Düşünməklə bir şeylər əldə etməyəcəyini ondan gözəl bilən yox idi, buna baxmayaraq, düşünməyə davam edirdi. Bəzən də xəyallar qurur, gələcək həyatın gözəlliklərini canlandırırdı, qaranlıq tavanda. Lakin hər şey kimi o da bir anda gəlib keçirdi. Yuxu isə heç gəlmirdi. Dərindən nəfəs alaraq yavaşca dikəldi.

Yasəməni oyandırmaq istəmirdi. Yataqdan enərək hamamın yolunu tutdu. Əl-üzünü yuyacaqdı. İşığı yandırdıqdan sonra qapını açıb içəri girdi. Halsız halda krantın başlığını qaldırıb doyunca əl-üzünü yudu. Sonuncu dəfə üzünə su vurduqdan sonra əllərini saçlarında gəzdirib sərinləməyə çalışdı. Elə bu an gözləri güzgüdəki əksinə sataşdı. Saçlarına, üzünə nəzər yetirdi. Saçları seyrəlmiş, üzündəki qırışlar çoxalmışdı. İndiyə kimi buna o qədər də əhəmiyyət verməyən Sabir qocaldığının fərqinə varmışdı. Yaşı az idi, ancaq istənməyən qonaq kimi gələn qocalıq bürümüşdü, bədənini. Gözlərinə, gözlərinin altında yaranan şişlərə nəzər yetirdi. Kinayə ilə gülümsədi.

– Qocalırsan, Sabir bəy. Qocalırsan. – Sakitcə dedi. Sonra yenidən güzgüyə yaxınlaşaraq gözlərinin içinə baxdı. – Bu qədər problemin içində hələ yaxşıyam. – Biranlıq gülümsədi, sonra yenə güzgüyə diqqətlə baxdı. – Heç utanırsan? Hə? Neçə aydır ki, işsizsən. Qonşular, qohumlar arxanca, Allah bilir nələr danışır. Qınamıram. Vallah. Qınanılası gündəyəm. Haqq edirlər. Millət hardan olur-olsun bir yolunu tapıb özünü dolandırır. Bəs mən? Elə yol ölçürəm. Gedirəm, gəlirəm. İş dilənirəm. Təmiz insan, şərəfli insan, düzgün insan olmaq kimə lazımdır axı? Nə edirsən, necə edirsən, fərqi yoxdur. Təki edəsən. Buna baxacaqlar, onsuzda. Kimə lazımdı, sənin quru şərəfin! Eh... Elə buna görə,

çıxarmadılarmı səni işdən?! – Başını bulayaraq köks ötürdü. Nə danışdığını heç özü də bilmirdi. Yenidən başını qaldırıb güzgüyə baxdı. – Təki canımız sağlam olsun. – Yasəmənin sözünü xatırlayıb gülümsədi. – Yazıq qız. Onunda həyatını bərbad eləmişəm. Məni tanıdığı günə daş düşəydi. Nə qədər vədlər vermişdim, evlənəndə. Heç bir dəfə də soruşmur ki, hanı o vədlər! Elə hey "təki canımız sağlam olsun" deyir. Allah bəlamı da vermir ki, canlarını qurtarsınlar məndən. Rahat yaşaya bilsinlər. Mənim etməli olduqlarımı o edir. Guya evin kişisi mənəm. Hah... – Kinayə ilə gülümsədi. – Kişi haa... Evin dirəyi! Əynimdəki tumana qədər o alır. Kişi! Kül sənin kişi başına! – Əlini güzgüyə tərəf sirkələdi.

Sabir getdikcə sərsəmlədiyini hiss etmişdi. Suyu açaraq üzünü bir daha yuduqdan sonra krantı bağlayıb hamam otağından çıxdı. Yataq otağına keçərək yerinə uzandı. Yatmağa çalışacaqdı. Sabah isə dünənki kimi yeni ümidlərlə oyanacaqdı.

**Nə fikirləşirsən, əziz oxucu? Necə olacaq bu biçarə, yazıq Sabirin halı? Düzələcəkmi yoxsa elə belə gedəcək? Vallah mən heç inanmıram. Səbəbini istəyirsənsə, deyərəm. Sən də mənim qərarımın düz ya səhv olduğunu özlüyündə düşünər, öz qərarını verərsən. Mənə görə heç nə**

**dəyişməyəcək. Çünki Sabir bu dünyanın adamı deyil! Ona görə də həmişə dönüb-dolaşıb eyni həyatı yaşamağa məhkum olacaqdır. Mən bəd insan deyiləm. İnan mənə. Gördüklərimi, eşitdiklərimi deyirəm sənə. Amma bir ümid var isə sənin qəlbində, o zaman mənə düşən hekayənin qalanını nəql etməkdir.**

***

Səhər hər kəs dünən olanları yenidən təkrarlamağa başlamış, Yasəmən işə, Aytac məktəbə getmişdi. Rüfətlə evdə isə Sabir qalmışdı. Bugün harasa getmək fikri yox idi. Gediləsi bir yer qalmadığından eləcə evdə oturub Rüfətə baxacaqdı. Yasəmən isə səhər erkəndən Fəridə xanımın evinin yolunu tutmuşdu. Fəridə xanımın evi şəhərin mərkəzində yerləşirdi. Yasəmən ora getmək üçün üç marşrut dəyişməli olurdu. Buna görə də səhər erkəndən evdən çıxırdı. Fəridə xanım bugün evdə olacaqdı. Banka getməyəcək, evdən işləri idarə edəcəkdi. Ona görə də, Yasəməni çağırmışdı. Evi təmizlətdirəcəkdi.

Yasəmən binaya daxil olduqdan sonra pilləkənlə dördüncü mərtəbəyə çıxdı. Fəridə xanımın qapısına çatıb zəngi basdı. Heç bir dəqiqə belə

keçməmişdi ki, qapını Fəridə xanımın bacısı Gülər açdı.

– Salam, Gülər xanım. Sabahınız xeyir.

– Sabahın xeyir, Yasəmən. Gəl. Xoş gəlmisən.

– Sağ olun. – Yasəmən içəri girərək ayaqqabılarını çıxardı.

– Fəridə telefonla danışır. Sən keç içəri.

– Yaxşı.

Yasəmən hamama girərək paltarlarını dəyişdikdən sonra oradan çıxaraq qonaq otağına keçdi. Fəridə xanım hələ də telefonla danışırdı. Yasəməni görüb gülümsəyərək başını yellədi.

– Necə istəyirsiniz. Maaşı varsa, lap yaxşı. Yoxdursa, pensiya kartı ilə də kredit götürə bilər. Nə lazımdırsa, mən kömək edərəm. Təki ürəklərincə olsun. – Xəttin digər tərəfində danışanı dinləməyə başladı. – Aydındır. Çox sağ olun. Tezliklə görüşənədək. – Telefonu söndürüb masanın üzərinə qoydu. Sonra isə Yasəmənə baxaraq dedi. – Xoş gəlmisən, gözəl. Necəsən?

– Sağ olun, Fəridə xanım. Yaxşıyam. Siz necəsiniz?

– Mən də yaxşıyam.

– İstəyirsənsə, otur dincəl. Bir çay iç. Sonra işə başlayarsan.

– Yox, sağ olun. Mən elə işə başlasam yaxşıdır.

– Necə istəyirsən. Onda elə burdan başla. Sabaha qonaqlarım olacaq. Ona görə də, istəyirəm hər yer təmiz olsun.

– Narahat olmayın. Tərtəmiz edərəm hər yeri.

Yasəmən əlində tutduğu yaş parça ilə şkafların üstünü silməyə başlamışdı. Fəridə xanım ilə bacısı isə divanda oturaraq söhbət edirdilər. Fəridə xanımın yaşı qırxı ötərdi ya yox. Neçə il idi ki, bankda işlədiyindən əhatəsi də geniş idi. Həyat yoldaşı Şamil bəy isə xəstəxananın baş həkimi işləyirdi. Fəridə xanımla həyat yoldaşı yaxşı insanlar idi. Fəridə xanımın iki oğlu, bir qızı vardı. Qızı aytacdan dörd il böyük olduğundan Fəridə xanım qızının geymədiyi paltarlarını onun üçün verərdi. Bəzən elə olurdu ki, Fəridə xanım Aytac üçün təzə paltarlar alar, qızının köhnə paltarları deyə Yasəmənə verər, könlünü xoş tutmağa çalışardı. Yasəmən isə onun xətrini əziz tutar, nə zaman istəsə, qulluğunda hazır durardı.

– Yasəmən, ərin necə oldu? Bir iş tapa bildi?

– Yox, ay Fəridə xanım. İşsizdir elə. – Yasəmən parçanı su ilə dolu vedrəyə salıb yumağa başladı.

– Mən də neçə adama demişəm. Ancaq bir xəbər verən yoxdur. Vallah indiki zamanda iş tapmaq da çətindir.

– Niyə işləmir ki?

– İşləyirdi, Gülər xanım. Ancaq bu virus yayılanda işlədiyi şirkət neçə ay bağlı oldu. Sonrada bəzi işçiləri saxlayıb çoxunu da çıxardılar.

– Nə qədərdir ki, işsizdir? – Gülər maraqla soruşdu.

– Səkkiz ay olar.

– Ay qız, o kişini neynirsən? Mən olsam, çoxdan boşamışdım. – Gülər qəhqəhə ilə gülməyə başladı.

Yasəmən Gülərin sözlərinə pis olsa da, o da gülümsədi.

– Gülər xanım, nə olsun ki, işsizdir. Ancaq Sabir yaxşı insandır. Doqquz ildə mənə güldən ağır bir söz belə deməyib. Nə içkisi var, nə siqareti. İndi işləri alınmır deyə, ayrılmazlar ki.

– Doqquz il? Sənin neçə yaşın var ki? – Gülər çayından bir qurtum alaraq saymazyana soruşdu.

– İyirmi yeddi. – Yasəmən ona baxmadan cavab verdi.

– Allah haqqı tez evlənmək də bir şey deyil. Sən elə mənimlə eyni yaşdasan. Gərək adam əri də seçəndə yaxşı-yaxşı fikirləşə. Mənim ərim məni ildə bir dəfə xaricə gəzməyə aparmasa, Vallah öldürərəm onu. – Gülər yenidən qəhqəhə ilə güldü.

Yasəmən əsəbindən əlindəki parçanı masaya daha möhkəm sürtürdü. Güləri bir neçə dəfə görmüşdü. Ancaq ulduzu onunla heç barışmamışdı.

Gülər özündən razı biri idi. Qarşısındakı insana malına, mülkünə görə hörmət edirdi. Fəridə xanımla bacı olsalar da, ancaq bir-birinə zidd insanlar idilər. Ona görə də, Yasəmən ondan heç xoşlanmaz, onun atmacalı sözlərini eşitməməzlikdən gələrdi.

– Təki canımız sağlam olsun. Qalan hər şey zamanla düzələr. – Yasəmənin boğazı düyünlənmişdi. Əsəbi olsa da, bunu bildirməməyə çalışırdı.

– Bəs oxumaq istəmədin? – Gülər Yasəmənin üstünə daha çox getməyə başlamışdı. – Yoxsa ər çörəyi yeyib oturmağı fikirləşirdin? – Kinayə ilə soruşdu.

– Atamgilin imkanı yox idi, məni oxutsunlar. Yoxsa mən də istəyərdim, oxuyum, təhsilim olsun.

– Yenədə oxusaydın, yaxşı olardı. Uşaqlara da indi düzgün tərbiyə verə bilməyəcəksən.

– Niyə elə deyirsiniz? Mən uşaqlarıma çox gözəl tərbiyə verirəm. Təhsilim olmasa da, onları öyrədəcək savadım var. – Yasəmən əsəblə dedi. Ancaq Fəridə xanıma görə, səsinin tonunu aşağı saldı. – Bizə tərbiyə verənlərin də savadları olmayıb.

Elə bu an Fəridə xanımın əlindəki stəkan sınaraq içindəki çayla birlikdə yerə dağıldı.

– Ay Allah, bu bir həftədə neçənci stəkandır ki, sınır. Heç yaxşı stəkanlar deyil. – Fəridə xanım əyilərək stəkan qırıntılarını yığmağa başladı.

– Ay qız, sən niyə yığırsan? Yasəmən bura niyə gəlib, yığacaq da o. – Gülər əli ilə Fəridə xanımdan qalxmasını istədi.

– Elə şey olar? Nə var ki, burda?! – Fəridə xanım Gülərin sözlərindən xoşu gəlməmişdi ki, tərs-tərs ona baxdı.

Yasəmən isə yenə Gülərə bir söz demədi. İşinin xatirinə susmağa məcbur oldu.

– Mən yığışdıraram, Fəridə xanım. Siz narahat olmayın. – Yasəmən dərhal yanlarına gəlib dizlərini yerə qoyaraq qırıntıları yerdən götürüb yeri silməyə qoyuldu.

Bir yandan yeri silir, bir yandan da özünü ələ almağa çalışırdı. Ayaqlarını bir-birinin üstünə atmış Gülərin qarşısında diz köçüb yeri silməsi onu daha da əzirdi. Qəhər boğsa da, özünü sıxır, ağlamamaq üçün özünü zorla saxlayırdı. Onsuzda, hər əzaba dözməyi öyrənmişdi. Buna da dözmək elə də çətin olmayacaqdı. Ancaq nə qədər olsa da, axı o da qadın idi. Qadınlıq qüruru isə içində tüğyan edir, tufanlar qoparırdı. Bunu isə üzə vurmurdu. Ailəsi üçün məcbur idi.

***

– Sən gəl mənim dediyimi elə. Boş-boş oturmaqdan bir şey çıxmayacaq.

– Ay qardaş, istəmirəm də! Niyə başa düşmürsən? – Sabir stəkanı çayla doldurub Zakirin qabağına qoydu.

– Niyə istəmirsən axı? Elə də çətin olmayacaq. Uzağı iyirmi gün. Həkimlə də danışmışam, hər köməklik edəcək. Həm tanış adamdır, vəziyyətinizi də danışdım, sağ olsun, bir qəpik də almayacaq. – Çayından bir qurtum aldıqdan sonra qənd qabına baxdı. – Konfet yoxdu?

– Yox, qurtarıb.

– Heç nə olmaz. Nəysə, – deyə qəndi ağzına atdı. – Gəl, razı ol. Neçə aydır ki, işsizsən. Bacıma da yazıqdır. Özünü fikirləşmirsənsə, onu fikirləş, uşaqlarını fikirləş. Nə vaxta kimi evdə oturacaqsan?

– Offf... – Sabir əsəblə əlini üzündə gəzdirdi. – Başa düşmürsən, sənin dediyini etsəm, məni heç işə götürən olmayacaq!

– Elə deyirsən ki, səni guya nazir götürəcəklər. Adi işlərdə işləyəcəksən də. Onlar da belə şeylərə heç fikir vermirlər.

– Mən bugündən sonra dəli olmaq istəmirəm. Həm niyə kimisə aldadım ki?! Bu düzgün olan iş deyil.

– Yenə başladı. Ə, nə düzgünlük! Kimdi düzgünlüyə baxan. Düzgün olub nə edəcəksən? De,

səkkiz aydır ki, cibinə bir qəpik girmir. Ağıllı ol! Sənə deyirəm ki, gəl mənim dediyimi elə. Həkimlə də danışmışam. Uzağı iyirmi gün xəstəxanada yatacaqsan. Sonra isə olacaqsan pensiyaçı. Ayda iki yüz manatını alacaqsan. Heç yoxdan yaxşıdır.

– Soruşsalar da, nədən çıxmısan, deyəcəm dəlilikdən! Bir bu qalmışdı.

– Ə, sənə kim deyir, hamıya hesabat ver! Deyərik ki, rayona iş dalıyca gedib. Narahat olma. Yasəmənlə uşaqlara da biz baxarıq.

– Nə bilim, Zakir. Bilmirəm.

– Mən səndən çox bacımı fikirləşirəm. O, mənə ata, anamdan yadigardır. Gözlərimin önündə əriyib yox olur bədbəxt. Ona yazığın gəlsin.

Zakir sözünü bitirib susdu. Sabir isə başını aşağı salmışdı. O da heç nə demirdi. Zakirlə Sabir uşaqlıqdan bir-birini tanıyırdılar. Zakir ondan iki yaş böyük olardı. Yasəmənlə Sabirin evlənməsi üçün evdəkiləri də elə Zakir razı salmışdı. Sabirin xətrini çox istəyirdi. Ona görə də, çalışırdı ki, onlara bir yardımı toxunsun.

– Fikirləş. Yasəmənlə də danış. Götür-qoy edin. Ancaq bir qərara gəlin. Vaxt itirmək yaxşı deyil. – Zakir ayağa qalxdı. – Rüfət hardadır? Gələndən görməmişəm.

– O biri otaqdadır. Yatıb.

– Lap yaxşı. Mən gedirəm. Yenə gələcəm.

– Xoş getdin.

Zakir mətbəxdən çıxaraq həyətə endi. Sabir də onun arxasıyca yola salmaq üçün həyətə çıxdı.

– Sağ ol. – Zakir həyət qapısından çıxıb getdi.

Sabir də həyətdə biraz var-gəl etdikdən sonra yenidən evə girdi. Nə edəcəyini heç cürə qərarlaşdıra bilmirdi. Çıxış yolu axtarsa da, qarışıq fikirlər içində itib batırdı. Zakirin dediyini etmək istəmirdi, ancaq başqa əlacı da yox kimi görsənirdi.

***

Axşama kimi Yasəmən birtəhər dözmüş, Gülərlə ünsiyyət qurmamağa çalışmışdı. İşini tez bitirib evə getmək, bugün olanları yaddaşından silmək istəyirdi. Ona görə də, dayanmadan çalışırdı ki, işini tez bitirsin. Getmək vaxtı çatdığında isə həmişə olduğu kimi Fəridə xanımla oturub dərdləşmək belə istəməmişdi. Alacağı pulu aldıqdan sonra dərhal evinin yolunu tutmuşdu.

Yasəmən kəndin mərkəzində avtobusdan enib dar yolla getməyə başladı. Fikirləşmək istəməsə də, təkrar olaraq, yaşadığı həyatı düşünür, içində kimlərisə asıb-kəsirdi. Gülərin sözlərini xatırlayır, qəhər boğsa da, özünü sıxıb saxlayırdı. Kiminsə onu dərdli görməsini istəmirdi. Bütün hirsini isə çiynindən

asdığı çantasına tökürdü. Dırnaqları ilə çantanın dəstəsindən elə tutmuşdu ki, sanki bu dəqiqə çantanı parçalayacaqdı.

Sonunda evinə çatmışdı. Həyət qapısından içəri keçərək evə daxil oldu. Nə Sabir, nə də Rüfət gözə dəymirdi. Öz otağına keçərək çantanı əsəblə bir kənara tulladı. Yatağın üstünə oturaraq başını yerə dikdi. Düşünməkdən halı heç də yaxşı deyildi. Ağlamamaq üçün özünü güclə saxlayırdı. Ancaq başını qaldırıb şkafın üstünə qoyulmuş güzgüdə öz əksini görəndə hönkürtü ilə ağlamağa başladı. Bir əli ilə gözlərinin yaşını silir, bir əli ilə də ağzını tuturdu. Sabirlə Rüfətin onun səsini eşitməsini istəmirdi. Yasəmən durmadan ağlayırdı. Bütün hirsini, əsəbini, illərlə içinə yerləşdirdiyi acıları bir dəqiqənin içində gözlərindən çıxarmışdı.

Sabir isə olanlardan xəbərsiz hamamda Rüfəti çimizdirirdi. Rüfəti yuyub dəsmalla qurutduqdan sonra hamamdan çıxaraq onu öz otağına apardı. Rüfəti yerinə uzandırdıqdan sonra mətbəxə gedirdi ki, yataq otağının yanından keçərkən Yasəməni gördü.

– Gəlmisən? – Qapıya söykənərək dedi.

– Hə. Biraz olar. – Yasəmən Sabirə heç nə bildirməmək üçün ayağa qalxaraq arxasını ona tərəf çevirdi.

– Nəsə olub? – Sabir Yasəmənin səsindən şübhələnmişdi.

– Heç. Heç nə. Yorğunam biraz.

– Yaxşı. Çay qoymuşam. Gəl bir stəkan iç. Yorğunluğunu alar. – Sabir Yasəmənin yalan dediyini başa düşmüşdü. Onu ilk görəndə gözlərinin şişdiyini sezmişdi.

Mətbəxə girərək çay süzmək istədi, ancaq nə fikirləşdisə, mətbəxdən çıxıb həyətə düşdü. Telefonu çıxardaraq Zakirə zəng etdi.

– Salam. Birazdan gələ bilərsən? Dediyini oturub bir də danışaq.

– Yaxşı. Gələrəm. – Xəttin digər tərəfindən Zakirin səsi eşidildi.

Sabir telefonu söndürüb cibinə qoydu. Başını qaldırıb göy üzünə baxdı. Sonra yenidən geri dönüb evə girdi.

Yasəmən isə çoxdan əynini dəyişmişdi. Mətbəxdə çay süzmüş, divanda oturmuşdu. Sabirin mətbəxə girdiyini görüb ona baxdı.

– Harda idin?

– Heç. Zakirlə danışırdım. – Stula əyləşdi.

– Niyə? Nəsə olub? – Yasəmən maraqla soruşdu.

– Yox. Dedim gəl, danışaq. Görək, neynirik.

– Razısan? – Əlindəki stəkanı nəlbəkiyə qoydu.

– Başqa çarəm var? – Sabir gözlərini ondan qaçırmağa çalışırdı. Gözlərinə baxmaq istəmirdi.

– Sabir, istəmirsənsə, getmə. Bəlkə hər şey düzələcək. Hə?

– Vaxt gedir, qadası. Nəsə etmək lazımdır.

– Mənə görə edirsən? – Yasəmənin gözləri dolmuşdu.

– Sənə, uşaqlara. Başqa kimə görə edəcəm ki? Hər şeyi sən etməli deyilsən ki.

– Mən narazı deyiləm. İnan mənə. Sənin istəmədiyin bir şeyi zorla etməni mən də istəmirəm. – Sabirin əlindən tutdu.

– Bilirəm, qadası. Ancaq etmək lazımdır. İstədim ya yox. Mən etməsəm, heç kim bizə nəsə etməyəcək.

Elə bu an Zakir həyət qapısından içəri girdi. Qapının açılmasını eşidən Yasəmən əlini Sabirin əlinin üstündən çəkib ayağa qalxdı. Şkafa yaxınlaşaraq stəkan, nəlbəki çıxartdı. Çay süzdükdən sonra çayı masanın üstünə qoydu. Sabir isə mətbəxdən çıxıb Zakirin qarşılamağa getdi.

– Nə tez gəldin?

– Kənddəydim. Sən zəng edən kimi də gəldim. Yasəmən evdədir?

– Hə. Gəlib.

– Lap yaxşı.

İkisi də evə girdilər.

– Salam, Yasəmən. Necəsən? – Zakir Yasəmənə yaxınlaşıb görüşdü.

– Salam, qardaş. Yaxşıyam. Sən necəsən? Xədicə bacı necədir? Uşaqlar?

– Şükür. Hamısı yaxşıdır. Salamları var.

– Yaxşı olsunlar. – Yasəmən yer göstərdi. – Keç, otur. Yol gəlmisən. Çay süzmüşəm.

Zakir masanın başına keçərək əyləşdi. Sabir də divanda oturdu. Yasəmən isə ayaqüstə onların nə danışacağını gözləyirdi. Zakir çayından bir qurtum içdikdən sonra Sabirə baxaraq dedi:

– Hə. De görək, nə deyəcəksən.

– Dediyini edəcəm. – Sabir bu sözü deyərkən gözucu Yasəmən baxdı.

– Düz eliyirsən, Vallah. Heç narahat olma! Mən hər şeyi həll edəcəm. – Üzünü Yasəmən çevirdi. – Sən də, bacım. Vallah, hər şey istədiyimiz kimi olacaq.

– Bəs nə vaxt gedəcəm? Xəstəxananı deyirəm.

– Sabah gedək həkimin yanına. Şəxsiyyət vəsiqəni özünlə götürərsən. Onla danışarıq. O da sənədləşməni edəndən sonra, xəstəxanaya gedərsən.

– Orda neçə gün qalacaq? – Bayaqdan susaraq danışanları dinləyən Yasəmən söhbətə qarışdı.

– On beş, uzağı iyirmi gün. Ondan çox olmayacaq.

– Ay qardaş, deyirəm, Sabir orda yata-yata həqiqətən dəli olar. Onda neylərəm mən?!

– Eşqimdən dəliyə dönüb deyərsən. – Zakir sözünü bitirib qəhqəhə ilə gülməyə başladı.

Onun bu sözünə Sabirlə Yasəmən də güldülər.

– Bəs mənə inanacaqlar?

– Narahat olma, Sabir. Həkim sənə hər şeyi izah edəcək.

– Yaxşı. Necə deyirsənsə, elə olsun. Yaşayaq, görək başımıza nə gəlir.

– Mənə inan. Qalan şeyləri boş ver.

– Mən yenədə narahatam. Orda, xəstəxanada hər cür adam var. Nə desən olar.

– Ay Yasəmən, bu adam indiyə kimi hər cür adam görüb. Bir şey olmaz.

– Xəstəxanadan çıxan kimi pensiyaya çıxmış olacam? – Sabir yenidən sual verdi.

– Həkim dedi, xəstəxanaya yatan günü sənədlər göndəriləcək.

– Yaxşı. Nə deyim. Təki hər şey istədiyimiz kimi olsun.

– Olacaq. Qəti narahat olmayın. – Çayı başına çəkdi. – Yaxşı mən gedim. Evə bir-iki şey almalıyam. Birazdan hər yer bağlanar. – Ayağa qalxdı. – Sabah səni özüm gəlib götürərəm. Səhər orda olarıq. Vaxt getməsin.

– Oldu. Hazır olaram.

– Di, salamat qalın.

– Evdəkilərə salam deyərsən. – Yasəmən dedi.

– Deyərəm.

Sabir Zakiri ötürmək üçün həyətə düşdü. Elə bu an qapıdan Aytac içəri girdi.

– Dayı, xoş gəlmisən.

– Xoş gördük. – Zakir Aytacın yanağından öpdü. – Sən hardan gəlirsən?

– Qonşudan. İnternetə görə getmişdim.

– Hə, lap yaxşı. Get evə. Hava soyuqdur.

Aytac onların yanından ayrılıb evə girdi.

– Sabah görüşərik. – Zakir qapını açaraq küçəyə çıxdı.

– Sağ-salamat.

Zakir avtomobilinə minib getməsindən sonra Sabir də evə qayıtdı. Mətbəxə girib divana əyləşdi.

– Gedəcəksən? – Yasəmən stula əyləşərək soruşdu.

– Hə. Gedəcəm.

– Nə bilim. Təki istədiyin olsun. – Yazıq-yazıq ona baxdı.

– Uşaqların yanında danışmayaq. Sonra...

– Yaxşı.

Yasəmən üzünü çevirib yeməyi bişirməyə davam etdi. Sabirsə, eləcə oturduğu yerdə qalmışdı. İstəməsə də, fikri qəti idi. Başqa çarə bilmirdi. İyirmi gün dözəcək, sonra hər şey qaydasına düşəcəkdi. O, belə düşünürdü. Buna da çox inanırdı. Şübhələri də var idi. Ancaq içində yaranan ümid şübhələrini

üstələyirdi. Ümid insanı düşdüyü yerdən qaldırmaq üçün gözəl bəhanə idi. O bəhanəni də tapmışdı. Geriyə güc toplamaqda qalırdı.

***

Zakir telefonu çıxarıb həkimin nömrəsini tapdı. Sonra isə telefonu qulağına apararaq zəngə cavab verilməsini gözlədi. Bir neçə dəfə zəng səsləndikdən sonra xəttin digər tərəfindən səs gəldi.

– Alo.

– Salam, həkim. Necəsiniz?

– Sən kimsən?

– Mənəm, Zakir. Sizinlə danışmışdıq. Qaynımın məsələsinə görə.

– Hə. Niyə zəng eləmisən? – Kobudca yenidən soruşdu.

– Deyirdim, sabah yanınıza gələk. O məsələni danışardıq.

– Gəlin.

– Nə vaxt gələk?

– İş vaxtı gələcəksiz də... başqa nə vaxt gələcəksiz ki?

– Yox. Ona görə demədim. Yəni vaxtsız gəlib narahat etməyək.

– Narahat olsam, özüm deyərəm. Siz gəlin.

– Baş üstə.

– Sağ ol.

Zakir qaşqabaq tökərək telefonu cibinə qoydu. Sabah elə erkəndən getməyi düşünürdü. Vaxt itirmək olmazdı.

***

Axşam olub yatmaq zamanı gəldiyində hərkəs yataqlarına uzanmış, gözlərini yumaraq günəşin öz şüalarını ətrafa saçdığı vaxtadək dünyadan qopmağa hazırlaşırdı. Yasəmənlə Sabir isə gözlərini tavana zilləyib olacaqları düşünürdülər.

– Tez-tez zəng edərsən.

– Edərəm.

– Bizi nigaran qoyma.

– Yaxşı.

– Zəng etməyə icazə verərlər?

– Niyə vermirlər ki? Verərlər.

– Bəs mən? Mən sənə zəng edə biləcəm?

–Telefon qoymazlar.

– Kaş qoyardılar. Onda sən də evdən narahat olmazdın.

– Narahat olmaram. Sən varsan.

– Nə bilim.

Yasəmən başını Sabirin çiyninə qoymuşdu. Sakitcə danışır, sözü uzatmadan bir-birlərinə cavab verirdilər. Sabirin danışmağa o qədər də həvəsi yox idi. Ancaq Yasəmən Sabiri neçə gün görməyəcəyi üçün söhbəti uzatmağa çalışırdı.

– Bugün bilirsən nə oldu?

– Nə?

– Fəridə xanım telefonla danışanda eşitdim. Pensiyaçılar da kredit götürə bilirlər. – Yasəmən lazımsız olsa da, bu məsələni açmışdı. Danışmaq, Sabiri dinləmək istəyirdi.

– Biz də götürərik.

– İstəsən, yəni.

– İstəyərəm.

– Təki sağlıq olsun. Qalan heç nə istəmirəm.

– Yat, qadası. Sabah danışarıq.

Sabirin bu sözündən sonra Yasəmən də susdu. Heç bir söz demədən gözlərini yumaraq sabahın açılması üçün yuxuya getdi.

Saatlar keçir, Sabir üçünsə gecə bitmirdi. Elə hey tavana baxırdı. Gözlərini qırpmadan həm də. Yuxu isə gəlmirdi. İçindəki sıxıntılar yuxusunu qaçırırdı. Nə edəcəyini bilmirdi. Sadəcə dinmədən, danışmadan, səssizcə baxırdı. Ancaq bu o qədər də uzun çəkməyəcəkdi. Yerindən qalxaraq hamama, əl-üzünü yumağa getdi. Yataq otağından çıxıb hamam otağının işığını yandırdı. İçəri keçib suyu açdı. Üzünü

iki dəfə yuduqdan sonra əlləri ilə üzündəki suyu dağıtdı. Sonra başını qaldıraraq yenidən güzgüdəki əksinə baxdı. Gözlərinin altı çökmüşdü. Baxışları qorxuducu idi. Sual dolu.

– Nə olub? Nə baxırsan? Başqa çarəm var?! Axı məcburam. Etməliyəm, qadası. Mən bu evin başıyam. Bunu yaddan çıxartma. Nə olar! Mən hər şey etməliyəm. Onlar üçün. Yasəmən üçün, qızım üçün, oğlum üçün. Məni başa düşürsən, qadası? Etməliyəm. Buna məcburam. Düzgünlük bir yerə qədərdir. Sonrası isə daşlı-çınqıllı yollardır, qadası. O yollar insanı çirklədər, bilirsənmi? Məni də. Mən kiməmki! Adi bir insan. Məcburam. Bil bunu. Məcburam, qadası.

Dərindən nəfəs alaraq suyu yenidən açdı. Bir dəfə də üzünü yuduqdan sonra suyu bağlayıb hamam otağından çıxdı. Yataq otağına keçib yerinə uzandı. Gözlərini yumaraq yatmağa çalışdı. Sabahın olmasını istəməsə də.

***

Ertəsi gün iş vaxtından yarım saat keçmiş olar ya yox, Zakirlə Sabir xəstəxananın həyətində idilər.

– Həkim gəlmiş olar?

– Hə. Hamıdan tez gəlir. Dünən də danışmışam. Burda olacaq.

– Təki elə olsun.

– Olar, olar.

– Necə adamdır?

– Həkimdi də... necə olacaq. Yaxşı adamdır. Özün də görəcəksən. Ancaq biraz qəribədir.

– Necə yəni?

– Özün yanına girəndə görəcəksən.

– Başıma oyun açırsan, Vallah.

– Ay kişi, sən nə vasvası adamsan. – Zakir əllərini yana açaraq dedi. – Hər şeyə mızıldanırsan. Deyirəm, narahat olma, Vəssalam daa...

– Neyniyim? Birinci dəfədir, başıma belə bir iş gəlir. Qınama məni. – Başını aşağı salaraq sakitcə dedi.

– Heç nədən qorxma. Yaxşı olacaq. – Sözünü bitirib yolun sağ tərəfinə tərəf boylandı. – Gedək. O binadadır.

İkisi də binaya yaxınlaşıb içəri girdilər. İkinci mərtəbəyə qalxıb dəhlizlə həkimin otağına doğru addımladılar. Zakir iti addımlarla otağa doğru irəliləyir, Sabir isə asta addımlarla onun arxasıyca gedirdi. Utandığından addımlarını daha da yavaşladırdı. Həkimin onun haqqında nə düşünəcəyini bilmədiyindən daha da sıxılır, otağa girməmək üçün özlüyündə bəhanələr yaradırdı.

Ancaq Zakirin səsi onu sanki yuxudan ayıltmış, içində çabaladığı həyata geri qaytarmışdı.

– Sabir, bu otaqdır. Gəl.

Zakir qapını iki dəfə astadan döydükdən sonra açıb içəri boylandı.

– Sabahınız xeyir, həkim. Gəlmək olar?

– Gəl, gəl. – İçəridən həkimin səsi eşidildi.

– Sabir... – Əli ilə işarə verərək Sabirin də arxasıyca gəlməsini istədi.

İkisi də içəri keçərək həkimin qarşısında dayandılar.

– Oturun da... nə gözləyirsiniz? – Həkim stulları göstərərək dedi.

– Sağ olun, – deyə ikisi də bir ağızdan dilləndilər.

– Hə... deyin görək, nə məsələdir.

Həkim eynəyini taxaraq onlara baxdı. Sabir içəri girəndən bu həkimdə nəsə qəribəlik olduğunu sezmişdi. Həkimin üz quruluşu elə idi ki, insanın istər-istəməz gülümsəməsinə səbəb olurdu.

– Həkim, dünən də sizinlə telefonda danışdıq. Həmin dediyim adamı gətirmişəm.

– Budur? – Əli ilə Sabiri göstərdi. – Necəsən?

– Sağ olun. Yaxşıyam. Siz?

– Pis deyiləm. – Maraqla Sabirə baxırdı. – Qorxmursan ki?

– Yox. Niyə?

– Elə belə. Söz olsun deyə dedim. – Həkim gözlərini iri açaraq Sabiri başdan ayağa süzdü. Sonra yenə ona baxıb əlavə etdi. – Səndən olar. Olar.

– Nə olar? – Sabir də qorxu qarışıq maraqla soruşdu.

– Başa salacam səni. Qəti qorxma. – Əlini yuxarı qaldırdı. – Şəxsiyyət vəsiqəni gətirmisən?

– Gətirmişəm.

– Gözəl. Hər şeyi mən həll edəcəm. Xəstəxanada yatacaqsan. Orda da özünü elə apar ki, guya həqiqətən xəstəsən. Belə də ki, bir neçə günə ordakılara özün də öyrəşəcəksən.

Həkimin son cümləsi Sabiri narahat etməyə bilməzdi. Ona görə də, birinci Zakirə, sonra həkimə baxıb dedi:

– Necə yəni öyrəşəcəm?

– Xəstəxananı deyirəm. Yaxşı yerdir. Xəstələrə də yaxşı baxırlar. Korluq çəkməzsən.

– Siz inanırsınız ki, bu iş alınacaq?

– Birinci dəfə deyil ki. – Həkim sözünü bitirib gülməyə başladı. Onun gülməyi də qəribə idi.

– Siz daha yaxşı bilərsiniz, həkim. – Zakir araya girdi.

– Mən bilirəm. Bu iş də alınacaq. Ancaq əvvəlcə analiz verəcəksiniz. Tam sağlam olduğunuza əmin olmalıyıq.

– Sağlam olanın orada nə işi var? – Sabir heç nə anlamamışdı.

– Daxili orqanları sağlam olmalıdır. Onsuzda, bu elə xəstəlikdir ki, kimsə olub-olmadığını deyə bilmir. Gərək sən özünü elə aparasan.

– Başa düşdüm.

– Onda dur get. Vaxt itirmək olmaz. Analizləri ver.

– Yaxşı. – Sabir ayağa qalxdı.

– Üçüncü mərtəbəyə qalxın. Orada verəcəksiniz. Sonra yenə yanıma gələrsiniz.

– Oldu, həkim. – Zakir dedi.

İkisi də həkimin yanından ayrılıb otağı tərk etdilər. Dəhlizə çıxaraq pilləkənlərə tərəf addımlamağa başladılar.

– Ay Zakir, bu həkimin özünü aparmaq lazımdır ora.

– Əşşi, sənə nə var. Yazıq o qədər dəlilərlə danışır ki, belə olacaq da.

– Bu belədirsə, gör indi ordakılar necədir.

– Qorxaq olma. Gedək. İşimiz çoxdur. – Zakir Sabirin qolundan tutaraq pilləkənlə üçüncü mərtəbəyə çıxartdı.

***

Otaq-otaq gəzib analizləri verdikdən sonra yenidən həkimin otağına qayıtdılar. Zakir əvvəlki kimi qapını iki dəfə astadan döydükdən sonra açıb içəri boylandı. Həkimin razılığından sonra ikisi də içəri girdilər.

– Həkim, analizləri verdik. Ancaq hamısı bugün çıxmayacaq. Dedilər, sabah gəlin götürün. – Zakir dedi.

– Götürün də. Bura niyə gəldiniz? – Həkim maraqla onlara baxdı.

– Demədiniz, analizləri verib yanıma gəlin? – Sabir həkimə baxdı.

– Dedim, dedim də... cavabları alın, sonra gələrsiniz.

– Necə istəyirsiniz.

– Hə. Gedin. Durmayın burda.

– Oldu. Sağ olun. – Sabir qapıya tərəf yaxınlaşdı.

– Sabah cavabları versək, neçə günə xəstəxanaya gedəcək? – Zakir isə yenidən sual verdi.

– Onu sabah deyərəm. Gedin. – Həkim təbəssümlə qapını göstərdi.

– Sağ olun, həkim.

– Xoş getdiz.

İkisi də dəhlizə çıxdılar.

– Dəhşət qəribə adamdır. Adamı lap ələ salır. Belə iş olar? – Sabir əsəblə, ancaq sakit səslə dedi.

– Fikir vermə. Xasiyyəti belədir. Ancaq yaxşı adamdır.

– Nə bilim, Vallah.

– Elədir, elədir. Gedək. Nahar vaxtı çatdı. Acından öldüm.

– Gedək.

Pilləkənlə aşağı düşməyə başladılar.

– Yasəmən evdədir?

– Evdə olmalıdır.

– Görəsən, nə bişirib?

– Aş qoymuşdu dəmə.

– Yaxşı da. – Zakir ona baxaraq sevinclə dedi.

– Ə, nə aş! Mən nə hayda, sən nə hayda.

– Niyə əsəbləşirsən? Vecinə alma heç nəyi. Hər şey yaxşı olacaq.

– Görək də, Zakir.

Xəstəxananın həyətinə çıxıb asta addımlarla getməyə başladılar. Burada işləri hələki bitmişdi. Hər şey sabah bəlli olacaqdı.

**Sabir yavaş-yavaş əldən gedir. Ha ha ha))) Nəysə, ciddi olaq. Ay qardaş, sən niyə başqasının sözünə qulaq asırsan? Ancaq onu da qınamaq olmur, yazıq neyləsin. Qalıb ortada. Bilmir, getsin**

**ya yox. Getməsə bir cür peşman olacaq, getsə də... Onu isə hələki bilmirik. Yaşayıb görəcəyik. Amma yenə də deyirəm, əziz oxucu. Çox da ümidlənmə. Bəzi şeylər olacaq, düzdür. Lakin sən fikirləşənlər deyil. Mənim, yəni yazarın istədikləri olacaq. Məni də qınama, Vallah. Nə görürəm, onu da sənə çatdırıram. Vasitəçiyəm. Mənə isə zaval yoxdur.**

***

***Uzun keçən bir günün sonrası...***

Sabirlə Zakir eyni saatda yenidən xəstəxananın həyətində görünmüşdülər. Sabir bir günü necə başa vurduğunu heç özü də bilmirdi. Bütün günü susub qonaq otağının bir küncündə oturub qalmışdı. Nə kimləsə danışmış, nə də yemək yeyə bilmişdi. Oğlu Rüfət belə onu güldürə bilməmişdi. Elə hey düşünmüş, suallar yaratmış, ancaq heç bir cavab ala bilməmişdi. İndi isə kor-peşman xəstəxanaya gəlmişdi. Özlüyündə məcbur olduğuna inandırmışdı özünü. Ancaq arabir gələn peşmanlıq hissi ayaqlarını geriyə atmağa səsləyirdi. Çıxılmaz yollara düşmüşdü. Gəl ki, dönə də bilmirdi.

– Həkim burda olar?

– Olar. Tez gəlir. Dünən demişdim axı.

– Demişdin. – Sabir qısaca dedi.

– Gəl gedək. – Zakir əli ilə binanı göstərdi.

İkisi də bir yerdə binaya daxil olub ikinci mərtəbəyə çıxdılar. Dəhlizlə həkimin otağının yanına yaxınlaşdılar. Zakir əvvəlki kimi qapını iki dəfə döydükdən sonra açıb içəri boylandı. İcazə alıb ikisi də içəri keçdi.

– Salam, həkim. Necəsiniz? – Zakir stula əyləşərək həkimə baxdı.

– Heç yaxşı deyiləm. Arvadla səhər dava eləmişik. – Həkim gileyli halda dedi. – Mənə deyir, səni boşayacam. Uşaqları da alacam deyir. Hələ məhkəməyə də vermək fikri var. Uşaqlar da mənim yanımda qalmaq istəyirlər. Məni çox istədiklərindən yox ha... Oğlum deyir, atamın pulu var, anamla qalmayacam. Biqeyrət köpək uşağı. Adam da anasını atar?! – Rişxəndlə gülümsədi.

Zakirlə Sabir həkimin danışdıqlarına təəccüblə qulaq asırdılar. Bu yersiz, mənasız söhbət onları çaşdırmışdı. Onlar elə belə, sadəcə yalandan "necəsiniz" sualını vermişdilər. Qarşılığında isə gözləmədikləri cavabları almışdılar.

–Yaxşı olar, İnşaAllah. – Sabir süni təbəssümlə dedi.

– Əşşi, boş şeylərdir. – Həkimin biranda əhvalı dəyişdi. Gülərək dedi. – Deyin görək, siz necəsiniz?

– Yaxşıyıq, sağ olun. – İkisi də qısaca cavab verdi.

– Nə gözəl. Sizin analizlərin cavabını da almışam. – Sabirə baxaraq dedi. – Hamısı çox gözəldir. Sağlam adamsınız. Heç bir xəstəliyiniz yoxdur.

– Lap yaxşı. Bəs mənim xəstəxanaya getməyimdə problem yaratmayacaq ki?

– Qətiyyən. Daha rahat olacaq.

– Nə vaxt gedəcəm xəstəxanaya?

– İki gündən sonra. Bugün ayın beşidir. Ayın yeddisi orda olmalısan. Ona kimi sən də işini bilmiş olarsan.

– Olar. – Sabir çarəsizcə dedi. – Necə deyirsiniz, elə də olsun.

– Ancaq yenə də deyirəm... – Həkim başını onlara tərəf uzadaraq astaca danışmağa başladı. – Ora gedəndə ordakılardan biri kimi apar özünü. Ağıllı olmağın heç bir faydası yoxdur. Nə desələr, onu da elə. On beş, iyirmi gündən sonra da komissiyanın qarşısına çıxacaqsan. Ordan da keçsən, sənə ölüm yoxdur.

– İnşaAllah. Keçəcək. Sabirin bacarmadığı heç nə yoxdur. – Zakir gülümsəyərək dedi.

– Mən inandım. – Həkim də gülməyə başladı. – İndi siz gedə bilərsiniz. Burada işiniz qurtardı. İki gün sonra gələrsiniz. Buradan sizi ora apacaqlar.

– Oldu, həkim. İki gün sonra görüşərik. – Zakir ayağa qalxıb Sabirə baxdı. – Dur, gedək.

– Sağ olun, həkim. – Sabir də ayağa qalxdı.

İkisi də dəhlizə çıxıb pilləkənlərə yaxınlaşdılar. Birinci mərtəbəyə enib xəstəxananın həyətinə çıxdılar.

– Gedək, evə. İki gün vaxtım qalıb. Heç olmasa, evdəkiləri doyunca görərəm.

– Elə deyirsən, elə bil ölürsən. İki-üç həftəlik gedirsən də. – Əlini Sabirin qoluna toxunduraraq gülməyə başladı.

– Yenə də. Birdən-ikiyə o qədər uzaq olmamışıq bir-birimizdən.

– Necə deyirsən, elə də olsun. Mən bizimkiləri gətirərəm sizə. Sən də evdəkilərdən narahat olmazsan. Mən də elə sizdə qalaram.

– Çox sağ ol.

– Borcumuzdur. Təki bu iş alınsın. Qalanı boş şeydir. – Zakir dedi. – Gedək.

Xəstəxananın həyətindən küçəyə çıxaraq Zakirin avtomobilinə yaxınlaşdılar. Avtomobilə mindikdən sonra oradan uzaqlaşaraq evin yolunu tutdular.

***

– Sabir hardadır?

– Zakirlə gediblər. Birazdan gələrlər.

Yasəmən çay süzüb Pakizə xalanın qabağına qoydu.

– Sağ ol. – Pakizə xala çaydan bir qurtum alıb dedi.

– Ana, yemək hazır deyil? – Mətbəxə girən Rüfət soruşdu.

– Gözlə. Hazır olanda deyəcəm. – Yasəmən Rüfətə baxaraq öz otağına getməyini istədi.

Rüfət anasının nə demək istədiyini başa düşüb mətbəxdən çıxdı.

– MaşaAllah, necə də ağıllı uşaqdır. Hər şeyi başa düşür.

– Başımıza oyun açır. Bütün günü bir yerdə durmaq bilmir. – Qazı yandırıb qazanı odun üstünə qoydu.

– Uşaqdır. Elə olsa yaxşıdır. Böyüyəndə diribaş olacaq.

– İnşaAllah. – Yasəmən gülərək dedi. Sonra söhbəti dəyişdirərək soruşdu. – Ayan necədir? Öyrəşə bilib?

– Hə. – Pakizə xala elə bunu gözləyirmiş kimi danışmağa başladı. – Çox yaxşıdır. Qaynanası ilə ana-bala kimidilər. Əri də ona gözüm üstə qaşım var

demir. – Süni şəkildə güldü. – İşləməsini də istəmir, deyir elə evdə otur. Mən sənin üçün hər şeyi edəcəm. Çox yaxşı oğlandır.

– Nə gözəl. – Yasəmənə elə gəlirdi ki, Pakizə xala bunları bilə-bilə danışır, onu incitmək istəyir. Ancaq ürəyinə salmamaq üçün fikirlərini dağıtmağa çalışırdı. – Allah həmişə mehriban eləsin. Əsas bir-birlərini başa düşsünlər, qalan bütün problemlər düzələr.

– Elədir. – Pakizə xala qısaca dedi.

Yasəmən yeməyi qızdırmaqda, Pakizə xala da öz çayını içməkdə idi. Bir neçə dəqiqə keçsə də heç biri kəlmə söz danışmamışdı. Ancaq Pakizə xala dözə bilməyib yenidən soruşdu:

– Sabirin işləri necədir? İş tapa bilməyib hələ?

Yasəmən bir qədər düşündükdən sonra ona tərəf dönərək masaya yaxınlaşıb stula əyləşdi.

– Tapıb. Elə onu danışmaq üçün getmişdi.

– Hə? Nə işidir ki, elə. – Pakizə xala maraqla soruşdu.

– Tikinti şirkətindədir. Dəqiq bilmirəm. Ancaq, deyəsən başqa şəhərə göndərəcəklər.

– Həə? Onda maaşı da çox olar. Yaşadığın yerdə uzağa göndərəndə maaşı çox verirlər. – Gözlərini bərələdərək dedi. – Bizim uşaqlar demişdi. Mən də onlardan eşitmişəm.

– Orasını yalan deyərəm. – Yasəmən elə bil ki, aylardır, bu anı gözləyirdi. İlk dəfə idi ki, kimsə Sabir qınamayacaqdı.

– İşi avand olsun, bala.

– Sağ ol, Pakizə xala.

– Yaxşı. Mən durum gedim. Bizim gəlinin atasıgil gələcək. Evdə olum məndə.

Pakizə xala ayağa qalxdı. Yasəmən də onun arxasıyca həyətə düşüb onu yola saldı. Sonra isə yenidən geri qayıtdı.

– Rüfət, gəl yeməyini ye.

***

Sabir avtomobildən enərək qapını örtdü. Zakirin avtomobili söndürmədiyini görüb yenidən qapını açdı.

– Gəlmirsən?

– Yox. Mal gəlməlidir. Onu gətirəcəm.

– Yaxşı. Sağ ol. – Sağollaşıb qapını örtdü.

Zakirin avtomobillə uzaqlaşmasını gözlədikdən sonra həyət qapısını açıb həyətə girdi. Ətrafa boylanıb kiminsə olub-olmadığını dəqiqləşdirdi. Həyətdə heç kim yox idi. Pilləkənlərə yaxınlaşıb evə daxil oldu. Mətbəxə boylanaraq

Yasəməni axtardı. Ancaq mətbəxdə də heç kim yox idi. Əynindəki jaketi çıxarıb asılqandan asdı.

– Yasəmən? – deyə səsləndi.

– Gəldim, gəldim. – Rüfətlə Aytacın otağından Yasəmənin səsi eşidildi.

Sabir Yasəmənin səsini eşitdikdən sonra mətbəxə keçib divanda oturdu. İki gün sonra xəstəxanaya getməli idi. Yasəmənlə danışmalı, hər şeyi dəqiqləşdirməli idi. İlk dəfə bu qədər onlardan ayrı qalacaqdı. İstəmirdi ki, onlar olmayanda özlərini yalnız hiss etsinlər. Zakirgilin onlarda qalması Sabiri bir qədər sakitləşdirsə də, yenə də ailəsi üçün narahat olurdu.

– Xəstəxanadan qayıtdın? – Yasəmən mətbəxə girib Sabirə baxdı.

– Hə.

– Həkim nə dedi?

– İki gün sonra gedəcəm.

– Belə tez? – Yasəmən yerində donaraq qaldı.

– Hə. Elə dedi həkim. Nə qədər tez olsa, o qədər yaxşıdır.

– Başa düşdüm. – Qısaca dedi. Sonra isə çaşqınlıqla stolla mətbəx mebeli arasında gedib gəldi. Birtəhər özünü ələ alıb Sabirə baxdı. – Yemək yeyirsən?

– Yox. Tox deyiləm. – Yasəmənin özünü itirdiyini hiss etmişdi. – Gəl, otur. Biraz danışaq.

Yasəmən stulu arxaya çəkib əyləşdi. Sabirin gözlərinə baxaraq onun nə deyəcəyini gözlədi.

– İki gün sonra gedirəm. Ən geci iyirmi günə gələcəm. Zakirgil burada, sizinlə qalacaqlar. İşə getsən, uşaqlara Xədicə baxar. Sən də narahat olmazsan.

– Mən səndən nigaranam. Uşaqlarla birtəhər dolanarıq.

– Məni fikirləşmək lazım deyil. Bir göz qırpımında gedəcəm, gələcəm. – Gülümsəyərək dedi.

– Yaxşı. – Əlini Sabirin əlinin üstünə qoydu.

– Uşaqlarla da danışmaq lazımdır. Onlara da bir bəhanə uydurub deməliyik.

– Rayona iş dalıyca getdiyini deyəcəm. Pakizə xala da gəlmişdi bugün. Ona da elə dedim.

– Sən ən doğrusunu bilərsən.

Sabirin gözlərinin içi gülürdü. Yasəmənin onu nə qədər fikirləşdiyini, başqalarına əzdirmədiyini hiss etdikcə ona olan sevgisi daha da artır, ona layiq həyat yoldaşı olmaq üçün daha çox çabalayırdı.

– Hər şey yaxşı olacaq.

– Təki canımız sağlam olsun. – Sabir ona baxaraq güldü.

– Hə. Elədir. – Yasəmən da gülərək qarşılıq verdi.

Elə bu an mətbəxə Rüfət daxil oldu. Atasını görüb qucağına tullandı. Yanağından öpərək dedi:

– Nə vaxt gəlmisən?

– Biraz olar. Sən harda idin?

– Anam yatmağım üçün yatağa qoymuşdu. Ancaq yata bilmədim.

– Niyə yata bilmədin?

– Adam nə qədər yatar? Bəs mən nə vaxt oynayım?

Rüfətin bu sözünə ikisi də gülmüşdülər.

– Düz deyirsən. – Sabir gülərək dedi.

– Onda küçəyə çıxa bilərəm?

– Get. Ancaq tez gəl.

– Yaxşı. – Rüfət Sabirin qucağından düşərək mətbəxdən çıxdı.

– Çox tez böyüyürlər. – Sabir onun arxasıyca baxaraq dedi.

– Vaxt tez keçir.

– Onlar böyüyürlər, bizsə qocalırıq.

– Hər yaşın öz gözəlliyi var. Həm mən səninlə qocalmaqdan heç də peşman deyiləm. – Yasəmən təbəssümlə Sabirə baxdı.

– Mən də. – O da qarşılıq verdi.

– Yemək yeyirsən? – Yasəmən gülümsəyərək soruşdu.

– Ver, qadası. Yeyərəm.

Yasəmən ayağa qalxaraq qazı yandırdı. Sonra isə qazanı yanan ocağın üstünə qoydu. Sabirsə, üzündəki təbəssümlə Yasəməni izləyirdi. İçindəki

sıxıntılar yox olmuşdu. Yerini isə ümid dolu xəyallar almışdı. Bunun səbəbi isə Yasəmən idi. Yasəmən isə onun bu həyatda tək tutunacaq budağı idi.

***

Hər kəsə görə hər şey yolunda idi. Sabir xəstəxana üçün özünü hazır hiss edirdi. Gedəcək, ən pisi iyirmi gün orada qalacaq, sonra isə pensiyaya çıxacaqdı. Yasəmən də belə düşünürdü. Ancaq heç kim "**Yazarın nə düşündüyünü fikirləşmirdi**". Hamı üçün adi günlər yaşanırdı. Artıq bir gün daha ötmüşdü. Zakir ailəsi ilə Sabirin qaldığı evə çoxdan gəlmişdi.

– Sabah tezdən gedəcəyik. – Zakir kartof qızartmasını ağzına ataraq dedi.

– Yaxşı. – Sabir dərindən nəfəs alıb ona baxdı.

– Aparacaqlarını hazırlamısan?

– Hamısı hazırdır. Bir neçə dəst paltar qoymuşam. – Yasəmən Sabirdən qabaq cavab verdi.

– Ay Yasəmən, bəlkə heç orda bu qədər paltar lazım olmayacaq?

– Nə bilim, ay qız. – Yasəmən Xədicəyə baxdı. – Birdən lazım oldu da.

– Apararıq, icazə verməsələr, geri qaytararam. Nə ağırlığı var ki. – Zakir dedi. – Əsas, sən qonşulara nə deyəcəksən?

– Rayona iş dalıyca getdiyini deyəcəm. Ən yaxşısı budur.

– Bəxtəvərlik verərlər indi də. – Kinayə ilə Yasəmənə baxdı.

– Veriblər artıq. – Yasəmən də güldü.

– Kim nə deyir, desin. Əsas odur bu işi sağ-salamat qurtaraq. Qalanı həll olar.

– Sabir, yenə deyirəm, qəti narahat olma. Ordakı xəstələrə dəyib-dolaşmasan vaxtın tez gəlib keçəcək. Həm səni ağır xəstələrin qaldığı otağa salmazlar... Yəqin ki. – Zakir öz sözünə özü bilə inanmadı. Bunu baxışlarında hiss etmək olurdu.

– Necə yəni? Sabir onlarla bir otaqda qalacaq?

– Yox, Yasəmən. Narahat olma. – Sabir Zakirə baxaraq gözlərini bərəltdi. – İlk gün müayinə üçün bir yerdə olacağıq. Sonra hərə öz otağında qalacaq.

– Əgər bilsəm ki, hamınız bir otaqda olacaqsınız, mən buna heç vaxt razı olmaram. – Yasəmən kədərli halda Sabirə baxdı.

– Narahat olma, qadası. Bir yerdə qalmayacağıq. Elə olsaydı, mən də istəməzdim.

– İnşaAllah hər şey yaxşı olacaq. Sabir də tezliklə yenidən bu evə qayıdacaq. – Zakir söhbəti dəyişməyə çalışdı.

– İnşaAllah. – Hamı bir ağızdan dedi.

– Bu kartofu səndən gözəl bişirən yoxdu da. – Zakir boşqabı Yasəmənə uzatdı. – Yenə ver, sənə zəhmət.

– Ay qız, durub-oturur, sənin yeməklərini tərifləyir. Nə bişirsəm, buna bəyəndirə bilmirəm. – Xədicə gülərək dedi.

– Buyur. – Yasəmən boşqaba kartof töküb Zakirə uzatdı. – Mənim yeməklərimi həmişə bəyənərdi. Hələ uşaq vaxtından. Rəhmətlik anamın yeməklərini belə bəyənməzdi.

– Allah rəhmət eləsin, o da gözəl yemək bişirərdi. Elə Xədicə də gözəl bişirir. Ancaq sən bir başqasan. – Zakir təbəssümlə Yasəmənə baxdı.

– Birazda baxışsanız, ağlayacaqsınız. Deyəsən, uşaqlığınız yadınıza düşüb. – Sabir gülərək dedi.

– Həə... uşaqlıq necə yada düşməsin. Nə dərd var idi, nə qəm. O vaxt böyümək, indi isə uşaqlığıma qayıtmaq istəyirəm.

– Elədir, Zakir. Ancaq bunu elə biz istəyərik. Böyüdükcə kiçilən insanlar böyük xəyallar qurduğu kiçik zamanlarını arzulayarlar. Xəyallarını həyata keçirənlər isə inanmıram ki, belə arzular qursun.

– Məncə səhv deyirsən, Sabir. Kim olursan, ol. Yenə də uşaq olmaq istəyirsən.

– Bəlkə də sən deyəndir, Xədicə bacı.

– Nəysə, söhbəti uzatmayaq. Mənim artıq yuxum gəlir. Yeməyimi də yeyib bitirdim. Bugün çox yorulmuşam. – Zakir sonuncu tikəsini ağzına atdı.

– Nuş olsun.

– Sağ ol, Yasəmən. İndi də bir çay versən, səndən başqa heç nə istəmirəm.

– Baş üstə. – Yasəmən ayağa qalxdı.

Xədicə də Yasəmənə süfrəni yığışdırmaqda kömək edirdi. Zakirlə Sabir isə sabah nə edəcəklərini müzakirə edirdilər.

– Sabah şəxsiyyət vəsiqəni yaddan çıxartmazsan.

– Götürəcəm.

– Mütləq. Həkimlə də danışmışam bugün. Nə lazım olsa, o da köməklik edəcək.

– Yaxşı.

Zakir bir neçə saniyə susduqdan sonra Xədicəyə baxaraq soruşdu:

– Uşaqlar hardadılar? Yemək yemirlər?

– Onlar çoxdan yeyiblər. Sən gec gəldin deyə, biz səni gözlədik. O biri otaqdadırlar. Telefonla oynayırlar.

– Deyirəm axı, niyə belə səssizlikdi. – Zakir gülərək dedi. – Bu telefon olmasa, bizim uşaqlar aləmi qatar bir-birinə.

– Əslində, heç də yaxşı etmirik. Rüfətə mən telefon vermirəm. Bütün günü telefonla qurdalansa, uşaqlıq nədir bilməyəcək. – Yasəmən dedi.

– Ay qız, düz deyirsən. Ancaq Həmidlə Ayazı elə o telefon sakitləşdirir. Yoxsa evi uçurdarlar başımıza. – Xədicə gülərək ona baxdı.

– Mənə oxşayıb. – Zakir qəhqəhə ilə gülməyə başladı.

– Xədicə bacı, sən Həmidi deyirsən, ancaq Zakirin uşaqlığını görsən, Həmidə şükür edərsən.

– Niyə ki? – Xədicə maraqla soruşdu.

– Bütün kənd bunun əlindən təngə gəlmişdi. O qədər dəcəl uşaq idi ki, hər gün şikayət üçün qapılarında nə qədər adam olardı.

– Ay Sabir, uşaq idim də. Mən nə qanıram o vaxtı. – Zakir yazıq-yazıq dedi.

– Əşşi, nə uşaq. Hamı buna iblis deyirdi. Kənddə başına oyun açmadığı kimsə qalmamışdı. Hələ Məşədi Yəhyanın oğlunun başına açdığı oyunu desəm, ölərsiniz gülməkdən.

– Həə... yadımdadır. Uşaq utandığından neçə gün çölə çıxmamışdı.

– Sən canı, danış görək, nə məsələdir elə. – Xədicə əlindəki boşqabı silib şkafa qoydu.

– Ay kişi, biabr eləmə məni.

– Danışacam, Zakir. – Sabir gülərək Zakirə baxdı.

– Çaylar hazırdır. Soyutmadan içməyə başlayın. Sonra nə istəsəniz danışarsınız. – Yasəmən çayları süfrəyə qoydu.

Hamı çayından bir qurtum aldıqdan sonra Sabirin söhbətə başlamasını gözlədi.

– Deməli, mənim olardı on ya on bir yaşım. Sinifimizdə bir qız vardı. Adı Səadət idi. Çox gözəl qız idi. Bu qızdan da hamının xoşu gələrdi. Elə Zakirin də...

– Ə, mən o vaxtı elə şeylər nə qanıram. – Zakir Sabirin sözünü kəsdi.

– Danış, danış, Sabir qardaş. – Xədicə Sabirin davam etməsini istədi.

– Zakir bizdən iki sinif yuxarı olsa da, bu qıza görə hərgün bizim sinifə gələrdi. Sinifimizdə də Taleh adında bir oğlan vardı. Talehlə bu qıza görə az qala qıralar bir-birlərini. Bütün günü dalaşardılar. Nəysə, sözümün canı, günlərin bir günü Zakir bu Talehi aldadıb tövləyə aparır. Guya orda şokolad saxlayırlar. Talehdə saf uşaq, inanır buna. Sevinə-sevinə gedir. Tövləyə girəndən sonra yerdə olan qoyun qığılarını şokolad adıyla buna yedirməyə başlayır.

– Yadımdadır, elə yeyirdi ki. Hələ deyirdi ki, bunun dadı nəsə qəribədir. O birilərinə heç oxşamır. – Zakir uğunaraq özündən getdi.

– Yazıq uşaq. Heç insafın yox imişki. – Xədicə başını yelləyərək dedi. – Bəs onu necə inandırdın ki, onlar şokoladdır?

– Saf uşaq idi. Nə desən inanırdı. Dedim ki, şokoladları burda yerə sərirlər ki, qurusunlar. Sonra da qablara tökürlər. O da inanmışdı. – Zakir gülə-gülə danışır, sözlərini qıra-qıra deyirdi.

– Sən necə adamsan? – Xədicə gülərək əlini Zakirə tərəf uzatdı.

– Taleh hələ qoyun qığılarını yığıb evə də aparmışdı. Demişdi ki, anamla atama da aparım, onlarda yesin. Atasının əlindən güclə qurtarmışdım. Harda görsə, öldürəcəkdi məni.

– Yazıq uşaq neçə gün evdən çölə çıxa bilməmişdi. Qızın gözündən də təmiz düşmüşdü. – Sabir Yasəmənlə Xədicəyə baxdı.

– Bəs sonra nə oldu? O qızla Talehə? – Xədicə Sabirdən soruşdu.

– Heç nə, Xədicə bacı. O qız bir neçə ay sonra rəhmətə getdi. Kənd yeridir, üstünə düşmədilər. Yazıq qız elə iki günün içində qızdırma içində öldü.

– Allah rəhmət eləsin. – Hamı bir ağızdan dedi.

– Bəs Taleh. O, indi hardadır? – Xədicə yenidən soruşdu.

– Taleh indi polisdir. Saf, təmiz biri idi, onsuzda. Həm də elə uşaq vaxtından yaxşı oxuyurdu. Sabirgilin sinifində ən savadlı o idi. Öz savadı ilə

oxuyub polis oldu. Arada qabağıma çıxır. Elə Bakıda işləyir. Hər görəndə də “şokolad” məsələsini yadımıza salıb gülürük.

– Sonra deyir, Həmid niyə belə dəcəldir. Sənin yanında şükürlüdür ki. – Xədicənin bu sözünə hamı güldü.

– Nəysə, dedik-güldük, əyləndik. İndi isə yatmaq vaxtıdır. – Zakir saatına baxdı. – Sabah tez duracağıq. İşimiz çoxdur.

– Düz deyirsən. – Sabir onun sözünü təsdiqlədi.

– Sizin yerinizi hazır etmişəm. Nə vaxt istəsəniz, yata bilərsiniz.

– Sağ ol, Yasəmən. Bugün o qədər yerə getmişəm, dəhşət yorulmuşam. Ona görə də yatsam yaxşıdır. – Zakir ayağa qalxdı.

– Elə biz də yatarıq. Saat on ikini ötüb. Gecdir. – Sabir də ayağa qalxdı.

– Xədicə, sən də get. Burda iş qalmayıb, onsuzda.

– Yaxşı. – Yasəmənə baxaraq dedi. – Gecəniz xeyirə.

– Xeyirə qarşı. – Sabir üzünü Yasəmənə çevirərək soruşdu. – Uşaqlar yatıblar?

– İndi baxaram. Sən get.

Sabir Yasəmənin sözündən sonra mətbəxdən çıxıb öz otağına getdi. Əynini soyunub yerinə uzandı. Neçə müddət idi ki, bu qədər özünü rahat hiss etmirdi.

Düşüncələri, içindəki sıxıntılar azca da olsa, yox olmuşdu. Bu səbəbdən, yatmaq, sabahın közərən işıqlarına gözlərini gümrah açmaq istəyirdi. Elə bu xəyalla gözlərini tavana dikmişdi ki, Yasəmən otağa girdi. Qapını örtüb, əynini soyunduqdan sonra Sabirin yanına uzandı. Həmişəki kimi başını onun çiyninə qoydu.

– Yenə nə fikirləşirsən?

– Heç nə.

– Zakirgilin gəlməsi yaxşı oldu. Sənin də başın qarışdı.

– Hə. Elədir. Sağ olsunlar. Çox kömək olurlar.

– Sabah nə edəcəklərini düşünmüsən? – Yasəmən söhbəti dəyişdi.

– Yox. Nə fikirləşəcəm? Nə olacaqsa, olacaq.

– Ən geci iyirmi gün olmayacaqsan.

– Darıxacaqsan? – Gülərək dedi.

– Sən darıxmayacaqsan? – Yasəmən incinmiş halda soruşdu.

– Darıxacam. Niyə darıxmayım ki? İlk dəfədir, bu qədər vaxt sizdən uzaqda olacam.

– Hər gün zəng edərsən.

– İcazə versələr, edərəm.

– Söz verirsən?

– Verirəm. – Yenidən güldü.

– Zarafat eləmirəm. Zəng elə. Məni nigaran qoyma.

– Qoymaram, qadası. Qorxma.

– Görəsən, yeməkləri yaxşı olur?

– Xəstəxanadır da... nə versələr, yeyəcəm.

– Arada Zakirlə yemək göndərərəm.

– Lazım deyil. Özünə əziyyət vermə.

– Yox. Göndərəcəm.

– Zakiri də hər dəqiqə işindən etmək olmaz. Yazıq, onsuzda güclə iş qurmağa çalışır.

– Bugün neçə saat soyuqda gözləyib. Xədicə deyirdi ki, alver zəifləyib. Güclə nəsə sata bilir.

– Ona görə, onunla işləmək istəmədim. Balaca yerdir, beş-on manat qazanır, onu da mənlə bölürdü. Camaatın boğazına şərik olurdum. Bazara indi adam az-az gəlir. Hamı böyük marketlərdən alver edir.

– Bəlkə kredit götürüb mağaza açasınız?

– Etmək olar. Nə bilim, qadası.

– Ordan qazandığınla da ev tikərik.

– O da düzdür. Ev tikməsəm də, mebel almaq lazımdır. Qonaq otağı bomboşdur. Biri gələndə elə mətbəxdə oturur.

– Onlar boş şeylərdir. Bizə gələndə bizim kimi adamlardır da... Nə olacaq?! Hər şey birdən olmur ki.

– Düz deyirsən, qadası.

– Sən mən dediyimə qulaq as. Kredit götürüb iş qurarsan. Allah kömək edər, qazanıb nə istəsən edərsən.

– Yaxşı. – Sabir gülümsədi.

– Təki sağ-salamat gəl. Qalanı sonra fikirləşərik. – Əsnəyərək dedi.

– Yuxun gəlir. Yat. Sabah tezdən duracağıq. – Yasəmənin başından öpdü.

– Gecən xeyrə.

– Xeyrə qarşı, qadası.

İkisi də bir-birlərini qucaqlayaraq sabahın açılması üçün gözlərini yumdular. Sabah isə...

***

## *Hər şeydən öncə*

Ertəsi gün göy üzü işıqlanmamış Sabir oyanmış, xəstəxanaya getmək üçün hazırlanmağa başlamışdı. Zakir də erkəndən durmuşdu. Sabiri xəstəxanaya o aparacaqdı. Yasəmən Sabirin əşyalarını çoxdan hazır etmiş, qapının önünə qoymuşdu. Sabir yemək yedikdən sonra Aytacla Rüfətin otağına keçib ikisini də öpərək otaqlarından ayrılmışdı. Yasəmən özünü güclə saxlasa da, dözə bilməyib Sabir evdən çıxdığı zaman hönkürtü ilə ağlamağa başlamışdı. İstəmədən olsa da, sevdiyi adamı istəmədiyi həyata göndərirdi. Bu onun üçün də çox ağır idi. Sabir də bunu hiss edirdi. Ancaq

fikrindən dönməyin mənasız olduğunu bilirdi. Bu səbəbdən əlacsız şəkildə yollanırdı xəstəxanaya. Özündən nigaran deyildi. Tək narahatlığı ailəsindən idi. Elə onlara görə də gedirdi. Onlar üçün... Erkəndən də çıxmışdılar evdən. Kimisə görmədən, kiməsə görsənmədən. Yol boyunca Sabir bir söz belə danışmamışdı. Zakir də onu başa düşdüyündən, o da susmuşdu. Xəstəxananın önünə çatana kimi bir-birlərini dindirməmişdilər.

Xəstəxananın önünə çatdıqda ikisi də avtomobildən enərək giriş qapısına yaxınlaşdılar. Bütün sənədlərin düzgünlüyünü yoxladıqdan sonra tibb bacısı Zakirə baxaraq dedi:

– Hər şey qaydasındadır. Siz artıq gedə bilərsiniz. Xəstəni özümüz aparacağıq.

– Oldu, xanım.

Zakir Sabirə baxaraq səssizcə sağollaşdı. Sabir də bir söz demədi. Eləcə əlini qaldırıb durdu. Zakir avtomobilinə doğru getdiyi zaman tibb bacısı artıq Sabiri içəri salmışdı. Hər şey elə sakit, elə səssiz baş verirdi ki, Sabir həqiqətən xəstə olduğunu zənn etməyə başlamışdı. Dinməz, söyləməz tibb bacısının yanı ilə gedir, arabir başını qaldırıb ətrafına baxırdı. Ətrafda isə onun kimi dərdinə əlac axtaranlar var idi. Bunu onlar da hiss edirdi ya yox, Sabirin heç bir təsəvvürü olmasa da, bir əlac üçün burada idi. Qaməti də dəyişmişdi. Xəstəxananın abu-havası belini elə ilk

saniyədən bükmüşdü. Tibb bacısı qoluna girmiş, onu qalacağı binaya doğru aparırdı. Binanın önünə çatanda başını qaldırıb binanı süzdü. Pencərələri dəmir barmaqlıqlarla əhatələnmiş bu bina Sabirə çox yad idi. Dərindən nəfəs alaraq pilləkənlərlə yuxarı doğru addımlamağa başladı. Sonuncu pilləkənə çatdığında anidən duraraq geriyə döndü. Qaçmaq, buradan canını qurtarmaq istədi. Ancaq dərhal da fikrindən döndü. Bunu edə bilməyəcəkdi. Məcbur idi. Yasəmən üçün, Aytac üçün, Rüfət üçün. Hər şey üçün. Ona görə də tibb bacısının qolunu dartaraq binanın içinə salmasına icazə verdi.

– Sabahınız xeyir, həkim. Yeni xəstədir. İndi gətiriblər.

– Sabahın xeyir. – Həkim tibb bacısına baxmadan Sabiri süzməyə başladı. – Gündə birini gətirib atırlar bura. Yaman sakit görünür. – Üzünü turşudaraq dedi.

– Nə istəyirsiniz? Başınıza oyun açmaz.

– Elədir. – Sakitcə dedi. – Sən get. Qalanı bizlikdir.

– Oldu. – Tibb bacısı Sabiri orada buraxıb çölə çıxdı.

– Sən də mənimlə gəl, – deyə Sabirə baxdı.

Həkim öndə Sabir isə onun arxasıyca dəhlizlə irəliləyirdilər. Biraz getmiş həkim soldakı qapılardan birini açıb əli ilə Sabirə içəri keçməsini istədi.

– Ay Əsəd, təzə gəlib. Paltarlarını dəyişsin. – Əli ilə içəridəki adama Sabiri göstərdi. – Mən də indi gələcəm.

– Keç bura. – Əsəd yer göstərdi.

Sabir heç nə demədən sakitcə içəri keçdi.

– Soyun!

Sabir bir paltarlara, bir də adama baxdı. Heç nə başa düşməmişdi. İşçilərin belə qaşqabaqlı, əsəbi olmasını heç gözləmirdi.

– Ə, nə gözləyirsən? Soyun da! – Əsəd əsəblə dedi. – Tez ol!

– Yaxşı. – Sabir soyunmağa başladı.

– Hələ saçını da kəsməliyəm. Tələs! Vaxtım yoxdur.

Bir neçə dəqiqə sonra Sabir soyunmuş, hazır vəziyyətdə Əsədin nə edəcəyini gözləyirdi.

– Soyundum.

– Görürəm! – Əsəd əlindəki telefonu cibinə qoydu. – Otur. Saçını kəsim.

– Yaxşı.

Sabir Əsədin göstərdiyi stula əyləşdi. Əsəd isə saç kəsən aparatı işə salaraq onun saçını dibindən kəsməyə başladı. Arasıra aparatın dişləri Sabiri incitsə də səs etmir, dözərək Əsədin işini bitirməsini gözləyirdi. Heç beş dəqiqə çəkmədi ki, Əsəd Sabirin saçını kəsib qurtardı. Sonra isə vanna otağına aparıb

çimizdirdi. Sabir yuyunduqdan sonra ona verilən paltarları geyinib Əsədin nə deyəcəyini gözlədi.

– Bu qədər. Otur burda. İndi həkim gəlib səni götürəcək. – Pencərənin kənarına gedərək çölə baxdı.

Əsəd onunla əlavə heç nə danışmırdı. Sabir arabir söhbət açmaq istəsə də, artıq söz deyər, xəstə olmadığını bildirər deyə susmağı üstün tutmuşdu. Eləcə yerində oturaraq həkimi gözləyəcəkdi. Dinməz, söyləməz, yazıq, fağırca oturmuşdu. Əlindən başqa heç nə gəlmirdi.

***

Yarım saat sonra həkim otağın qapısını açaraq içəri girdi.

– Qurtardın?

– Hə. Götür, apar.

– Qalx. – Sabirə baxaraq dedi. – Düş qabağıma.

Sabir həkimin sözündən sonra dinməz-söyləməz ayağa qalxıb otaqdan çıxdı. Həkim hara gedirdisə, o da onun arxasıyca gedirdi. Pilləkənlərə yaxınlaşıb ikinci mərtəbəyə çıxdılar. İkinci mərtəbənin girişində qapılar qoyulmuşdu. İçəri görmək mümkün deyildi. Həkim qapını açıb Sabirlə bir yerdə içəri girdi. İkinci mərtəbə geniş dəhlizə açılırdı. Dəhlizin hər tərəfində otaqlar vardı. Sabir

başını qaldıraraq ətrafı ani göz qırpımında süzməyə başladı. Dəhlizdə xəstələr gəzişir, bir-birləri ilə danışırdılar. Hər şey Sabir üçün adi görünürdü. Ancaq anidən həkimin qışqırıq səsi Sabiri diksindirərək xülyadan oyatdı.

– Ay bala, neynirsən orda?! – Həkim Sabirin yanından uzaqlaşaraq küncdə dayanan xəstəyə doğru yaxınlaşdı.

Xəstə şalvarını aşağı çəkmiş, tualetini edirdi.

– Bura işəmək yeridir? Cəhənnəm ol burdan! – Xəstənin qolundan tutaraq dartmağa çalışdı.

– Yox! Yox! Yox! Bura yaxşıdır, bura yaxşıdır! – Xəstə əllərini havaya qaldıraraq ondan qaçmaq istədi.

– Füzuli?! – Yan otağa boylanaraq qışqırdı. – Bura gəlin!

Onun səsindən sonra iki nəfər içəridən çıxıb xəstənin qollarından tutaraq otağa apardı. Sabirsə, sakitcə olanları izləyirdi. Mərtəbənin giriş qapısından girdiyi zaman təsəvvüründə yaratdığı hər şey bir anda yox olmuşdu. Sakitcə qapının önündə dayanıb onlara baxırdı. Elə bu an birinin sözləri ilə diksindi.

– Salam. Atamı görmüsünüz? – Başqa bir xəstə gözlərini bərəldərək ona baxırdı. Üz-gözündən gənc olduğu hiss olunurdu.

– Xeyr, görməmişəm.

– Sən neynirsən? Get burdan! – Həkim onun mənimlə danışdığımı görüb araya girdi. Xəstəni məndən uzaqlaşdıraraq üzümə baxdı. – Gəl mənlə!

Həkim geniş dəhlizlə Sabiri qalacağı otağa doğru aparırdı. Sabir isə ətrafı izləyir, necə bir yerə düşdüyünü anlamağa çalışırdı. Geniş dəhlizin hər tərəfi pencərələrlə əhatələnmişdi. Ancaq çöldən dəmir barmaqlıqlar görsənirdi. Hər tərəfi pencərə olduğu üçün də dəhliz yaxşı işıq alırdı. Dəhlizin hər tərəfində gül dibçəklərinə rast gəlmək olurdu. Divarlara isə cürbəcür rəsmlər çəkilmişdi. Bunlardan daha çox Sabiri dəhlizin sol küncündə qoyulan piano maraqlandırmışdı. “Belə bir yerdə pianonun nə işi var idi axı?”, – deyə düşünsə də buna o qədər də fikir verməmişdi.

– Bu otaqda qalacaqsan. – Həkim otağın qapısını açdı.

Sabir otağa boylanaraq başqa kiminsə olub-olmadığını yoxladı. Otaqda beş yataq olsa da, heç kim yox idi. İçəri girərək həkimin nə deyəcəyini gözləməyə başladı.

– Bura sənin yerindir. – Sağ küncdə qoyulmuş yatağı göstərdi. – İndi yatıb istirahət edə bilərsən. Birazdan gəlib iynə vuracaqlar.

Heç nə demədən yatağın üstünə oturdu. Həkimin getməsini gözlədikdən sonra başını qaldırıb otağı diqqətlə süzdü. Otağa kamera yerləşdirmişdilər.

Bu Sabiri bir qədər rahatlaşdırmışdı. Əlində tutduğu kiçik çantanı siyirməyə yerləşdirdi. İçəri girərkən əşyalarının bir çoxunu götürməyə icazə verməmişdilər. Yasəmənin yemək üçün qoyduqlarını belə götürə bilməmişdi. Xəstəxana özü yemək verirdi. Ona görə də bəzi əşyalardan başqa qalan hər şeyi Zakirlə evə göndərməyə məcbur olmuşdu. Sabir burada edəcək bir şeyi olmadığından yerinə uzanaraq azca olsa da, dincəlməyə çalışdı. Neçə gün burada olacaqdı və nələr olacağını heç fikirləşmək istəmirdi.

***

– Dur. Dur.

Sabir gözlərini açaraq qarşısındakı adamı görüb qorxudan divara söykəndi.

– Sən kimsən?

Ətrafına baxaraq harada olduğunu anlamağa çalışsa da, bir neçə saniyənin içində hər şeyi anladı. Gözləri yuxuya getmişdi.

– Adım Yusifdir. Burda qalıram. Sən təzə gəlmisən, deyəsən. Qorxma. – Gülümsəyərək əlini Sabirə tərəf uzatdı.

– Hə. Bugün gəlmişəm. – Yusifin əlini sıxaraq dedi.

– Xoş gəlmisən.

Yusifin sözü Sabirə qəribə gəlmişdi. Tərs-tərs ona baxdı. Ancaq bir söz demədi.

– Dur, gedək.

– Hara?

– Yemək vaxtıdır. Mənə dedilər, səni çağırım.

– Yaxşı. – Sabir yataqdan enərək ona verilmiş tərlikləri geyinib Yusiflə bir yerdə otaqdan çıxdı. – Yeməkxana hardadır?

– Mənimlə gəl. Görəcəksən.

Dəhlizdə heç kim yox idi. Yusifin baxışları Sabiri qorxutsa da, dinməz-söyləməz onun arxasıyca gedirdi. Ətrafda kiminsə görünməməsi onu da həyəcanlandırırdı.

– Gəl. – Yusif əli ilə dəhlizin sonundakı otağı göstərdi. – Hamı oradadır.

İkisi də otağın qapısına yaxınlaşıb içəri girdilər. Hər şey Yusifin dediyi kimi idi. Xəstələr burada yemək yeyirdilər

– Otur. – Əli ilə stulu göstərdi.

– Yaxşı. – Sabir stulu arxaya çəkərək oturdu.

Bütün xəstələrin hamısı Sabiri maraqla izləyir, yeni gələni süzürdülər. Sabir də onlara qəribə baxışlarla baxırdı. Hər xəstə bir cür xasiyyətdə idi. Onları başa düşmək isə elə də asan görünmürdü.

– Bunların hamısı xəstədir. – Yusif ona baxaraq dedi. – Elə bizim kimi. Onlardan qorxma. Birazdan yemək gələcək. Doyunca yeyərsən.

– Yaxşı. – Yenə qısaca cavab verdi.

Sabir başını aşağı salaraq yeməyin gəlməsini gözləyirdi. Arabir başını qaldırır, xəstələrlə göz-gözə gəldikdən sonra gözlərini onlardan qaçıraraq yenidən başını aşağı salırdı. Bir neçə dəfə bu təkrarlandıqdan sonra axır ki, mətbəxdən xəstəxana işçiləri çıxaraq yeməkləri gətirdilər. Qazandakı yeməkləri boşqablara tökdükdən sonra kənarda dayanaraq xəstələrin yeməklərini yemələrini gözlədilər. Sabir boşqabına tökülən yeməyə baxaraq üzünü turşutdu. Xəstələr üçün hazırlanmış yemək onun heç xoşuna gəlməmişdi. Başını qaldıraraq xəstələrə baxdı. Onların iştahla yeməkləri yeməsi onu daha iştahdan kəsirdi. Xəstələr gah qaşıqla, gah da əlləri ilə boşqabdakı şorbanı yeməyə çalışır, çörəkləri əlləri ilə parçalayaraq ətrafa dağıdırdılar. Sabirin ürəyi bulansa da, özünü güclə saxlayır, qusmamaq üçün başını aşağı salaraq onları görməməzlikdən gəlirdi.

– Yemirsən? – Sabirin sağ tərəfində oturan xəstə ağzını Sabirin qulağına yaxınlaşdıraraq bərkdən dedi.

Sabir qəfil səsdən hürkərək özünü yana çəkdi.

– Yox. Yemirəm.

Xəstə boşqabı götürüb qabağına qoyaraq marçıltı ilə yeməyə başladı. Sabirsə, heç nə demədən başını aşağı salıb yeməyin bitməsini gözləyirdi.

Bir neçə dəqiqə sonra nahar bitmişdi. Hamı ayağa qalxaraq öz otaqlarına getməyə hazırlaşırdı. Sabir də hamı kimi ayağa qalxdı.

– Niyə yemədin? – Yusif onun qolundan tutaraq soruşdu.

– İştahım yoxdur.

– Yemək yeməsən, zəifləyəcəksən. Mütləq bir şeylər ye.

– Yeyərəm.

– Yaxşı. – Yusif gülümsəyərək dedi. – Gəl, gedək. Səni buralarla tanış edim.

Sabir yenidən dinməz-söyləməz onun arxasıyca düşdü. Yeməkxanadan çıxıb geniş dəhlizlə irəliləyərək çıxış qapısına yaxınlaşdılar. Qapının sol tərəfindəki qapını açaraq içəri girdilər.

– Bura hamamdır. Burada təmizlənirik. Çim-çim. – Yusif gülərək əllərini başına aparıb yuyurmuş kimi göstərdi.

– Başa düşdüm. – Sabir də gülümsədi.

– Hə. Onda gəl gedək. – Yenidən dəhlizə çıxdı. – Yan qapını göstərib dedi. – Bura da ayaqyoludur.

– Lazım deyil. Başa düşdüm. – Sabir Yusifin əllərini şalvarına apardığını görüb dedi.

– Hə. Onda gəl gedək. – Yusif təkrar eyni sözləri dedi.

Yusif Sabiri qaldıqları otağa apardı. İçəri girdiklərində bütün yataqların üstündə xəstələr var idi.

– Bura sənin yatağındır. – Yusif Sabirin yerini göstərdi.

– Bilirəm.

– Hə. – Otağın sol tərəfinə gedərək küncdəki yatağı göstərdi. – Burda mən yatıram. – Sonra isə o biri yataqları göstərdi. – Burda da bunlar.

– Amma indi oturmuşuq. – Divarın sağ küncündə, yatağın üstündə oturmuş xəstə gülərək dedi.

– Yaxşı edirsiniz. – Sabir də gülərək qarşılıq verdi.

– Bir, iki, üç, dörd nəfər idik. Sən də gəldin, olduq beş nəfər. – Yusif sevinclə əlini havaya qaldırdı.

– Başa düşdüm. – Sabir yatağın üstündə oturdu.

– İndi həkimlər gələcək. İynə vuracaqlar. Ancaq qorxma. Həmişə vururlar. Yusif ona yaxınlaşaraq yatağın yanında qoyulmuş stula oturdu.

– Oldu. – Ona baxaraq dedi. – Sən çoxdan burdasan?

– Yeddi aydır. – Əlini yenidən qaldırdı.

– Hmm.

– Ancaq o birilər kimi deyiləm. Məndə arada olur.

– Nə?

– Olanda görərsən. – Gülərək Sabirə baxdı.

Sabir bu sözlərdən hürksə də, ona bildirmək istəmədi. Gözlərini yerə dikərək onun baxışlarından yayınmağa çalışdı.

– Bunlar isə məndən sonra gəliblər. Aydın, Rüfət, Cavid. – O biri xəstələri göstərdi. – Pis adamlar deyillər. Onları tanısan, sən də sevərsən.

– Lap yaxşı.

– Bəs sən?

– Nə mən? – Sabir ani sualdan çaşaraq dedi.

– Sən niyə burdasan?

– Bəzi problemlərə görə. Ondan...

– Həəə... Olar. Düzələr yəqin ki. Təki inanasan. İnansan, hər şey düzələcək.

Yusifin sözləri Sabiri azca olsa da, sakitləşdirmişdi. Belə bir yerdə, belə bir adamdan bu sözləri eşitmək onun üçün həm gözlənilməz, həm də sevindirici idi.

– Mən indi gedirəm. Yatacam. Sən də yat. Dincəl.

– Yaxşı. – Qısaca dedi.

– Hələlik.

– Hələlik.

Sabir başını yastığa qoyaraq evdə olduğu kimi gözlərini tavan zillədi. Yasəməngili düşünürdü. Bir neçə saat olsa da, artıq onlar üçün darıxmağa

başlamışdı. Burada keçirəcəyi günlər isə ona elə gəlirdi ki, heç asan olmayacaqdı.

***

Dəqiqələr keçir, ancaq heç nə dəyişmirdi. Sabir eləcə yerində uzanıb tavanı izləyirdi. Bir müddət sonra sıxılaraq yerində dikəldi. Otağa göz gəzdirərək otaq yoldaşlarının nə etdiklərini izləməyə başladı.

– Aydın, neynirsən? – Yusif kinayə ilə üzbəüz yataqda oturmuş kişiyə dedi.

– Axtarıram. – Aydın gülərək cavab verdi.

Onun bu sözünə otaqda hamı gülmüşdü. Təkcə Sabir üzünü turşudaraq Aydının burnunu qurtdalamasından iyrənmişdi.

– Nəsə tapa bildin? – Yusif yenidən sual verdi.

– Yox. – Aydın barmağını burnundan çıxarıb üstünə sildi. – Tərtəmizdir.

Onun bu sözündən sonra otaqdakılar yenidən gülüşməyə başladılar.

– Sabah yenə axtararsan. – Rüfət əlini ona tərəf uzatdı.

– Kömək edərsən?

– Hə. Saat neçədə?

– Beşdə.

– Altıda.

– Dörddə.

– Birdə. – Caviddə mübahisəyə qoşuldu.

– Onda yeməyə gedəcəyik. – Yusif dedi.

– İkidə edərik. – Aydın əllərini bir-birinə vuraraq onlara baxdı.

– Hə. Hə. İkidə edərik. Onda yaxşıdır. – Caviddə əl çalmağa başladı.

Sabir onların nə danışıb nəyə güldüklərini başa düşə bilmirdi. Ümumiyyətlə onları anlamaq çətin idi. Bircə Yusif yaxşı görünürdü. Ancaq o da qəribə biri idi. Sabir dinməz, söyləməz oturaraq onları izləyir, bir söz demədən nə edəcəklərinə fikir verirdi. Hər şeyin, sözdə normal görsəndiyi bir anda anidən Yusifin halı get-gedə pisləşməyə başladı. Otaqdakılar buna fikir verməsə də, Sabir buna fikir vermişdi. Yusif öz yatağının üstündə kürəyi divara söykənmiş vəziyyətdə durmuşdu. Dərindən nəfəs alır, sözləri qıra-qıra nəsə demək istəyirdi. Sabir ayağa qalxaraq ehmalca ona yaxınlaşmağa başladı. Yusifin yatağına çatdığı zaman anidən zarıltı səsi ilə qorxaraq geri çəkildi.

– Qışqırma! Qışqırma! Qışqırma! Qışqırtma! – Yusif boğazını tutaraq qışqırır, yatağın üstündə çapalayırdı.

– Yusif? Yusif? – Sabir özünü toplayaraq ona yaxınlaşdı. – Yusif, Sakit ol.

– Aaaaaaaağ. Qışqırma! – Yusif daha bərkdən qışqırır, əli ilə üzünə vururdu. Üzü qızarmış, boyun damarları üzə çıxmışdı.

– Gəldi! Gəldi! Gəldi! – Cavid qulaqlarını tutaraq ağlamağa başladı.

Aydınla Rüfət də qorxusundan yorğanın altına girərək olanları görmək istəmirdilər. Sabir isə nə edəcəyini bilmirdi. Gah Cavidi sakitləşdirməyə çalışırdı, gah da Yusifi özünə gətirmək üçün üzünü şillələyirdi. Ancaq heç birinin kömək etmədiyini görüb qaçaraq otağın qapısını açdı.

– Həkim! Həkim! – İki dəfə bərkdən qışqıraraq köməyə adam çağırdı.

Onun səsinə təkcə bir həkim öz otağından çıxaraq gəlmişdi. Bu Sabiri təəccübləndirsə də, başqa edəcək bir şeyi yox idi.

– Qırağa dur! – Sabiri kənara itələyərək otağa girdi. – Yenə tutdu tutması. – Yusifə yaxınlaşaraq qoluna iynə vurdu.

İynəni vurduqdan bir neçə saniyə sonra Yusif suslaşaraq sakitləşdi. Gözlərini yumaraq yuxuya getdi. Həkim isə heç nə olmamış kimi iynəni cibinə qoyub otaqdan çıxdı. Olanlar qarşısında Sabir mat-məəttəl qalmışdı. Yusifin yanına gedərək yorğanı üzərinə örtdü. Sonra isə sakitcə öz yerinə gedib yatağın üstünə çıxdı. Artıq Cavid də ağlamırdı. Rüfətlə Aydın da yorğanın altından çıxıb bir-birlərinə

baxaraq gülürdülər. Bir neçə dəqiqə sonra isə hər şey öz yoluna düşmüşdü. Sanki heç nə baş verməmişdi.

Sabir bura elə də asanlıqla öyrəşə bilməyəcəyini başa düşmüşdü. Bu insanlar, bu otaq, bu xəstəxana ona tamamilə yad bir yer idi. Onun olmaq istədiyi yer bura deyildi. İndi hər şeydən daha çox istəyirdi, çöldə, ailəsinin yanında olmağı.

***

Saatlar keçmiş, hava qaralmağa başlamışdı. Ötən saatlarda isə qeyri-adi heç nə baş verməmişdi. Birgə həkim gələrək hərkəsə iynə vurmuş, bir neçə dərman vermişdi. Bunların heç birinə Sabir narazılıq etmirdi. Zakirin tanıdığı həkim də bunları Sabirə demişdi. Ona görə də, dərmanlara görə Sabirin qorxusu yox idi. Tək qorxusu xəstələr idi. Onları heç tanımırdı. Və nələr edə biləcəklərini də təxmin etmək çətin görünürdü.

Sabir nə edəcəyi barəsində düşündüyü zaman otaqdakı digər xəstələrin hamısı eyni anda ayağa qalxdılar. Sabir üçün bu gözlənilməz idi. Qorxaraq o da ayağa qalxdı.

– Nə olub? – deyə onlara baxdı.

– Heç nə. Yemək vaxtıdır. – Aydın əlini qaldıraraq ona baxdı. – Sən də gəl. – Gülərək dedi.

– Yaxşı.

– Ancaq onu da oyadaq. – Cavid Yusifə yaxınlaşdı. – Necə oyadım? – Əllərini yana açaraq ətrafına baxdı.

– Sirkələ. Bax, belə... – Rüfət əllərini birləşdirərək önə doğru hərəkət etdirməyə başladı.

– Elə olmaz. Mənim oyatdığımı bilməz. – Cavid üzünü qırışıdıraraq cavab verdi.

– Mən oyadaram. – Sabir qabağa gələrək dedi. – Yəni, icazə versəniz.

– Hə. Gəl. – Cavid sakitcə kənara durdu.

Yusifə yaxınlaşaraq ehmalca qoluna toxundu. Bir neçə cəhddən sonra gözlərini açaraq Sabirə baxdı.

– Oyan. Yemək vaxtıdır.

– Oyanıram. – Gözlərini açaraq dikəldi. – Hava qaralıb.

– Elədir.

– Yaxşısan? – Aydın sakitcə soruşdu.

– Yaxşıyam. Narahat olmayın.

– Onda qalx. Yemək vaxtıdır. – Cavid Yusifin qolundan tutaraq yerindən qaldırmağa çalışdı.

– Gedək.

Yusif ayağa qalxaraq üst-başını səliqəyə saldı. Sonra yavaş addımlarla qapıya doğru yaxınlaşdı. Sabir və digər otaq yoldaşları da onun arxasıyca otağı tərk etdilər. Axşam yeməyinin vaxtı gəlib çatmışdı. Sabir günorta baş verənləri xatırlayır, yenə də ac

qalacağını təsəvvür edirdi. Yeməkxanaya daxil olduqdan sonra masanın bir tərəfində əyləşərək yemək vaxtının gəlməsini gözləməyə başladı. Onun kimi hamı yeməyi gözləyirdi. Bir çoxları qaşığı əlinə almış, hazır vəziyyətdə gözləyirdi. Sabirin əyləşdiyi masanın qarşısında oturan xəstə isə qaşığı qarşısındaki boş boşqaba salır, sonra isə qaşığı ağzına aparırdı. Bu görüntü Sabirin ürəyini yenidən bulandırmışdı. Onun bunu Sabirə baxaraq etməsi Sabiri daha da əsəbləşdirirdi. Üzünü gah sağa, gah sola çevirir, gah da başını aşağı əyərək onun etdiklərinin görməməzlikdən gəlirdi. Bir neçə dəfə bu təkrarlandıqdan sonra sonunda yeməkxana işçiləri axşam yeməyini qazanlarla gətirərək boşqablara tökdülər. Sabir yeməyə baxaraq yeyə bilməyəcəyini anlamışdı. Xəstəxana xəstələr üçün xüsusi yeməklər hazırlayırdı. Bu isə Sabir üçün heç də xoş deyildi. Ona görə də, qaşığı boşqabın içində gəzdirir, işçilər görməsin deyə yeyirmiş kimi edirdi.

– Yemirsənsə, ver mənə. – Yanındakı xəstə boşqabdan tutaraq özünə tərəf dartmağa çalışdı.

– Gözlə! – Sabir oğlanın əlini tutaraq dedi. – Mən dəyişərəm. – Oğlanın boşqabı ilə öz boşqabını bir göz qırpımında dəyişdirdi. – Ye!

– Sağ ol. – Xəstə gülümsəyərək dedi. Sonra isə iştahla yeməyə başladı.

Sabir isə yenə də ac qalmışdı. Arabir ətrafına baxır, xəstələrin yeməyi necə yediklərinə baxdıqdan sonra yenidən başını aşağı salırdı.

Axşam yeməyi bitdikdən sonra ayağa qalxaraq otağına getmək üçün dəhlizə çıxdı. Onun arxasıyca Yusif də yeməkxananı tərk etmişdi.

– Sabir?

Sabir geriyə dönərək onu çağıranın Yusif olduğunu gördü.

– Nə olub?

– Niyə yemirsən? – Yusif ona yaxınlaşaraq sakitcə dedi.

– İştahım yoxdur.

– Yalan demə. Hamıda ilk günlər belə olur. Başa düşürəm. – Təbəssümlə Sabirə baxdı. – Ancaq məcbursan. Yeməlisən. Yeməyə toxunmasan da, heç olmasa çörək ye. Yoxsa ölərsən.

Yusifin bu sözləri Sabiri hürkütmüşdü.

– Yeyərəm. – Gülümsəyərək əli ilə Yusifin qoluna toxundu.

– Gedək. – İkisi də otağa doğru yollandılar.

Sabir bircə səhər yeməyi yemişdi. Buna görə də, halı yox idi. Özünü yorğun hiss edirdi. Evlə danışmaq istəyirdi. Ancaq buna icazə vermirdilər. Həftəsonu əlaqə saxlaya biləcəkdi. Həftəsonuna isə hələ var idi.

Otağa daxil olub öz yatağına uzandı. Gözlərini tavana zilləyərək düşünməyə başladı. Ancaq heç iki dəqiqə çəkməmişdi ki, Cavidin səsini eşitdi.

– Sabir? Ay Sabir? Eşidirsən?

– Hə. Eşidirəm.

Sabir cavab verərək Cavidin nəsə deməsini gözlədi. Laki Caviddən səs gəlmirdi. Üzünü çevirərək ona tərəf baxdı. Cavid isə çoxdan üzünü divara tərəf çevirmişdi. Yerində dikələrək Yusifə tərəf baxdı. Heç nə başa düşmədiyini anlayan Yusif gülərək dedi:

– O, həmişə belədir. Bizim ölüb-ölmədiyimizi yoxlayır.

– Niyə belə edir ki?

Yusif ehtiyatla qalxaraq Sabirin yatağına tərəf gəldi. Yatağın yanındakı stula əyləşərək Sabirə baxdı.

– İşlədiyi yerdə olub hadisə. – Yusif astaca dedi.

– Hansı hadisə? – Sabir ona yaxınlaşdı.

– Otaq yoldaşı intihar edib. – Üzünü Cavidə tərəf çevirdi. – Əvvəllər tez-tez bizdən eşidib-eşitmədiyimizi soruşardı. Amma indi elə də yox. Arabir.

– Bəlkə də otaq yoldaşını xatırlayır.

– Ola bilər. – Yusif dərindən nəfəs aldı. – Bura heç kim kefindən gəlmir. Hamının bir səbəbi var.

– Elədir. – Sabir utanaraq üzünü yana çevirdi.

– Sən burada hər cür adam görəcəksən. Öyrəşmək lazımdır, sadəcə. O da zamanla olacaq.

– Yəqin ki.

Yusif stuldan duraraq öz yatağına getdi. Sabir isə bir neçə saniyə Cavidə baxdıqdan sonra yenidən uzanaraq tavanı izləməyə başladı.

Bir müddət sonra həkim gələrək iynələri vurduqdan sonra hamı yerinə uzanıb sabahın açılması üçün gözlərini yumdular.

***

## *Yalnızlıqla gələn xəstəlik*

Gecənin bir vaxtında, qaranlıq dəhlizdə kimsə səssizcə addımlayırdı. Arabir durur, ətrafına baxaraq kimsənin olub-olmadığına əmin olduqdan sonra yenidən addım-addım gedəcəyi otağa yaxınlaşırdı. Otağın qapısına çatdıqda ehtiyatla qapının dəstəyini aşağı salaraq qapını açdı. Səssiz olmaq üçün qapını ehtiyatla açmağa çalışırdı. İçəri boylanaraq hərkəsin yuxuda olduğuna əmin olmaq istədi. Heç kimdən səs gəlmədiyini gördükdən sonra içəri girdi. Ehtiyatla yataqlara yaxınlaşıb onun olduğu çarpayını tapmağa çalışdı. Və sonunda onu tapmağa nail olmuşdu ki,

anidən iki əlini də uzadaraq yaxasından tutub sirkələməyə başladı.

– Sən mənim atamsan! Sən mənim atamsan!

Sabir diksinərək gözlərini açdı.

– Burax məni! – Qorxaraq adamın əllərindən qurtulmağa çalışdı.

– Sən mənim atamsan! Sən mənim atamsan! – Adam bu səfər Sabiri boğmağa çalışırdı.

– Burax! – Sabir qışqırır, yerində çırpınaraq kömək istəyirdi.

Səsə otaqdakı digər xəstələr də oyanmışdılar. Hamı qorxudan qulaqlarını tutmuşdu. Təkcə Yusif cəld qaçaraq Sabiri adamın əlindən almağa çalışdı. Ancaq adam Sabiri necə tutmuşdusa, Yusif heç nə edə bilmirdi.

Əlindən bir şey gəlməyəcəyini görən Yusif çölə çıxaraq qışqırmağa başladı:

– Kömək edin! Kömək edin!

Onun qışqırıq səsinə gecə növbəsində olan işçilər qaçaraq gəldilər. Otağa girib işığı yandırdıqdan sonra adamın üstünə şığıyaraq onu kənara çəkməyə çalışdılar. Sabir işıqlar yandıqdan sonra gözlərini açaraq onu tutan adama ehtiyatla baxdı. Bu, səhər onun qarşısını kəsən adam idi.

– Burax məni! Burax deyirəm!

– Sən mənim atamsan! Sən mənim atamsan! – Cavan oğlan dayanmadan qışqırır, Sabiri daha möhkəm tutaraq boğmağa çalışırdı.

– Burax! Yalvarıram! – Sabirin taqəti qalmamışdı. Getdikcə zəifləyir, əl-ayağı boşalırdı.

– Ataaaa!.. Ataaaa!.. Niyə ataaa!..

İşçilər güclə də olsa, cavan oğlanın əllərini boşaldaraq Sabiri xilas edə bildilər. Sabir dərindən nəsəf alaraq divara söykənib ona baxdı.

– Tutmayın! – Oğlan işçilərin əlindən yaxa qurtarmağa çalışır, qorxuducu səslə qışqırır, Sabirin üzərinə qaçmaq istəyirdi. – Anam hardadı, ataaa?!.. Ona neylədin?!.. Buraxın məni! Axı sən mənim atamsan! Sən mənim atamsan!

Oğlanın qışqırıq səsləri bütün mərtəbəyə yayılmışdı. İşçilər sonunda əlacsız qalaraq sakitləşdirici iynə vuraraq oğlanı keyitdilər. Sonra isə otaqdan çıxararaq öz otağına apardılar. Sabir isə əlini boğazında gəzdirərək oğlanın nə demək istədiyini anlamağa çalışırdı. Ancaq halsızlıqdan çox da bir şey düşünə bilmirdi.

Oğlanı apardıqdan sonra Yusif ehtiyatla Sabirə yaxınlaşmağa çalışdı.

– Yaxşısan? – Əlini Sabirə tərəf uzatdı.

– Toxunma mənə! Toxunma! – Sabir dizlərini yığaraq divara söykəndi.

– Yaxşı. Toxunmayacam. – Yusif əllərini yuxarı qaldırdı. – Yat onda. Sabah danışarıq. Yaxşı? – işığı söndürərək yavaşca öz yatağına doğru getdi.

Otaqdakı digər üç xəstə isə yorğanı başlarına çəkmiş, olanları görməmək üçün özlərini yuxuluğa vurmuşdular. Hadisələr anidən baş verdiyindən Sabir heç nə başa düşməmişdi. Dərindən nəfəs alır, olanları anlamağa çalışırdı. “Məndən nə istəyirdi axı?!” – deyə düşünür, ancaq heç bir cavab tapa bilmirdi. Hər nəfəs aldığında sinəsi qalxıb düşür, içindəki qəhər boğazında düyünlənsə də, özünü güclə saxlamağa çalışırdı. Ancaq bu elə də çətin deyildi. Bir neçə saniyə sonra əlini ağzına tutaraq hönkürtü ilə ağlamağa başladı. Yaşadıqlarına, taleyinə, həyatına ağlayırdı. Bir günün içində başına gəlməyən qalmamışdı. Heç nə düşündüyü kimi getmirdi. Buna görə də içində deyinir, Zakiri söyürdü. “Allah bəlanı versin, Zakir!” – deyə qarğış edirdi.

Bir müddət eləcə ağladıqdan sonra sakitləşərək gözlərinin yaşını sildi. Ehtiyatla yerinə uzanaraq ətrafı seyr etdi. Yatmaqdan qorxurdu. Ona görə də, oyaq qalmağa çalışırdı. Ancaq yorğun olduğundan yavaş-yavaş gözləri yumuldu və yuxuya getdi.

***

– Sabir? Sabir?

Səs uzaqdan gəlmirdi. Sabir gözlərini açmasa da, səsin çox yaxından gəldiyini hiss edirdi. Sanki kimsə qulağına fısıldayırdı.

– Sən kimsən?

– Müəllif.

– Nə müəllifi? Nə danışırsan?

– Hekayəni yazan adam. Axı məni yaxşı tanıyırsan.

Sabir hər şeyi başa düşmüşdü.

– Niyə mən?

– Bir nəfər seçməli idim. O da sən oldun. Kitabı yazmalıyam axı.

– Sənin kitabının...

– Şşşşt.... Elə demə.

– Məni başqa cür yaza bilməzdin?

– Yaza bilərdim.

– Bəs niyə yazmadın?

– Onda hər şey düzələcəkdi?

– Necə yəni? Nə demək istədiyini başa düşmürəm.

– İstəyirsənsə, səni buradan çıxarım. İmkanlı, dövlətli biri edim. Bəs sonra?

– Sonra nə olmalıdır ki? Hər şey çox yaxşı olacaq.

– Bəs çöldə, minlərlə insan necə? Onlar üçün də elə olacaqmı?

– Axı mən nə edə bilərəm?

– Sən onların prototipisən. Bir vucüd halında.

– Məni seçməyə də bilərdin.

Sabir yenə də dirənir, fikrin yanlış olduğunu bildirməyə çalışırdı.

– Bunun üçün artıq gecdir. O qədər yazını silə bilmərəm. Əziyyətim hədər gedər.

Sabir ələ salındığını düşünür, yerində vurnuxaraq oyanmağa çalışırdı.

– Bəs indi necə olacaq? Mən nə edəcəm?

– Mübarizə aparmağı öyrənəcəksən. Qazanmaq üçün savaşmağa məcbur olacaqsan.

– Burada?! Kiminlə savaşacam?

– Özünlə. Özün üçün savaşacaqsan. Dəyişmək üçün.

– Heç nə başa düşmürəm. Nə dəyişmək? Necə dəyişmək? Sən nə danışırsan?

– Mən də tam bilmirəm. Görək necə olacaq. Ağlıma gəldikcə yazıram. Ancaq bir çıxış yolu tapacam. Sənin üçün çıxış yolu fikirləşəcəm.

– Sənin başın xarabdır. Bəlkə sən də bura gələsən?

– Yox. Çox sağ ol.

– Nə etdiyindən xəbərin belə yoxdur. Hekayənin sonuna çatana qədər yəqin ki, mən təmiz dəli olaram.

– Olmazsan. Amma onu da tam bilmirəm. Yəni ola da bilər. Qismət.

– Tüpürüm, sənin yazdıqlarına. Rədd ol burdan!

– Yaxşı. Yaxşı. Əsəbləşmə. Mən gedirəm. Ancaq yenə gələcəm. Gəlməsəm də, incimə.

Sabir gözlərini açaraq ətrafa baxdı. Səhər açılmışdı. Yerində dikələrək başını qaşıdı. Gördüyü yuxunun təsirindən hələ də çıxa bilməmişdi. Deyəsən, yavaş-yavaş ağlını itirirdi. Bu isə heç də yaxşı görsənmirdi.

***

Yemək yeməyəcəyini bilə-bilə yeməkxanaya getməli idi. Əl-üzünü yuduqdan sonra vanna otağından çıxıb dəhlizlə yeməkxanaya tərəf getməyə başladı.

– Sabir, gözlə. – Arxadan səs gəldi.

Dayanıb arxaya döndüyündə Yusifi gördü. Yusif ona yaxınlaşaraq qoluna toxundu.

– Gedək.

İkisi bir yerdə yeməkxanaya doğru addımlamağa başladılar.

– İndi necəsən?

– Yaxşıyam.

– Gecə çox qorxmuşdun.

– Hə. Biraz.

– O adamı otağa bağlayıblar. Heç yana qoymurlar. Bir də sənə yaxınlaşmaz.

Sabirin ürəyi azca olsa da, sakitləşmişdi. Ancaq yenə də ona hücum edən üçün də narahat idi.

– Yazıq. Cavan oğlandır.

– Burada hamı elədir. Sən fikir eləmə. Əsas yemək ye. Ac qalmaq sənə heç nə qazandırmayacaq. Zəif düşə bilərsən.

– Yeyəcəm. – Yusifə baxaraq onu razı salmağa çalışdı.

Yeməkxanaya daxil olub stullara əyləşdilər. Bir müddət sonra stol səhər yeməyi üçün hazır idi. Yenə eyni görüntülər, yenə eyni ürək bulanması. Sabir görməməzlikdən gəlməyə çalışsa da, heç də mümkün olmurdu. Yanında oturan xəstənin ağız şappıltısı qulaqlarına cingilti ilə toxunaraq əsəbini pozurdu. Fikrini yayındırmaq üçün çörəyi götürərək yeməyə başladı. Fikrini yerə döşənmiş kafelin bəzəklərinə cəmləşdirməyə çalışır, bir yandan da çörək yeyirdi. Ancaq arabir gələn ürək bulanma yediklərini də mədəsi ilə yuxarı qaldırır, sonra yenidən aşağı salırdı. Sabir buna dözmək üçün əlindən gələni edirdi.

Bir neçə nəfərin yerindən durduğunu gördükdən sonra dərhal özü də ayağa qalxaraq dəhlizə çıxdı. Dərindən nəfəs alaraq özünə gəlməyə çalışdı. Taqətdən tamamilə düşmüşdü. Özünü halsız hiss

edirdi. Otağa gedərək yerinə uzandı. Yatmaq, hər şeyi unutmaq istəyirdi. Ancaq kiminsə bədəninə toxunması ilə anidən gözlərini açdı. Onu yatmağa qoymayan Yusif idi. Əlində çörək ona baxırdı.

– Al, ye. – Çörəyi Sabirə uzatdı.

Sabir yerində dikələrək çörəyi ondan aldı. Yusif burada yeganə insan idi ki, onu özünə yaxın bilirdi. Çörəyin içinə pendir, yağ qoyulmuşdu. Ancaq çörək nəm idi. Sabirin çörəyin içinə diqqətlə baxdığını görüb tələsik dedi:

– Çay gətirə bilmədim deyə, çörəyin içinə tökdüm. – Sonra da gülməyə başladı.

– Çox sağ ol. – Sabir də gülümsədi.

Sabir iştahla çörəyi yedikdən sonra yenidən uzanmaq istəsə də Yusif qolundan tutaraq ayağa qaldırdı.

– Bütün günü yatmaqla vaxt keçməyəcək. Gəl, çölə çıxaq.

– Yaxşı. Necə istəyirsən.

İkisi də dəhlizə çıxdılar.

– Hamı çox vaxt burda olur. Gah o başa, gah da bu başa gedib-gəlirlər.

– Ancaq binanın içində olursunuz? – Sabir pəncərədən çölə baxdı.

– Yox. Həyətə də çıxırıq. Ancaq indi havalar soyuqdur. Ona görə qoymurlar.

– Başa düşdüm.

Elə bu an pencərə tərəfdə dayanmış adamlardan biri stulun üstünə çıxaraq əllərini yana açdı. Sonra ayağından çıxardığı tərliyi sağ əli ilə yuxarı qaldıraraq ucadan danışmağa başladı:

Ey şəhər müftisi, səndən huşyarıq,
Bunca sərxoşluqla səndən pərgarıq.
Biz şərab içirik, sən xalq qanını,
İnsaf et, hansımız daha qəddarıq?

– Sağ ol, Şair. – Qarşısında bardaş qurub oturanlar qışqıraraq adamı alqışlayırdılar.

Adamsa əllərini birləşdirərək təzim edir, minnətdarlığını bildirirdi.

Sabir onların nə etdiyini başa düşməmişdi. Yusifə baxaraq nə baş verdiyini anlamağa çalışdı.

– Onlar nə edirlər?

– Teatra baxırlar. – Yusif əllərini bir-birinə vuraraq dedi.

– Necə yəni?

– O, stulun üstündə gördüyün adam teatrda aktyor işləyirdi.

– Bəs niyə buradadır?

– İndi kimdir teatra gedən! Həyat yoldaşı, uşaqları tərk ediblər onu. İşsizlik, dərd-qəm insanı buralara qədər gətirib çıxarır.

– Elədir. – Sabir dərindən nəfəs alaraq dedi.

– Sən zənn etmə ki, burada olan insanlar adi adamlardır. Nə qədər ziyalı, savadlı adamlar var burda. Elə bizim otaqda qalan Rüfət. Riyaziyyat müəllimidir. Neçə dənə medalı var. Aydın isə həkim olub. Lakin öz dərdinə bir əlac tapa bilmir. Gördüyün xəstəxananın dəhlizində nə qədər incəsənət, elm adamları var.

Sabir onun danışdıqlarına heyrətlə dinləyirdi.

– Bəs sən? Sən öz çöldəki həyatında nə işləyirdin?

– Mən heç nə. – Sabir çaşaraq cavab verdi. – Orta təhsilli biriyəm. Nə iş olsa, onu da edirəm.

– Amma burdakı insanlardan daha ağıllısan. – Yusif təbəssümlə dedi. – Bəzən beynin boş olması, dolu olmasından daha yaxşıdır.

Sabir Yusifin onu təhqir ya təfir etdiyini anlamasa da, ağlının yerində olması üçün sevinirdi.

– Elədir, – deyə cavab verdi. Sonra isə anidən soruşdu? – Bəs sən? Sən kimsən? Dünən halın yaman pisləşmişdi.

– Kimin? Mənim? Nə vaxt?

Yusifin heç nə xatırlamaması Sabiri çaşdırmışdı. “Görəsən, niyə xatırlamır?” – deyə öz-özünə düşündü. Dediyi sözlərdən peşman olmuşdu ki, sözü dəyişmək istədi.

– Yox. Yox. Mən qarışdırıram. Başqa adam idi.

– Hə. Ola bilər. – Yusif gülərək dedi. Sonra isə əli ilə divarı göstərdi. – Gəl, burda oturaq.

– Yaxşı.

İkisi də divara yaxınlaşıb bardaş quraraq yerdə oturdular. Sabir Yusifin sol tərəfində oturmuşdu. Sabirin sağ tərəfində isə yaşı yetmişi adlamış, üzünü qırışlar örtmüş yaşlı adam bardaş quraraq oturmuş, ətrafını seyr edirdi.

– Salam, Məzahir dayı. Necəsən? – Yusif boylanaraq ona baxdı.

– Elə bir haldayam, incədən zərif. Dünəndən güclüyəm, sabahdan zəif. – Yaşlı kişi gülərək əllərini havaya qaldırdı.

– Bu kimin sözləridir, Məzahir dayı? – Yusif də gülməyə başladı.

– Özüm fikirləşmişəm.

– Yaxşı eləmisən.

Sabir isə ikisinin arasında, onların nə danışdıqlarına qulaq asır, onları başa düşməyə çalışırdı.

Yaşlı kişi sözünü bitirib gözlərini önə zillədi. Sual dolu baxışlarla pəncərədən çölü baxmağa başladı. Bunu görən Yusif yenidən sual verdi.

– Nə fikirləşirsən?

– Mən iki insanın daha böyük həqiqəti tapmaq üçün, bir ehtirası paylaşdığı eşqi düşünürəm. –

Gözlərini çəkmədən, eləcə sakitcə sözünü deyib yenidən susdu.

– Bunu da siz fikirləşmisiniz? – Sabir maraqla soruşdu.

– Mən yox. Nitşe. Tanıyırsan? – Anidən Sabirə baxdı.

– Yox. Tanımıram. – Sabir qorxaraq cavab verdi.

– O da filosof olub. – İşarət barmağını özünə tərəf çevirdi. – Mənim kimi. Elə bütün dahilər bizim kimi olub. Sokratı tanıyırsan? – Yenidən Sabirə baxdı.

– Tanımıram.

– Platon, Aristoteli bəs?

– Heç birini tanımıram.

– Günlərin bir günü Platon... – Sözünü yarımçıq kəsərək susdu. Gözlərini yerə dikmişdi. Heç bir söz belə demirdi.

– Sözünüz yarımçıq qaldı.

– Kimin? – Gözlərini bərəldərək Sabirə baxdı.

– Sizin. Platondan danışırdınız.

– O kimdir?

– Mən bilmirəm. Siz dediniz.

– Mən elə birini tanımıram. – Yaşlı kişi sakit tərzdə sözünü deyib üzünü yenidən pəncərəyə tərəf çevirdi.

Bu an hər şeyi başa düşən Yusif Sabirin qolundan tutaraq özünə tərəf dartdı.

– Danışdırma. Arada belə olur.

Sabir bu insanları heç cür anlaya bilmirdi. Anlaya biləcəyini də təsəvvür etmirdi. Buna baxmayaraq, burada bir xeyli qalacaqdı. Ona görə də, onlara uyğunlaşmalı idi. Yusif qəribə biri olsa da, onun varlığı Sabiri sevindirirdi. Heç olmasa, danışacaq biri var idi.

Bir qədər də oturduqdan sonra Yusif ayağa qalxaraq Sabirə də durmasını işarə etdi. İkisi də yenidən dəhlizlə addımlamağa başladılar. Gah o başa, gah da bu başa gedir, söhbət edərək vaxtlarını keçirirdilər.

– Burada günlər elə də pis keçmir. Hələ təzəsən deyə, öyrəşməmisən. Ancaq yavaş-yavaş sən də uyğunlaşacaqsan.

– Mən çox qalmayacam. Komissiyaya qədər. Ondan sonra çıxacam burdan.

– Bura gələn hər kəs buradan çıxmaq istəyir. Lakin günlər keçdikcə gedəcək bir yerləri olmadığından elə burada qalmağı seçirlər.

Yusifin sözləri Sabiri səksəkəyə salırdı. Ancaq xəyalına ailəsini gətirərək həyəcanını yatırmağa çalışır, bir an yaranmış təlaşı dəf etmək istəyirdi.

Elə bu an xəstələrdən biri anidən Sabirin qarşısına çıxaraq əllərini havaya qaldırıb ucadan oxumağa başladı:

Məzlumluq edib başlama fəryadə, əkinçi!
Qoyma özünü tülkülüyə, adə, əkinçi!

Sabir diksinərək arxaya tərəf atlandı. Xəstənin səsi bədəninə üşütmə salmışdı. Əlini sinəsində tutaraq ona baxırdı. Bu, bayaq stulun üstündə şeir deyən xəstə idi. Gözlərini iri açaraq Sabirə baxır, yenidən uca səslə oxuyurdu:

Bir üzrlə hər gündə gəlib durma qapımda,
Yalvarma mənə, boynunu kəc burma qapımda,
Gah başına, gah döşünə vurma qapımda,

Asta addımlarla Sabirə yaxınlaşaraq gözlərinin içinə baxdı. Sağ əlinin baş barmağını ona tərəf uzadaraq ucadan və intonasiya ilə söyləməyə başladı:

Lağv olma, ədəb gözlə bu məvadə, əkinçi!
Lal ol, a balam, başlama fəryadə, əkinçi!

Şeiri deyib bitirdikdən sonra dəhlizdə yenidən alqış səslərini eşidilməyə başladı. Hər tərəfdən "sağ

ol, şair”, “yaşa” sözləri deyilir, xəstə isə bu sözlər qarşısında təzim edərək təşəkkürləri qəbul edirdi.

Sabir isə sanki sözlərin ona ünvanlandığını zənn etmişdi. Yerində donaraq ətrafına baxır, bir yalançı olduğunu hər kəsin gözündə görməyə başlamışdı. Əsəbləri daha da tarıma çəkilir, alqışlar içində özünü tənha hiss edirdi.

– İstedadlı adamdır. – Yusif oğlanı göstərib dedi. – Qorxma. Kiməsə ziyan vuracaq biri deyil.

Sabir Yusifə bir söz belə demədi. Özünü ələ alaraq öz otağına doğru getməyə başladı. Yusif də onun arxasıyca gedirdi.

Otağa daxil olub yatağının üstünə uzandı. Yusif onun qorxduğunu başa düşmüşdü. Heç bir söz belə demədən onu orada qoyub yenidən dəhlizə çıxdı. Sabir isə eləcə yerində uzanaraq qaldı. Yatmaq, olanları unutmaq istəyirdi. Üzünü yastığa basaraq gözlərini yumdu. Bir neçə saniyə sonra isə yavaşca yuxuya getdi.

***

O gün Sabir axşama kimi eləcə yerində uzandı. Heç yuxudan ayılmaq kimi fikri yox idi. Ancaq axşam yeməyi üçün yerindən qalxmalı idi. Yenə əvvəlki kimi yeməkxanaya getmiş, yavan çörəyini yedikdən

sonra öz otağının yolunu tutmuşdu. Həkimin vurduğu iynədən sonra dərmanları atıb yenə yerinə uzanmışdı. Kefsiz idi. Sıxılırdı. Onun üçün burada günlər getdikcə uzanır, bitmək bilmirdi. Elə fikirləşirdi ki, yatsa, yuxuda olsa, zaman tez gedəcək, azadlıq dediyi ailəsinə daha dez qovuşacaq.

***Həftə vardır, sonu gəlməyən...***

Ertəsi gün sabir erkəndən oyanmışdı. Bazar günü idi. Bugün ailəsi ilə danışa biləcəkdi. Çox həyəcanlı görsənirdi. Səhər yeməyindən sonra telefon otağının qarşısına gələrək, ayaqüstə vaxtın çatmasını gözləməyə başlamışdı. Arabir ətrafa baxır, kiminsə gəlib-gəlmədiyinə əmin olmaq istəyirdi. Ancaq heç kim gəlmirdi. Ürəyi sıxılır, yerində dura bilmirdi. Otaq qapısının ətrafında var-gəl edir, zamanın yetişməsini səbrsizliklə gözləyirdi. Bir qədər sonra yorularaq qapının sol tərəfində, divara söykənib oturdu. O, zamanı qovalayır, evinə zəng etmək üçün tələsirdi, lakin onu başa düşən heç kimi görmürdü. Zaman gəlib çatmırdı ki, çatmırdı.

Başını aşağı salıb yerdəki kafelləri izləməyində idi ki, birdən qapını kimsə açdı. Cəld ayağa qalxaraq qapını açan həkimə baxdı. Həkim isə ona fikir vermədən içəri girərək masanın arxasına keçib stuluna əyləşdi. Sabir açıq qapıdan boylanaraq özünü

göstərməyə çalışdı. Bir neçə saniyə sonra həkim də onu gördü.

– Nədir? Nə olub?

– Heç. Heç nə. – Sabir sakitcə dedi. – Telefon... – deyə əlini telefonun qoyulduğu tərəfə uzatdı.

– Telefonla danışmaq istəyirsən?

– Hə. – Sabir təbəssümlə həkimə baxdı.

– Keç, otur. – Həkim nəzakətlə dedi.

Bu sözü eşidən kimi Sabir içəri girərək telefonun qoyulduğu tərəfə addımladı. Stula əyləşərək həkimə baxdı.

– Nömrəni bilirsən?

– Bilirəm.

– Kimə zəng edəcəksən?

– Evə... evimə.

– Başa düşdüm. Yığ onda. – Ayağa qalxdı. – Mən çöldə olacam. Qurtaranda xəbər edərsən.

– Baş üstə.

Həkim çölə çıxaraq qapını bağladı. Sabir otaqda heç kimin olmadığını görüb telefonun dəstəyini qaldıraraq Yasəmənin nömrəsini yığdı. Hər zəng çaldığında ürəyi döyünür, telefonu açmayacaq deyə qorxurdu. Bir neçə dəfə bu təkrarlandıqdan sonra Yasəmən axır ki, telefonu açmışdı.

– Alo.

– Yasəmən? Mənəm Sabir.

– Sabir? – Xəttin digər tərəfindən qışqırıq səsi gəldi. – Sənsən? – Yasəmən ağlayırdı.

– Ağlama. Niyə ağlayırsan? – Sabiri qəhər boğurdu. Dodaqları əsir, gözləri dolurdu. Özünü güclə saxlayırdı.

– Nə bilim. Səsini eşitdim. Ona görə. – Yasəmən ağlayaraq dedi. – Necəsən? Sənə yaxşı baxırlar? Nəyəsə ehtiyacın yoxdu ki? Nə istəyirsən, de. Gətirərəm.

– Yox, yox. Heç nə lazım deyil. – Sabir Yasəməni sakitləşdirməyə çalışdı. – Hər şeyim var. Mən də yaxşıyam. Mənə yaxşı baxırlar.

– Həmişə yaxşı olasan.

– Uşaqlar necədir? Yaxşıdılar?

– Hə. Yaxşıdılar. Elə hey səni soruşurlar. Sənin üçün çox darıxıblar.

– Mən də... mən də onlar üçün çox darıxmışam. – Sabir dərindən nəfəs aldı.

– İstəyirsən, çağırım danışın.

– Yox. Lazım deyil. Sonra danışaram. – Uşaqların səsini eşitsə, dayana bilməyib ağlayacağından qorxurdu. – Zakir necədir? Xədicə?

– Yaxşıdılar. Sağ olsunlar, hər dərdimizə qaçırlar. Elə burda qalırlar.

– Hə. Allah razı olsun.

– Nə vaxt gələcəksən?

– Bilmirəm. Nə vaxt icazə versələr, o vaxt da gələcəm.

– İnşaAllah.

– İnşaAllah. – Sabir çox danışa bilməyəcəyini hiss etmişdi. – Yaxşı. Məndən başqa da gözləyənlər var. Sonra yenə zəng edərəm.

– Özünə yaxşı bax. Vaxtı-vaxtında yemək ye. Nə lazım olsa xəbər elə. Mütləq gətirərəm.

– Yaxşı. Narahat olma. Telefonu söndürürəm artıq. Özünüzə yaxşı baxın. Uşaqları öpərsən yerimə.

– Hələlik.

– Hələlik.

Sabir istəməsə də, telefonun dəstəyini yerinə qoydu. Gözləri qan çanağına dönmüşdü. Göz yaşları yanaqlarından süzülərək dodaqlarına toxunduğunda, özünü saxlaya bilməyib hönkürtü ilə ağlamağa başladı. Ancaq həkimin və başqalarının eşitməməsi üçün əlini ağzına apararaq səsini kəsməyə çalışdı. Bir yandan ağlayır, bir yandan da zəif olduğu üçün özünü günahlandırırdı. "Kül mənim başıma", – deyə əlini başına vuraraq özünü təqsirkar bilirdi.

Bir müddət orada, eləcə oturub içini göz yaşları ilə tökdükdən sonra ayağa qalxaraq qapıya tərəf yaxınlaşdı. Qapıya çatdığında sola baxaraq, divarda asılmış güzgüdə öz əksini gördü. Bir neçə gündə güzgüyə baxmamışdı. Özünü tanıya bilmirdi. Sanki bir neçə günün içində əlli il qocalmışdı. Bərəlmiş

gözlərini güzgüyə dikərək özünə baxdı. Əlini üzündə gəzdirdi. Göz yaşlarını sildikdən sonra qapını açaraq dəhlizə çıxdı. Onun otaqdan çıxdığını görən həkim yanından keçərək otağa daxil oldu. Sabir isə boynunu bükərək öz otağına getdi. Otağa daxil olub heç kimə fikir vermədən öz yatağına uzandı. Gözlərini yumaraq yenidən yatmağa çalışdı.

– Harda idin? – Səs Yusifin idi. Sabirin otağa daxil olduğunu görüb yanına gəlmişdi.

– Telefonla danışırdım. – Gözlərini açaraq ona baxdı.

– Zəng edəcək kiminsə var? – Yusif maraqla soruşdu.

– Niyə ki? Nəsə olub? – Sabir onun nə demək istədiyini başa düşməmişdi.

– Yox. Sadəcə, burda olan adamların çoxu heç kimə lazım olmur. Ona görə də, kiməsə zəng etməyin mənası da qalmır.

– Mənim ailəm var.

– Hamının bir yerlərdə ailəsi var. – Yusif əllərini yana açdı. – Ancaq uzaqlarda.

– Ola bilər. – Qısaca dedi.

– Sənin ailən kimdir? – Yusif yenidən sual verdi.

– Həyat yoldaşım, uşaqlarım.

– Hə. Nə gözəl. Yoldaşın səni istəyir? – Yusif təbəssümlə gözlərini Sabirə zillədi.

– Əlbəttə. – Sabirin bu sualdan xoşu gəlməmişdi.

– Bəs sən?

– Mən də. Bunu niyə soruşursan ki?

– Sən burdasan, o isə çöldə. Burda ola-ola səni sevirsə, deməli güclü qadındır.

– Elədir.

– Onda onu sevməkdən qorxma. Çünki vaxt gələcək, o, sənin tək ordun olacaq. Bunu mən demirəm ha... irlandlar deyir. – Gülməyə başladı.

– Lap yaxşı. – Sabir heç nə başa düşməsə də, Yusifin xətrinə dəyməmək üçün gülərək ona baxdı.

– Mən gedim. – Stuldan duraraq dedi. – Sən də ailəni fikirləş.

Yusif Sabirin yatağından ayrılaraq öz yatağına doğru getdi. Sabir onun arxasıyca baxaraq qalmışdı. Yusifin danışdıqlarından heç nə başa düşməmişdi. Bir qədər onu izlədikdən sonra yenidən başını yastığa qoyaraq gözlərini yumdu. Yatmaq, zamanı irəli aparmaq istəyirdi. Ancaq nə oldusa, gözlərini açaraq yerində dikəldi. Yataqdan enərək tərliklərini geyinib Yusifin yatağına doğru getdi.

– Otura bilərəm?

– Hə. Otur. – Yusif sevinərək əli ilə yer göstərdi.

– Həmişə sən mənimlə danışırsan, suallar verirsən.

– Sən də ver. – Yusif təbəssümlə ona baxdı.

– Bugün məndən sonra da bir neçə nəfər telefonla danışmaq üçün otağa getdilər. Ancaq sən getmədin. Niyə?

– Mən kimlə danışacam ki? – Qaşlarını çataraq dedi.

– Ailənlə. Həyat yoldaşın və ya uşaqlarından biri ilə.

– Yoldaşım vəfat edib. Üç il olar. Oğlumla qızımda öz ailələrini qurublar.

– Onlara zəng et.

–Mən onlara lazım olmaram. İkisi də böyükdürlər. Məni nə etsinlər.

– Hə... – Sabir bir qədər düşündükdən sonra yenidən soruşdu. – Nəvən var?

– Var. – Gülərək dedi. Sonra da yastığının altına əlini salaraq bir şəkil çıxardı. – Onlardır. Bax.

Şəkildə bir qız, bir oğlan uşağı var idi.

– Allah saxlasın.

– Sağ ol.

– Onları görmək istəmirsən?

– Nə bilim. Bəlkə nə vaxtsa. Buradan çıxdıqdan sonra.

– Yaxşı.

Sabir Yusifi incidəcəyindən qorxurdu. Ona görə də, artıq bir söz belə danışmadı. Ayağa qalxdı.

Yusifdən uzaqlaşmağa başlamışdı ki, arxadan Yusifin səsini eşitdi.

– Hara gedirsən?

– Nə bilim. – Sabir geriyə dönərək ona baxdı. – Dəhlizə çıxacam.

– Mən də gəlim?

– Gəl. – Sabir gülümsəyərək dedi.

Yusif dərhal ayağa qalxıb onun yanına gəldi. “Gedək”, – deyə qapını göstərdi. İkisi də qapıdan dəhlizə çıxdılar.

O gün Sabir özünü daha yaxşı hiss edirdi. Yasəmənin səsi belə ona güc vermişdi. Səbrsizliklə xəstəxanadan çıxacağı, ailəsinə qovuşacağı günü gözləyirdi. O günə kimi isə dözməli olacaqdı. Buna məcbur idi.

***

### *Həftənin başı, hər şeyin ayağı...*

Həftənin birinci günü, yəni bazar ertəsi xəstəxanada yoxlama aparılır, bütün xəstələrin sağlamlıqları test edilirdi. Elə sabahın erkən saatlarında bütün xəstələri yoxlamağa başlamışdılar. Bu xəstələr arasında Sabir də var idi. Yoxlama

bitdikdən sonra bir çoxları üçün sevinc, Sabir üçünsə kədərə dönən yeməklərdən biri, səhər yeməyinin vaxtı gəlib çatmışdı. Sabir həmişə olduğu kimi başını aşağı əyərək çörək qırıntılarını ağzına atır, kimisə görməmək üçün gözlərini hərkəsdən qaçırırdı. Buna nə qədər dözə biləcəyini bilmirdi. Ancaq iştahla da nəsə yemək mümkün deyildi. Gözlərinin önündə xəstələrin yeməyi iştahla yeməsi belə onun ürəyini bulandırırdı. Əslində, xəstələrə öyrəşmişdi, ancaq gəl ki, özünü ələ ala bilmirdi. Yeməkdən sonra da yatağın üstündə uzanaraq vaxtını boş-boş keçirməyə başlamışdı. Dəqiqələri saymış, saatlara çatana kimi səbrlə gözləmişdi. Nahara kimi bu belə davam etmişdi.

Nahar yeməyindən sonra Yusiflə bir yerdə dəhlizə çıxıb həmişə olduğu kimi gəzişməyə başlamışdı. Yusiflə araları yaxşı idi. Düzdür, ara-sıra Yusif də özünü qəribə aparırdı, lakin bu elə də çox çəkmirdi.

– Gəl, burda oturaq. – Yusif künc tərəfə baxıb dedi. – Məzahir dayı da ordadır.

– Yaxşı. – Sabir onun sözü ilə razılaşdı.

İkisi də divarın küncünə yaxınlaşıb bardaş quraraq oturdular.

– Salam, Məzahir dayı.

– Salam. – Yusifə əl sallayaraq güldü.

– Bugün necəsən?

– Bugün biraz sərsəm, biraz sakit... – Barmağını sirkələdi, sonra da eynəyini düzəldərək əlavə etdi. – Ancaq çox azadam.

– Burada, dörd divar içində necə azadsınız? – Sabir kinayə ilə sual verdi.

– Dörd divar arasında da olsan, çöldə, cənnət baxçasına da ensən burası... – Şəhadət barmağını başını qoydu. – Burası azad olmadıqca yenə də həbsdəsən. – Xışıltılı səslə sözünü bitirib eynəyinin altından iri gözlərini Sabirin üzünə zillədi.

– Düz deyirsən, Məzahir dayı. – Yusif gülərək yaşlı kişiyə baxdı. Sonrada ağzını Sabirin qulağına yaxınlaşdırıb pıçıltı ilə dedi. – Yola ver getsin. Burda hamı bir cür xəstədir.

Sabirə isə yaşlı kişinin dedikləri maraqlı gəlmişdi. Ona görə də Yusifə fikir vermədən yenidən sual verdi:

– Üzr istəyirəm, ancaq sözünüzdən heç nə başa düşmədim.

– Başa düşməyəcək bir şey yoxdur, oğul bala. Bizi özünə əsir alan şey beynimizin içindədir. – Sözünü bitirib susdu. Bir neçə saniyə sonra yenidən davam etməyə başladı. – Bəli, bəli. Beynimizin içindəkidir. Onu dəyişdirə bilmədiyimiz üçün divarlarla əhatələnirik. – Üzünü Sabirə çevirdi. – Başa düşdün?

– Yenə yox. – Sabir təəssüflə dedi.

– Sokratı tanıyırsan? – Anidən soruşdu.

– Yox.

– Sokrat deyir ki, istədiyin olmazsa, əzab çəkərsən. İstəmədiyin olarsa, yenə əzab çəkərsən. Hətta istədiyin tam olaraq olsa belə yenə əzab çəkərsən. Çünki onu itirmək riskin var. Zehin bu cür bəlalı bir şeydir. Dəyişmədən azad olmaq istəyir. Nə qədər çalışsan da bu gerçəyi dəyişdirə bilməzsən. – Sözünü bitirib gülümsəməyə başladı. – Nəsə başa düşdün?

– Bağışlayın, heç nə başa düşmədim. – Yaşlı kişi elə sözlər demişdi ki, Sabir daha da çıxılmaz vəziyyətə düşmüşdü.

– Eybi yoxdur. Yavaş-yavaş başa düşəcəksən. Tələsmək lazım deyil. Yavaş-yavaş...

– Düz deyirsən, Məzahir dayı. – Yusif yenidən araya girib gülərək dedi.

Yaşlı kişi isə Yusifə fikir vermədən başını aşağı salıb çoxdan fikrə dalmışdı. Sabir onun sözlərindən heç nə başa düşməsə də, dediklərində məna olacağını düşünürdü. Dərindən nəfəs alaraq üzünü pencərədən çölə zilləmiş, düşüncələrə dalaraq eşitdiklərini təkrar-təkrar xatırlmağa çalışırdı. Elə bu an dəhlizin digər tərəfindən bir nəfərin səsi eşidildi. Bu həminki adam idi. Yenə stulun üstünə çıxmış, əllərini açaraq ətrafdakılara nəsə danışırdı.

– Eşidin, ey əhali! Eşidin məni! Biz bir parça ətdən, sümükdən ibarət insan yığınıyıq. Biz axı kimik?! – Ətrafa göz gəzdirdi. – Dəlilər! Bəs kimin dəliləriyik?!

– Koroğlunun. – Xəstələrdən biri qışqıraraq dedi.

Onun sözünə bütün xəstələr gülməyə başladı. Sabir isə maraqla onları izləyirdi.

– Yox bir Nigarın! – Tibb bacısı xəstənin üstünə bağıraraq susdurdu. – Sən də düş aşağı. – Stulun üstünə çıxmış xəstəni aşağı salmağa çalışaraq dedi.

– Mənim səsimi boğa bilməyəcəksiniz. – Tibb bacısının əlindən yaxa qurtararaq yenidən stulun üstünə çıxdı. – Yox! Yox! Siz bir parça ətlə, sümüklə bəzənmiş varlıqlarsınız. Mənsə, ədalət kölgəsiyəm. Məni yıxmağı ağlınızdan belə keçirməyin. Əsla! – Əllərini yenidən açdı.

Tibb bacısı bir neçə dəfə cəhd etsə də, onunla bacarmayacağını görərək "əşşi" deyib ondan uzaqlaşdı.

– Bu suni həyatın içində duracaq heç bir bəhanəm qalmadı. Artıq sizdən qoparaq gedirəm. Məni bağışlayın, ey ucalar! Məni bağışlayın! – Əllərini yanına salaraq başını aşağı əydi.

Bu zaman bütün xəstələr onu alqışlamağa başladı. Adam isə bir neçə saniyə də eləcə sakit,

dinməz stulun üstündə dayandıqdan sonra yerə enərək öz otağına getdi.

– Yaman yerdə axşamlamışıq, Vallah. – Yusif gülərək dedi.

– Elədir. – Sabir də güldü.

***

Saatlar keçmiş, axşam olmuşdu. Sıra şam yeməyinin vaxtına gəlib çatmışdı. Hər kəs sevinclə yeməkxanaya getdiyi halda Sabir ayaqlarını sürüyə-sürüyə gedirdi. Günlərdir ki, düz-əməlli yemək yemirdi. Xeyli arıqlamışdı. Onsuzda zəif olan bədəni, daha da zəifləmişdi. Bunu dünən, güzgüyə baxanda görmüşdü. Halı yaman idi.

Həvəssiz keçən şam yeməyindən sonra son çörək tikəsini də ağzına ataraq ayağa qalxıb çölə, dəhlizə çıxdı. Qaldığı otağa gedərək yatağının üstündə oturdu.   Otaqda ondan başqa bir nəfər də vardı. Rüfət. Yatağın üstündə bardaş qurmuş, barmaqları ilə nəsə hesablayır, arabir barmağını uzadıb divarda nəsə çəkirmiş kimi edirdi. Sabir bir neçə dəqiqə onu seyr etdikdən sonra maraqla soruşdu:

– Neynirsən elə?

– Mən? – Rüfət tərs-tərs baxaraq dedi.

– Hesablayıram.

– Nəyi?

– Sən bilməzsən. Teorem isbatlayıram.

– Nə teoremi? – Sabir maraqla yenə soruşdu.

– Böyük ferma teoremi. Bildin? – Rüfət tərs-tərs baxaraq dedi.

– Yox. Riyaziyyatdan başım çıxmır.

– Onda niyə sual verirsən? Sakit dur! Çaşdırırsan. – Səsini qaldırdı. Sonra yenidən divara baxaraq barmaqları ilə hesablamağa başladı.

Sabir isə susaraq onu izləməyə davam etdi. Arabir düşüncələrə dalır, ancaq Rüfətdən soruşmağa çəkinirdi. Bir müddət onu izlədikdən sonra "Əşşi, fermanın nəyini isbat edəcək. Mən də ağıllı-ağıllı oturub buna baxıram", – deyə düşündü, sonra da yerinə uzandı. Üzünü divara çevirərək gözlərini yumdu.

Sabir gözlərini yumaraq yatmağa çalışdığı zaman otağın digər sakinləri də gəlmişdilər. Yusif içəri keçərək Sabirin yatdığını gördü. Öz yerinə keçərək yatağın üstündə oturdu. Sabirin oyaq olacağını düşünürdü. Onunla azca olsa danışmaq istəyirdi. Ancaq Sabir yatırdı. Üzünü o biri xəstələrə tutdu. Hərə özü üçün bir məşğuliyyət tapmışdı. Onlarla danışacaq heç nəyi olmadığı üçün yenidən Sabir tərəfə baxdı. Sabir bura gələndən onda da irəliləyiş artmışdı. Artıq özünü buradakı xəstələr kimi aparmağa cəhd etmirdi. Sabir onu özünə gətirmişdi.

Onda çölə, əvvəllər yaşadığı həyata qayıtmaq hissi baş qaldırmışdı. Bunu Sabirə borclu idi. Ona görə də, Sabirlə çox danışmaq, yenidən əvvəlki kimi olmaq istəyirdi. Amma di gəl ki, o yatırdı.

Yusif Sabirə baxaraq fikrə daldığı zaman yan otaqdan səs gəlməyə başladı. Kimsə ucadan oxuyurdu:

"Vətən bağı" al-əlvandır,
Yox içində xarı bülbül.

Səsə Sabir də oyanmışdı. Gözlərini açaraq yerində dikəldi. Ətrafına baxdı. Səs qaldığı otaqdan gəlmirdi. Sabirin oyandığını görən Yusif sevinərək yataqdan enib onun yanına getdi.

– Oyandın?

– Hə. – Yusifin üzündəki sevinc Sabiri çaşdırmışdı. – Oxuyan kimdir?

– Vüqardır. O biri otaqda qalır. Köhnə əsgərdir. – Yusifin üzündəki gülüş bir anda yox oldu. – Müharibədə olub.

– Başa düşdüm. – Sabir başını yellədərək dedi.

Digər otaqdan isə səs hələ də gəlməkdə idi:

On bir ay cəfa çəkərsən,
Bir ayı da zarı, bülbül!

– Çox gözəl oxuyur.

– Elədir. – Sabir Yusifin sözünü təsdiqlədi.

Bundan sonra ikisi də susaraq səsi dinlədilər. Otaqda hər kəs səssiz idi. Yan otaqdansa, yanıqlı səs hər tərəfə yayılır, digər otaqları da öz ağuşuna alırdı.

Sabir səs kəsilənə qədər divara söykənib durdu. Gözlərini yumaraq səsi dinlədi. Vüqar oxuyub bitirdikdən sonra isə gözlərini açaraq Yusifə baxdı.

– Birinci dəfədir ki, bu səsi eşidirəm.

– Tez-tez oxumaz. Nə vaxt istəsə, onda.

– Başa düşdüm. – Köks ötürdü. Sonra yenidən davam etdi. – Niyə yatmırsan?

– Nə bilim. Dedim biraz söhbət edərik. – Fağır baxışlarını Sabirə zilləyərək dedi.

– Nə söhbət? Nə danışacağıq?

– Bilmirəm. – Əllərini yana açdı.

– Məncə yataq. Gecdir.

Sabir yerinə uzanmağa hazırlaşırdı ki, Yusif anidən əllərini başına qoyaraq ağzını açdı. Qışqırmır, əlləri ilə başını sıxmağa davam edirdi. Sabir bunu görən kimi dərhal ayağa qalxıb Yusifin əllərindən tutub sakitləşdirməyə çalışdı.

– Yusif! Yusif! Özünə gəl.

Bir neçə dəfə bunu təkrarlasa da bir çarəsinin olmadığını görüb qapıya tərəf getdi. Həkimləri

çağırmaq istəyirdi. Elə qapını açırdı ki, arxadan Yusifin səsini eşitdi.

– Getmə!

Sabir geriyə dönərək onun yanına gəldi.

– Yaxşısan?

– Yaxşıyam. Yaxşıyam. – Yusif əllərini aşağı salaraq dedi. – Bu səfər çox qısa oldu. Heç qışqırmadım. – Təəccüblə əllərinə baxdı.

– Necə yəni? Mən elə bilirdim, sən heç nə xatırlamırsan. – Sabir yatağın üstünə oturdu.

– Hər şeyi xatırlayıram. Sadəcə... nə bilim. Elə olmasını istəyirəm. – Gözlərini qaçıraraq dedi.

– Niyə?

– İstəmirəm, normal olan vaxtı kimsə bu halımı xatırlatsın. Ona görə.

– Ancaq bugün elə də güclü olmadı. Özünə tez gəldin.

– Hə. Elədir. – Üzündə yenidən təbəssüm yarandı.

– Deməli düzəlirsən. Bu çox yaxşı şeydir.

– Yəqin ki. Həkimlə danışmaq lazımdır.

– Yusif... – Sabir birazda ona yaxın oturdu. – Sən buradan çıxmaq istəyirsən? – Gözlərinin içinə baxaraq soruşdu.

– Əvvəllər yox. Ancaq indi istəyirəm.

– Lap yaxşı. – Sabir gülümsəyərək dedi. – Onda tam sağalmalısan. İnanıram ki, bunu

bacaracaqsan. Amma əsas sən inanmalısan. Başa düşürsən məni?

– Başa düşürəm. – Əllərini havaya qaldıraraq sevincini bildirmək istədi. Sonra yenidən yanına salaraq əlavə etdi. – Yavaş-yavaş düzələcəm.

– Düzələcəksən. – Əlini Yusifin dizinə qoydu.

– Çox sağ ol.

– Mən niyə? – Sabir Yusifi anlamamışdı.

– Sən kömək etdin. Burada dostum yox idi. Sən gələndən sonra düzəlməyə başladım. Çöldəki adamlar kimi olmağa başladım. Sən dostum oldun mənim. – Yusifin gözləri yaşarmışdı.

– Əsas sən sağ ol. Sən olmasaydın, mənim də halım heç yaxşı olmayacaqdı. Burada tək dostum sənsən.

– Bilirəm. – Yusif gülməyə başladı.

– Hə. – Sabir də gülərək qarşılıq verdi.

– İndi isə yat, dincəl. Bugünlük bəsdir. Sabah yenə danışarıq. – Ayağa qalxdı.

– Yaxşı. Gecən xeyirə.

– Xeyir olsun.

Yusif ondan uzaqlaşaraq yatağına tərəf getdi. Sabirsə, bir qədər onu izlədikdən sonra yatağa uzanaraq gözlərini yumdu. Sabah üçün dəqiqələri saymağın vaxtı gəlib çatmışdı.

***

## *Həsrətindən...*

Ertəsi gün, səhər yeməyindən sonra Sabirlə Yusif əvvəlki günlər kimi dəhlizdə dolaşır, havadan-sudan söhbət edərək vaxtlarını ötürürdülər. Başqa edəcək bir şey yox idi, onsuzda.

– Məzahir dayı oradadır. Gedək yanına.

– Deyəsən, söhbətlərindən xoşun gəlib. – Yusif gülərək dedi.

– Maraqlı adamdır. Ona görə.

– Hə. Elədir.

– Gedək.

İkisi də yaşlı kişinin oturduğu yerə yaxınlaşıb salamlaşdıqdan sonra yanına oturdular. Yaşlı kişi onlara fikir vermədən pəncərədən çölü izləyirdi.

– Məzahir dayı, səndən bir şey soruşa bilərəm?

– Soruş. – Ona baxmadan, saymazyana dedi.

– İnsana bu dünyada ən çox nə lazımdır? – Sabir sualı verib maraqla cavabını gözləməyə başladı.

– Bu, sənin nə eşitmək istədiyinə bağlıdır. – Üzünü ona çevirdi.

– Necə yəni?

– İnsan oğlu istədiklərini eşitmək istəyər, eşitdikləri haqqında isə suallar yaradar. Sənin kimi. Yoxsa niyə bura gələsən! – İstehza ilə dedi

– Düz deyirsən, Məzahir dayı. – Yusif araya girdi. Sonra da ağzını Sabirin qulağına yaxınlaşdırdı. – Buna niyə sual verirsən ki? Nə gəldi danışır.

– Məzahir dayı, dediklərindən heç nə başa düşmədim. – Sabir Yusifə fikir vermədən yenidən yaşlı kişiylə danışmağa başladı.

– Ən çətin zamanında nə arzularsan, sənə də o lazımdır. Bu qədər sadə... – Çiyinlərini çəkərək dedi.

– Mən çöldə olmaq istəyirəm, azad olmaq istəyirəm. – Sabir udqunaraq sözünü bitirdi.

– Sağlam olmaq istəyirsən, hə? – Gülərək dedi.

– Yəni. – Sabir onun gülməsinə bir məna verə bilməmişdi.

– Bura gələnə kimi hamı kağız arzusunda olur, burada isə sağlamlıq. İndi de mənə! Sənə daha çox hansı lazımdır? – Eynəyinin altından gözləri gülür, üzünü Sabirə zilləmiş, tülkü kimi nə edəcəyini güdürdü.

– Sağlamlıq. – Sabir nə dediyini özü də anlamırdı. İstəksizcə yaşlı kişinin sualına cavab verdi.

– İtalyanların bir atasözü var. Deyir ki, Pulsuz sağlamlıq, yarı-yarıya xəstəlik deməkdir. – Eynəyini düzəltdi.

– Düz deyirsən, Məzahir dayı. – Yusif yenidən araya girdi.

– İndi sən qərar ver! Sənə nə lazımdır? – Əllərini qatlayaraq yana açdı.

Sabirin fikirləri qarışmışdı. Nə deyəcəyini bilmirdi. Gözlərini yerə dikərək bir qədər elə qaldı. Yaşlı kişi isə bu arada yerindən qalxaraq çoxdan onlardan uzaqlaşmışdı.

Bir qədər eləcə oturduqdan sonra Sabir başını qaldıraraq ətrafa baxdı. Yaşlı kişi yanında deyildi. Yerindən qalxmaq istəyirdi ki, Yusif qolundan tutaraq qalxmasına mane oldu.

– Getmə.

– Niyə? – Sabir yenidən yerə oturaraq divara söykəndi.

– İndi gələcək. – Yusif üzünü dəhlizin digər tərəfinə tutdu.

– Kimi deyirsən? – Sabir heç nə başa düşməmişdi. Üzünü Yusif baxan tərəfə çevirdi.

Dəhzildə heç kim ayaqüstə deyildi. Hamı yerdə oturmuşdu. Qışqırıq, bağırtı səslərinin yerini səssizlik almışdı. Sanki hərkəs kimisə gözləyirdi. Sabir olanlardan heyrətə gəlmişdi. Birinci dəfə idi ki, belə bir halla rastlaşırdı. Maraqla ətrafa boylandı. Elə bu an yan otaqların birindən ortayaşlı biri çıxaraq yavaşca dəhlizin ortasına, pencərənin qarşısına doğru addımladı. Pianoya tərəf gedirdi. Sabir bu pianonun

fərqinə ilk gün varmışdı. Ancaq heç vaxt kimdənsə, niyə orada olduğunun səbəbini soruşmamışdı.

Adam pianonun önünə oturaraq ön qapağını qaldırdı. Əllərini pianonun ağ-qara dillərində gəzdirdikdən sonra ehmalca musiqini ifa etməyə başladı. O, musiqini ifaə etdiyi zamanda dəhlizdəkilər dinməz-söyləməz onun ifasına heyran-heyran qulaq asırdılar. Musiqi Sabirə də təsir etmişdi. Nədənsə, içinə od kimi düşən bu musiqi onda qəribə hisslər yaşadırdı.

– Bu kimdir? – Sakitcə Yusifə tərəf əyildi.

– Tariyel. Bəstəkardır. Hər həftənin ikinci günü, saat on tamamda otağından çıxıb bu mahnını çalır. “Həsrətindən”.

– Həsrətindən?.. – deyə Sabir dodaqaltı mızıldandı.

– Həyat yoldaşının ən sevdiyi musiqi olub. Elə deyirlər.

– Həyat yoldaşına nə olub ki? – Maraqla soruşdu.

– Vəfat edib. Xəstə imiş. Həftənin ikinci günü həm də...

– Hə... – Sabirin boğazı düyümləndi. Yasəməni xatırlamışdı.

Adam musiqini ifa etdikcə göy üzünü örtmüş qara buludlar arasından günəşin şüaları pəncərədən dəhlizə daxil olur, duman kimi ətrafa səpələnirdi. Bu

əsrarəngiz mənzərənin qarşısında Sabirin halı daha da pisləşirdi. Nəfəs almaqda çətinlik çəkirdi. Yaşlı kişiylə danışdıqları gəlmişdi ağlına. İndi Sabirin ən çətin zamanı idi. Və ona nə lazım olduğunu çox yaxşı başa düşmüşdü. Başını divara söykəyərək musiqiyə qulaq asır, Yasəməni, uşaqlarını xəyalına gətirirdi. Özünü ələ almağa çalışsa da, göz yaşları sözünə qulaq asmırdı. Dəhlizdəki bir çox adam onun kimi idi. Sakit, dinməz, lal kimi. Musiqi isə heç dinmirdi.

***

***Şirin günlər, şirin çağlar bir-bir gəlib düşər yada...***

Bu arada Yasəmən isə heç nədən xəbərsiz öz evinin yolunda idi. Bu ötən günlərdə Sabirlə yalnız bir dəfə danışmışdı. Onda da doyunca ürəyini boşalda bilməmişdi. İndi isə düşüncələrə dalaraq evə doğru gedirdi.

– Salam, Yasəmən. Yasəmən? – Arxadan səs eşidildi.

Yasəmən yerində duraraq arxaya çevrildi. Onu səsləyən qonşusu Pakizə xala idi.

– Salam, Pakizə xala. Bağışla. Fikirli idim.

– Hə, nə olacaq. İnsansan da... – Süni təbəssümlə ona baxdı. – İşdən gəlirsən?

– Yox. İşləmirəm. Mağazadan gəlirəm. Evə bir-iki şey lazım idi. – Əlindəki torbanı göstərdi.

– Həə... day neynirsən ki, işləyib. Sabir işləyir də... – Yasəməni süzərək dedi.

– Bugün işləmirəm, Pakizə xala. İş yoxdur. Yoxsa, çağırsalar gedirəm.

– Həə... lap yaxşı. Bu arada, Sabir necədir? Onu heç görmürəm. Rayona göndərdilər yoxsa hələ buradadır? Neçə dəfə istəmişəm, soruşum. Ancaq vaxtım da olmur deyə siz tərəfə gələ bilmirəm.

– Yaxşıdır. Rayona göndəriblər. Orada işləyəcək bir müddət.

– Həəə... Yaxşı edib. Burada aldığından çox alacaq. – Qaşlarını qaldıraraq gözlərini Yasəmənə zillədi.

– Elə də çox pul vermirlər, Pakizə xala. Özümüzü dolandırmağa güclə bəs edir.

– Yaxşı olar, bala. – Yenidən süni şəkildə gülümsədi.

– Sağ olun. – Yasəmən yenidən yoluna davam etməyə başladı.

Yaşlı qadının sözləri xətrinə dəysə də, buna fikir verməк istəmirdi. Özünü ələ alaraq evə çatmaq üçün addımlarını sürətləndirdi.

Həyət qapısını açıb içəri girdi. Həyətdə heç kim yox idi. Pilləkənləri çıxıb ev qapısını açdı. İçəri girərək mətbəxə keçdi.

– Gəldin? – Xədicə onu görüb dedi.

– Hə. Nə lazım idi, almışam.

– Mən də günortaya hazırlıq görürəm. – Kartofları göstərib dedi. – Zakir də gələcək. Bayaq zəng eləmişdi.

– Lap yaxşı. Əynimi dəyişib gəlirəm.

Mətbəxdən çıxıb öz otağına girdi. Paltarlarını dəyişdikdən sonra yenidən mətbəxə gəldi.

– Uşaqlar hardadır?

– O biri otaqda. Oyun oynayırlar.

– Sənə kömək lazımdır? – Söhbəti dəyişərək soruşdu.

– Kartofu mən soyacam. Narahat olma. Sən çay dəmlə, zəhmət olmasa. Çaydan boşalıb.

– Yaxşı. – Yasəmən qaz sobasının üstünə qoyulmuş çaydanı götürdü.

– Sabah işə gedəcəksən?

– Bilmirəm. Hələ bir xəbər yoxdur. Çağırsalar gedəcəm.

– Sabir gəlib işə düzəlsəydi, sən də rahat olardın. Oturardın evində, uşaqlara baxardın.

– Niyə ki? Uşaqlar böyüyən kimi mən də işləyəcəm. Təkcə Sabir işləməli deyil. – Bıçağı alaraq soğanların qabığını soymağa başladı.

– Vallah, təki Zakirin işləri yaxşı olsun, ancaq mənim heç işləmək fikrim yoxdur. – Xədicə sözünü bitirib gülməyə başladı. – Mənim yerim evdir.

– Hamı sənin kimi deyil ki. – Yasəmən də gülürdü. – Mən həmişə işləmək istəmişəm. Lap uşaqlıqdan.

– Heç uşaqlıqda da işləməkdən xoşum gəlmirdi. Həmişə arzulayırdım ki, evimin xanımı olacam.

– Ancaq mən yox. Həkim olmaq istəyirdim. – Yasəmən keçmiş günləri xatırlayaraq gülümsədi.

– Bəs niyə olmadın? – Xədicə maraqla soruşdu.

– Necə olum. Bizim kənddə məktəb doqquzuncu sinifə qədər idi. Qalan iki ili o biri kəndə getməli idik. Bizim kənddə də heç kim qızını ora göndərmirdi. Qız uşağıdır, uzaqda nə işi var deyirdilər. Mənim atam oxumağımızı, təhsil almağımızı çox istəyirdi. Ancaq söz çıxar, camaat pis baxar deyə, o da göndərmirdi. Biz də nə oxuya, nə də hansısa peşə sahibi ola bildik.

– Zakir deyirdi ki, Sabirin də uşaqlığı heç yaxşı olmayıb.

– Onun heç seçimi də yox idi. Atası ilə anasını uşaq vaxtı itirmişdi. Hardasa, on üç-on dörd yaşı olardı ya yox. Böyük qardaşının arvadı baxıb ona. Elə onun-bunun qapısında da işləyib bir tikə çörəyini qazanıb. Ona görə də, indi istəyirəm ki, uşaqlar oxusun. Əsas da Aytac. Onun oxuması, təhsil alması daha vacibdir.

– Elədir.

– Hə... – Soğanları götürüb Xədicəyə baxdı. – Bunları yumaq lazımdır.

– Bura bax. Bəs siz necə tanış olmusunuz? Zakirdən neçə dəfə soruşmuşam, ancaq düz-əməlli cavab ala bilməmişəm. Səni də görəndə yadıma düşmür ki, soruşum. – Gülərək dedi.

– Məktəb vaxtlarından tanıyırıq bir-birimizi. İlk dəfə dördüncü sinifdə oxuyanda görmüşdüm onu.

– Sabir neçədə oxuyurdu ki?

– Sabir məndən üç il böyükdür. Onda yeddinci sinifdə oxuyurdu. Hər gün dərsdən çıxıb arxamca gələr, öz aləmində evimizə qədər ötürərdi məni.

– Sən neynirdin bəs? – Xədicə özünü saxlaya bilməyib gülməyə başladı.

– Ay qız, nə edəcəm. – Yasəmən də güldü. – Uşaq idim onda. Başımı aşağı salıb evə tələsərdim. Kənd yeri idi. Qız uşağı nədir, ətrafa baxmaq nədir, elə şey olardımı. Adamı öldürərdilər.

– Bəs səndən xoşlandığını nə vaxt dedi?

– Neçə il sonra. Hələ bir dəfə sinif yoldaşı deyib ki, o uşaqdır, neynirsən onu. O da deyibmiş ki, nə olsun uşaqdır. Axır-əvvəl böyüyəcək də.

– Guya bunlar yekə kişi olub. – Xədicə şaqqanaq çəkərək gülməyə başladı.

– Həə... – Yasəmən də ona qoşularaq gülür, bir yandan da soğanları yuyurdu. – Ay qız, uşaq ağlıdı. Elə bilirdilər ki, böyük kişidilər.

– Demə, demə... Yaxşı, hər şeyi başa düşdüm. Bəs nə vaxt sənə yaxınlaşdı?

– Mən doqquzuncu sinifdə oxuyanda.

– Ona kimi heç bir söz də deməyib? – Xədicə gözlərini bərəldərək Yasəmənə baxdı.

– Yox. Səbrlə böyüməyimi gözləyib. – Gülümsədi.

– Nə demişdi?

– Heç nə. “Salam”. Təkcə bunu.

– Neçə il gözlə-gözlə, səbr et. Sonra da gəl bunu de.

– Kənd yeridir, söz çıxar deyə, ehtiyat etmişdi.

– Səni görəndə özünü itirdiyindən olar. – Xədicə göz vuraraq dedi.

– Yox, ay qız. – Yasəmən nazla gülümsədi. – Məktəbi bitirdikdən sonra da elçilərini göndərdi. Zakir də Sabiri tanıyırdı. Xətrini çox istəyirdi. Atamı razı saldı. Atam da onun sözünə qulaq asdı.

– Bəs sən?

– Nə mən?

– Sən Sabirlə evlənmək istəyirdin?

– Hə. – Utanaraq cavab verdi. – Sabir təmiz, saf biri idi. Səbəbini bilmirdim, uşaq idim, bir ad da verə bilmirdim, ancaq hər onu gördüyümdə içimdə bir rahatlıq, sakitlik yaranırdı. Atama, qardaşıma necə etibar edirdimsə, ona da o cür etibar edirdim. Ondan əvvəl neçə dəfə elçiləri geri qaytarmışdım. Bilirdim

ki, nə vaxtsa, o da öz elçilərini göndərəcək. Səbrlə gözləyirdim.

– Göndərməsəydi, yəqin ki, sən elçi gedəcəkdin. – Gülərək dedi.

– Nə bilim. – Yasəmən də gülməyə başladı. – Yaxşı. Günorta gəldi, çatdı. Hələ yemək hazır deyil. Zakir də gələcək. – Tavanın içinə yağ tökdü.

İkisi də günorta üçün hazırlıq görməyə başladılar. Həyat davam edirdi.

**Niyə belədir, gözəl insanların həyatı?! Günahkar kimdir? Məndən soruşursansa, inan, mən də istəməzdim. Vallah. Amma nə etməli. Hər kəsə xoşbəxtlik olmaz axı. Lakin ağlamadan qazanılan gülüşün də ömrü çox olmaz. Azdan-çoxdan bilirəm. Həyat deyilən oyunun içində bir savaşa tuş gəlmişik, canım oxucu. Elə hamımız. Savaşdan çıxa bilsək qəhrəman, məğlub olsaq yaddaşlardan silinib gedəcəyik. Düz demirəmmi, əziz oxucu? Nə fikirləşirsən? De mənə...**

***

***Özünə yaxşı bax!..***

Xəstəxana divarlarının arasında yaşanan həyat həyatdan sayılmazmış. Günlər gəlib keçər, ömürdən bir parça da qoparar, amma bunu hiss etməzsən. Bəlkə bu hamı üçün belə idi. Sabir üçünsə, hər günün bir mənası, bir ağırlığı vardı. Gündüzləri sevməməyə başlamışdı, gecələrin yolunu gözləyər olmuşdu. Hava qaraldığında içindəki ümid yaz olub budaqlarında yaşıl yarpaqları cücərən ağaclar kimi olardı. Ailəsini ondan qoparan bir günü də geridə qoyduğu üçün sevinərdi.

Bu gözləyişlə həftənin sonuna gəlib çatmışdı. Səhər yeməyindən sonra telefon olan otağın qabağını kəsmiş, qapının açılmasını səbirsizliklə gözləyirdi. Gah yerində dura bilməz, sağa-sola gedib-gələr, gah da qapının küncündə oturub həkimin gəlməsi üçün dəqiqələri, saniyələri sayardı. Bu minvalla zamanı ötürürdü ki, sonunda həkim gəlib çıxdı. Qapının ağzında oturan Sabiri görüb gülümsədi.

– Həə... yenə gəlmisən?

– Hə.

– Gəl onda. – Təbəssümlə içərini göstərdi.

Sabir həkimin arxasıyca otağa daxil olub qapını örtdü. Ayaqüstə dayanaraq həkimin icazəsini gözləməyə başladı.

– Otur. Nömrəni bilirsən, onsuzda. İstədiyin qədər danış. – Həkim paltosunu çıxarıb stulun üstünə qoydu. – Mən də çöldə olacam.

– Sağ olun. – Başını əyərək dedi.

Sabir bu gənc həkimə ayrı bir rəğbətlə yanaşırdı. O, digərləri kimi deyildi. Hərkəsə hörmətlə yanaşır, bir dost kimi hamının dərdini dinləyirdi. Sabir də onun yanında özünü rahat hiss edirdi.

Həkim çölə çıxdıqdan sonra stula əyləşərək telefonun dəstəyini əlinə götürdü. Əzbərində olduğu nömrəni yığaraq gözləməyə başladı. Səbrsiz halda zənginə cavab verilməsini gözləyirdi. Bir neçə dəfə çalan zəngin ardından sonunda telefonu götürmüşdülər.

– Alo, – deyə xəttin digər tərəfindəkinə səsləndi.

– Ata.

– Aytac?.. – Sabirin boğazı düyümləndi. Danışmaq istəsə də dilindən bir söz belə çıxmadı.

– Ata, sənin üçün çox darıxmışam. – Xəttin digər tərəfindən Aytacın ağlamaq səsi eşidildi.

– Mən də... – Sabir qolunu dişləyir, özünü sıxaraq güclə saxlayırdı.

– Necəsən? Niyə evə gəlmirsən?

– Niyə ağlayırsan? Gələcəm. İşim qurtarsın. Mütləq gələcəm. – Özünü toplayaraq danışmağa çalışdı. – Anan hardadır?

– Burdadır.

– Sabir? – Yasəmənin səsi eşidildi. – Necəsən?

– Yaxşıyam.

– Nəsə lazım deyil ki? Nə istəsən gətirərəm. Sağlığın necədir? Yaxşı baxırlar sənə?

– Hər şey yaxşıdır, qadası. Narahat olma. Yaxşı baxırlar.

– Özünü qoru. Havada soyuqdu. Xəstələnmə.

– Yaxşı. Balacanı da öp mənim yerimə. Telefonu söndürməliyəm. Məndən başqa da adamlar var.

– Oldu. Sağ ol. Yenə zəng elə. Yaxşı?

– Yaxşı. Sağ olun. – Telefonun dəstəyini yerinə qoydu.

Nə qədər çox danışmaq istəsə də, bunu bacarmadı. Birazda danışar, ağladığını bildirər deyə, söhbəti yarıda kəsmək məcburiyyətində qalmışdı. Ağaya qalxaraq göz yaşlarını sildi. Özünü toplayaraq qapıya tərəf addımladı. Qapıya çatanda yenidən üzünü çevirərək güzgüdəki əksinə baxdı. “Gör nə gündəsən. Üzün, gözün nə halda. Yazıq!” – deyə içində özünü danladı. Sonra da qapını açıb çölə çıxdı. Həkimi görüb üzünü aşağı salıb onun yanından keçərək dəhlizin digər tərəfinə doğru getməyə başladı. Ancaq yarı yola çatmışdı ki, ağlına nə gəldiysə, geri dönərək qaldığı otağa doğru sürətlə

götürüldü. Otağın qapısına çatanda qapını açaraq içəri girdi.

– Yusif?

– Hə. – Yusif Sabirin ona tərəf təngnəfəs halda gəldiyini görüb dedi. – Nə olub?

– Danışmaq istəyirsən?

– Kiminlə?

– Ailənlə. Uşaqlarınla.

– Mən? – Yusif təəccüblə ona baxdı.

– Hə.

– İndi?

– Hə. Elə indi. – Yusifin qolundan tutdu. – Gəl mənimlə.

Yusifi yatağından qaldıraraq otaqdan çıxardı. Telefon otağının qarşısına gətirərək qapını göstərdi.

– Burada telefon var. Ev nömrən yadındadır?

– Yadımdadır. – Yusif utanaraq başını aşağı əydi.

– Gir onda. Gedək zəng edək.

– Bəlkə lazım deyil?

– Onlar sənin övladlarındır. Sən onlarla danışmasan, onlar da sənlə danışmayacaqlar. Sən onlara tərəf addım at, onlar mütləq sənə doğru qaçacaqlar. – Yusifin əlini tutdu. – İnan mənə.

Sabir qapını açaraq içəri girdi. Həkim içəri girən Sabiri görüb ona baxdı.

– Yenə gəlmisən? – Gülümsəyərək dedi.

– Başqa biri də danışmaq istəyir. Ona görə. – Əli ilə qapını göstərdi.

– Yaxşı. – Ayağa qalxdı. – Gəlsin.

– Sağ olun. Allah razı olsun.

Həkim qapını açaraq çölə çıxdı. Sabir də onun arxasıyca çıxaraq Yusifi içəri saldı.

– Telefon burdadır. Nömrəni de. – Telefonun dəstəyini götürdü.

– Nömrəni? – Yusif qorxaraq gözlərini Sabirdən qaçırmağa çalışdı.

– Hə. Qorxma. De.

Sabirin təkidindən qurtula bilməyəcəyini görən Yusif nömrəni deməyə başladı. Sabir nömrəni yığıb qurtardıqdan sonra səbrlə gözləməyə başladı. Bir neçə saniyə sonra xəttin digər tərəfindən səs eşidildi. Səs gənc qadın səsi idi.

– Alo.

– Salam. – Sabir sevinclə dedi.

– Salam. Buyurun. Kimdir?

– Mən xəstəxanadan zəng edirəm. Yusifin evidir?

– Bəli. Mən qızıyam. Atama nəsə olub? – Gənc qadın həyəcanla soruşdu.

– Yox, yox. Qorxmayın. Yusif sizinlə danışmaq istəyir.

– Danışmaq istəyir? – Gənc qadın ağlamağa başladı. Sabir bunu çox yaxşı hiss edirdi.

– Bəli. Danışmaq istəyir.

– Neçə aydır ki, birinci dəfədir. Bizi heç görmək belə istəmirdi. – Tələsik dedi.

– Telefonu verirəm ona. – Sabir dəstəyi Yusifə uzatdı.

Bayaqdan danışılanlara qulaq asan Yusif isə həyəcanla Sabirin üzünə baxaraq qalmışdı. Telefonun dəstəyini almaq istəmirdi. Ancaq Sabir zorla dəstəyi ona verdi.

– Alo... qızım?

Sabir Yusifin rahat danışması üçün onu orada qoyub qapıya yaxınlaşdı. Qapını açaraq dəhlizə çıxdı. Ürəyində bir rahatlıq hiss edirdi. Bunun səbəbini çox gözəl başa düşürdü. Ona görə də, gördüyü işdən çox razı idi. Ətrafına baxaraq dəhlizdə dolaşmağa başladı. Yavaş-yavaş addımlayır, digər xəstələrin arasından keçərək dəhlizdə gəzinirdi. Elə dəhlizin digər tərəfinə çatıb arxaya dönmüşdü ki, o cavan oğlanı yenidən gördü. İlk gəldiyi gün onu boğmaq istəyən oğlanı. O gündən sonra ilk dəfə idi ki, onu görürdü. Küncdə oturmuş, dizlərini qucaqlayaraq durmuşdu. Sabir neçə dəfə işçilərlə danışmış, oğlanın əhvalını soraqlaşmışdı. Yusiflə də bu haqda söhbət etmişdi. Yazıq oğlanın da həyatı elə gözəl deyildi. Gözünün qabağında atası anasını öldürmüşdü. Elə Sabirə də atasına oxşadığına görə hücum çəkmişdi. Sabir bu qənaətə sonralar, bir xeyli düşündükdən sonra

gəlmişdi. Ehtiyyatla olsa da, oğlanın olduğu yerə doğru addımladı. Oğlana yaxınlaşıb yanında oturdu. Özünü ələ alaraq təbəssümlə dedi:

– Salam. Adım Sabirdir. Necəsən?

– Salam. – Oğlan da təbəssümlə ona baxdı. – Yaxşı.

Oğlanın onu tanımadığı qənaətinə gəlmişdi. Ona görə də, birazda rahatlamışdı.

– Sənlə əvvəllər danışa bilməmişdik. İndi tanış olmağın vaxtı imiş. Adın nədir?

– Bilmirsən? – Oğlan soyuq baxışla üzünü ona zillədi.

– Yox. Bilmirəm. – Sabir hürkərək cavab verdi.

– Fərid.

– Hə. Nə gözəl. Qəşəng adın var.

– Hə. – Qısaca cavab verdi.

– Yavaş-yavaş yaxından tanış olarıq. Hələ vaxtımız var. – Sabir yaxınlıq etmək istəyirdi. – Bayaq telefonla danışdım. Qızımla. Bir də balaca oğlum var. Bəs sənin? Evlisən?

– Yox.

– Evlənərsən. Hələ cavansan. – Sabir özü haqqında məlumat verir, oğlanda ona qarşı müsbət fikir yaratmağa çalışırdı. – Burda adam çoxdur. Çalış hamıya yaxınlıq edəsən. Yoxsa vaxt keçməz. Dost tap özünə. Tək olmaq yaxşı bir şey deyil. Təklik adamı sıxır.

Sabir danışır, ancaq oğlandan səs çıxmırdı. Oğlanın çox danışmadığını görüb söhbəti bitirmək qərarına gəldi. Ayağa qalxaraq ona baxdı.

– Tanış olmağımıza sevindim. İndi gedirəm. Ancaq yenə danışarıq. Nə vaxt istəsən, sən də yaxınlaşa bilərsən.

Oğlanın yanından ayrılaraq Yusifin olduğu otağa tərəf getməyə başladı. Ancaq elə bir neçə addım atmışdı ki, sağ böyrünə kiminsə zərbə vurduğunu hiss etdi. Qəfil zərbənin ağrısından bükülərək geriyə dönməyə çalışdı. Üzünü geriyə çevirdiyində cavan oğlanı gördü.

– Adımı sən qoymuşdun! – Oğlan nifrətlə ona baxırdı.

Cavan oğlan əlini Sabirin böyründən çəkdiyində əlinin qana bulaşdığını gördü. Əlində iri qayçı tutmuşdu. Sabir oğlanı geriyə itəliyərək böyrünü tutdu. Qan dayanmaq bilmirdi.

– Neylədin... sən? – deyə taqətdən düşərək yerə yıxıldı.

Sabirin halı get-gedə pisləşirdi. Gözlərinə pərdə çökmüş, ətrafı görməkdə çətinlik çəkirdi. Bir neçə saniyə sonra gözlərini yumdu. Geriyə qalan isə ətrafdakıların qışqırıq səsləri idi.

– Sabir?! Sabir?! Sabir?!

***

Pilləkənlərlə yuxarı qalxaraq həkimin otağına doğru addımlamağa başladı. Həkimin otağının qapısına çatıb yavaşca bir neçə dəfə döydükdən sonra qapını açdı.

– Salam, həkim. Necəsiniz? – İçəri boylanaraq dedi.

– Sən kimsən?!

– Zakirdir. Yadınızdadırsa, sizinlə görüşmüşdük. Sabiri xəstəxanada yatmasına kömək etmişdiniz.

– Hə, bildim. Nə olub? – Əli ilə oturmasını istədi.

– Sabiri soruşacaqdım. Görəsən, nə vaxt çıxar?

– Xəstəxana ilə səhər danışmışam. Bu həftəsonuna kimi çıxmalıdır.

– Eləmi?

– Hə. Cümə axşamı, səhər yoxlamadan keçəcək. Ondan sonra da son qərarı verib xəstəxanadan buraxacaqlar.

– Qərar necə olacaq?

– Mən nə bilim. Sabirə qalıb. Özündən asılıdır. – Yumru sifətini qırışdıraraq gülümsədi.

– Başa düşdüm. – Zakir ayağa qalxdı. – Çox sağ olun. Narahat etdim.

– Xoş getdin.

Zakir otaqdan çıxaraq pilləkənlərə yaxınlaşdı. Telefonu çıxarıb Yasəmənə zəng elədi.

– Həkim deyir, həftəsonuna kimi buraxacaqlar. – deyə Yasəmənə məlumat verdi.

– Sabir necədir? Onu da soruşdun? – Yasəmənin səsi eşidildi.

– Ay qız, o, nə bilsin Sabirin halını.

– Nə bilim, ay qardaş. Nəsə yaman narahatam.

– Narahatçılığa səbəb yoxdur. Hər şey yaxşı olacaq.

– Təki sən deyən olsun.

– Hə, elədir. Nəysə mən telefonu söndürürəm. Gedəsi yerim var. Axşam danışarıq. Hələlik. – Telefonu söndürüb cibinə qoydu.

Pilləkənlərlə aşağı düşərək xəstəxananın giriş qapısından çölə çıxdı.

***

Musiqi səsi eşidilirdi:

Şirin günlər, şirin çağlar
Bir-bir gəlib düşər yada.
Ürək deyər: "Ayrılığın
Üzü dönsün bu dünyadan!.."

Sabir gözlərini açmaq istəsə də, aça bilmirdi. Musiqi səsi çox yaxından gəlirdi. Bir neçə dəfə cəhd etdikdən sonra göz qapaqlarını qaldırmağa nail oldu. Hər tərəf alatoran görünürdü. Üzünü pencərəyə tərəf çevirdi. Hava qaralmışdı. Harada olduğunu, bura necə gəldiyini anlamağa çalışırdı. Ayağa qalxmaq istədi. Ancaq sağ böyründəki ağrını hiss edib yenidən yatağa uzandı. Yavaş-yavaş hər şeyi xatırlayırdı. Sonuncu dəfə dəhlizdə idi. Cavan oğlanla danışdıqdan sonra Yusifin yanına getmək üçün ayağa qalxmışdı. Və sonra da oğlan onu qayçıyla vurmuşdu. Hər şeyi yadına düşmüşdü. " Məni bura kim gətirib", – deyə düşündü. Elə bu an qapı açılaraq otağa biri daxil oldu.

– Özünə gəlmisən?

– Mən nə vaxtdan burdayam?

– Dünən səhərdən. Əslində, tez durmalı idin. Amma yaman yatdın. – Tibb bacısı gülərək dedi. – Özünü necə hiss edirsən?

– Pis deyiləm.

– Yaran elə də dərin deyil. Bəxtin gətirib. Orqanlara ziyan dəyməyib.

– Məni vuran oğlan? O hardadır?

– Təkadamlıq otaqdadır. Nəzarət altında saxlayırlar.

– Həbs olunacaq? – Sabir narahat halda soruşdu.

– Yox, əşşi. Nə həbs. Siz nə etsəniz, sizə “gözün üstə qaşın var” deyən olmayacaq. – Qəhqəhə ilə gülərək Sabirə baxdı. Sonra yenidən əlavə etdi. – Səni də elə bura o gətirib. Qucağında.

– Necə yəni? – Sabir təəccüblə ona baxdı.

– Hə. Sən yerə yıxılandan sonra səni qucağına götürüb üstümüzə qaçdı. Biz də bura gətirməyini dedik.

– Başa düşdüm. – Sabir cavan oğlanın niyə belə etdiyini anlamamışdı. – Bu mahnı nədir? – Ətrafa boylandı.

– Mən qoymuşam. O biri otaqda. İstəyirsənsə, söndürə bilərəm .

– Yox. Qalsın.

– Yaxşı. – Qapıya yaxınlaşdı. – İndi yat. Dincəl. Sabah öz otağına gedəcəksən.

– Oldu.

Sabir tibb bacısı otaqdan çıxdıqdan sonra başını yastığa qoydu. Tavana baxaraq zamanı qovalamağa çalışdı. Bir müddət sonra isə gözləri yuxuya getdi.

***

Səhərin közərən işıqları ilə birgə Sabir də oyanmışdı. Artıq özünü yaxşı hiss edirdi. Ağrısı da xeyli azalmışdı. Yuxudan ayılan kimi yerindən qalxaraq əl-üzünü yudu. Sonra da qapıya yaxınlaşıb dəhlizə çıxdı. Dəhlizə çıxması ilə Yusifin önünü kəsməsi bir olmuşdu.

– Ayılmısan? – Sevinərək Sabirin üstünə gəlirdi.

– Hə. Yaxşıyam. – Sabir də onu gördüyünə sevinmişdi.

– Onda gəl gedək. Səhər yeməyinin vaxtıdır.

– Mən ac deyiləm. Həkimlə danışacam. Əgər icazə versə, otağa gedəcəm.

– Yanında qalmağımı istəyirsən?

– Yox. Sağ ol. Sən get.

– Yaxşı. – Yusif ondan uzaqlaşaraq yeməkxanaya getdi.

Sabirsə, ətrafa göz gəzdirdikdən sonra baş həkimin otağına doğru addımlamağa başladı. Elə otağın qapısına çatırdı ki, baş həkim özü otaqdan çıxdı.

– Deyəsən, tamam sağalmısan.

– Bəli, həkim. İcazənizlə öz otağıma keçərdim.

– Yaxşı. Get. Ancaq özünü qoru. İki gün sonra komissiya var. Ora gedəcəksən.

– Baş üstə.

– İndi gedə bilərsən.

Baş həkim ondan uzaqlaşaraq dəhliz qapısına yaxınlaşdı. Qapını açaraq gözdən itdi. Sabir onun son sözündən həm xoşhal olmuş, həm də kədərlənmişdi. Bir yandan buradan çıxacağına görə sevinir, bir yandan da komisssiyanı inandıra bilməsə, çəkdiyi əziyyətin heyf olacağına pis olurdu. Ancaq ümidini itirmirdi.

Asta addımlarla otağına getdi. Otaqda ondan başqa heç kim yox idi. Edəcək bir şey olmadığından yerində uzandı. Heç beş dəqiqə keçməmişdi ki, Yusif qapıdan girərək ona yaxınlaşdı. Əlində çörək vardı. Sabirə uzadaraq dedi:

– Al, ye. Ac olarsan.

– Ac olmadığımı demişdim axı. – Gülümsəyərək çörəyi aldı.

– Sənə elə gəlir.

– Yenə çayı içinə tökmüsən? – Çörəyi aralayaraq içinə baxdı.

– Hə. Nəyi pisdi ki? Hamısı bir yerdədir.

– Yaxşı eləmisən. – Gülərək dedi. Sonra da çörəkdən dişləyərək yeməyə başladı. – Dadlıdır.

– Hə. Yağını, pendirini bol eləmişəm. Hamısını ye.

– Heç soruşmadım. Axırıncı dəfə telefonla danışırdın. Nə oldu? – Sabir bazar gününü xatırlayaraq soruşdu.

– Danışdım. – Yusif sevinərək dedi. – Qızımla, oğlumla. Nəvələrimlə də danışdım.

– Nəvələrinlə də danışdın?

– Hə. Sənə də demişdim axı. Qızımın bir qızı, bir oğlu var. Oğlumun isə bir oğlu. O hələ çox balacadır. Danışa bilmir.

– Allah saxlasın.

– Çox sağ ol.

– Nə danışdın? – Sabir maraqla soruşdu.

– Hər şey. – Yusif utanaraq dedi. – Sabah yox, o birisigün komissiya olacaq. Dedilər ki, istəsən səni çıxarıb evə gətirə bilərik.

– Sən nə dedin? İstəyirsən? – Sabir gözlərini iri açaraq Yusifə zillədi.

– Hə. – Yusif başını bulayaraq dedi.

– Çox gözəl. Onda elə bir yerdə çıxarıq.

– Oldu. – Yusif gülümsəyərək dedi.

Sabir bura gəldiyi gündən Yusifdə də çox irəliləyiş olmuşdu. Sabir ona çox yaxşı təsir etmişdi. Öz qapalı dünyasından ayrılmış, içindəki sıxıntıları bir kənara ata bilmişdi. Bunda səbəbkar Sabiri görür, ona ürəyinin dərinliyində dərin hörmət bəsləyirdi.

– Səsi eşidirsən? – Sabir Yusifin qolundan tutdu. – Piano səsi.

– Hə. Yenə otağından çıxıb.

– Elədir.

İkisi də susaraq Tariyelin ifasına qulaq asmağa başladılar. Yenə eyni musiqini ifa edirdi. “Həsrətindən”.

***

Sabir nahar yeməyinə də getməmiş, eləcə gününü yatağının üstündə keçirmişdi. Komissiyanın olacağı gün üçün səbrsizlənir, vaxtın ötüb keçməsindən başqa heç nə istəmirdi. Yusif isə buna baxmayaraq, ona gizlincə olsa da, yemək gətirir, yeganə dostunu ac qoymurdu.

Nahardan sonra Yusifin köməyi ilə Sabir dəhlizə çıxmış, xəstələrlə qaynayıb qarışmağa başlamışdı. Bir müddət dəhlizdə var-gəl etdikdən sonra Sabir Yusifə yaşlı kişini göstərib dedi:

– Yoruldum. Gəl, Məzahir dayının yanına gedək.

– Kişinin söhbətləri xoşuna gəlib, deyəsən.

– Hə. Elədir. – Gülərək qarşılıq verdi.

Yaşlı kişi isə bu vaxt pəncərənin önündə oturmuş, çölü izləyirdi. Sabirlə Yusif ona yaxınlaşıb salam verdikdən sonra yanında əyləşdilər.

– Neynirsən, Məzahir dayı? – Yusif pəncərədən çölə boylanaraq soruşdu.

– Baxıram.

– Nəyə?

– Quşlara. – Qısaca dedi.

– İki gün sonra biz də onlar kimi olacağıq.

– Artıq burda son günlərimizdir, Məzahir dayı. – Sabir yaşlı kişiyə baxdı.

– Deməli, azad olursunuz? – Kinayə ilə soruşdu.

– Hə. Elədir.

– Çıxıb nə edəcəksiz?

– Nə bilim, Məzahir dayı. Çıxandan sonra fikirləşərik. – Yusif cavab verdi.

– O zaman siz azad olmursunuz. – Rişxənd edərək gülümsədi.

– Niyə elə deyirsiniz, Məzahir dayı? – Yaşlı kişinin sözü Sabirin xətrinə dəymişdi.

– O quşları görürsünüz? – Əli ilə havada uçan göyərçinləri göstərdi. – Onlar kimi qanad açmayacaqsınızsa, elə mənim ki burada, həbs olduğunuz qəfəsdə qalsanız yaxşıdır. – Üzünü Sabirlə Yusifə tutdu.

– Düz deyirsən, Məzahir dayı. – Yusif yenidən lağlağa şəkildə yaşlı kişini ələ saldı.

– Henrix Henreni tanıyırsınız?

– Yox, Məzahir dayı. – Sabir narahat halda dedi.

– O deyir ki, Nökər ağasız olsa belə, yenə azad deyil. Nökərlik onun canında var. – Yenidən üzünü

pencərəyə tərəf çevirdi. – Dəyişməsəniz, ora ya bura, heç bir fərqi yoxdur. Düşüncənizi dəyişməlisiniz ki, azad olasınız.

– Düşüncəmizi dəyişməliyik. – Sabir dodaqaltı mızıldandı.

Əslində qocanın dediklərinə ikisi də əməl edirdilər. Yusif də, Sabir də bacardıqları qədər dəyişmişdilər. Yusif öz qaranlığından çıxmış, həyatın ona verdiyi dəyəri anlamağa başlamışdı. Sabir isə dəyərli olan hər şeyin onda var olduğunu anlamışdı. Yaşadıqları hadisələrin içində var olmağı bacaran bu iki şəxs gələcəyə ümidlə baxmağa başlamışdılar. Taleh onlara bir oyun oynamışdı. Qalib olmaq isə onların əlində idi. Bunu dərk etdiklərində azadlığa çıxmağa hazır olacaqdılar. Bu isə elə də uzaqda deyildi.

***

## *Kimin nə olduğunun isbatı...*

Cümə axşamı, nahardan sonra komissiyaya gedəcək xəstələrin hamısını birinci mərtəbəyə yığmış, vaxtın gəlməsini gözləyirdilər. Yusiflə Sabir də onların arasında idi. Yusif sakit görünsə də, Sabir

üçün bunu demək elə də mümkün deyildi. Nə qədər gizlətməyə çalışsa da, həyəcanı üzünə vurmuşdu. Yerində bir dəqiqə dura bilmir, elə hey ətrafa boylanaraq binadan çıxacaqları zamanı güdürdü. Bunu Yusif də hiss etmişdi ki, gülərək dedi:

– Qorxursan?

– Yox. – Əsəbi halda cavab verdi.

– Onda niyə sakit durmursan?

– Nə bilim.

– Yaxşı olacaq. – Əlini Sabirin qoluna toxundurdu.

Sabir isə heç bir söz demədən başını aşağı salıb dərindən nəfəs aldı. Elə bu an həkim tibb bacısı ilə gələrək qapını açıb çölə çıxmalarını tapşırdı. Bütün xəstələr sıra ilə binanın qapısından çölə çıxmağa başladılar. Sabir bura gəldiyi gündən birinci dəfə idi ki, binanı tərk edirdi. Qapıdan çıxdığında gözlərini yumaraq havanı qoxlamağa başladı. Azadlığın qoxusunu doyunca ciyərlərinə çəkdikdən sonra pilləkənlərlə həyətə enərək digər xəstələrlə bir yerdə komissiyanın keçiriləcəyi binaya doğru getməyə başladı. Komissiyanın keçiriləcəyi bina ilə Sabirin qaldığı bina arasında iki bina da var idi. Sabir o binaların arasından keçərkən ətrafa göz gəzdirir, ilk dəfə görürmüş kimi heyrətlənirdi. Ağaclar, quşlar, hətta hər gün gördüyü həkimlər belə ona qeyri-adi gəlirdi.

Bir qədər də piyada getdikdən sonra həkim üçmərtəbəli binanı göstərək, yoxlanışın orada olacağını bildirdi. Bütün xəstələr tək-tək binanın giriş qapısından içəri girməyə başladılar. Binanın birinci mərtəbəsində, dəhlizdə dayanaraq sıra ilə komissiya keçiriləcək otağa daxil olur, həkim yoxlanışından sonra çıxaraq yenidən qaldıqları binaya götürülürdülər. Sabir isə səbrlə öz sırasının gəlməsini gözləyirdi. Onun sırası yeddinci idi. Bütün xəstələri izləyir, onların hansı əhval-ruhiyyədə otağı tərk etdiklərini seyr edirdi. Altı nəfər yoxlanışdan keçdikdən sonra sıra ona çatmış, tibb bacısı qolundan tutaraq asta addımlarla otağa doğru aparmağa başlamışdı. Sabirin həyəcanı isə dayanmadan artırdı. Durduğu yerdən otağa qədər olan yol gözündə bir neçə kilometr olmuşdu. Ürəyi şiddətlə döyünür, yerişini itirirdi. Artıq qapının önünə çatdığında beli bükülmüşdü. Nəfəs almaqda çətinlik çəkirdi. Tibb bacısı qapını açaraq onu içəri saldı. Elə içəri yenicə girmişdi ki, komissiya nümayəndələrindən biri, bəstəboy, sarışın qadın tibb bacısının üstünə qışqırmağa başladı:

– Ay qız, hara gətirirsən bunu?! Görmürsən, nə gündədir?! Bu elə xəstəyə oxşayır da! Çıxart çölə!

– Baş üstə, həkim. – Tibb bacısı cəld Sabiri otaqdan çıxardı.

Sabirin gülməyi tutsa da, özünü güclə saxlaya bilmişdi. Təhqir olunacağına bu qədər sevinəcəyini desəydilər, yəqin ki, heç vaxt inanmazdı.

Tibb bacısı isə Sabirin qolundan tutaraq deyinə-deyinə binadan çölə çıxartdı. Dəhlizlə çıxış qapısına yaxınlaşarkən Yusiflə baxışmış, hər şeyin yolunda olduğunu bildirmişdi.

– Lap bezdiriblər. Gətir deyirlər, gətirirsən, deyir niyə gətirmisən. Adam bilmir nə etsin. – Tibb bacısı hələ deyinirdi.

– Sizin iş də yaman çətindir.

– Kaş ki, elə sənin kimi olardım. Dünya vecimə olmazdı. – Tibb bacısı sözünü bitirb gülməyə başladı.

– Kaş. – Sabir də gülərək qarşılıq verdi.

– Nəysə. Gedək, aparım səni. Hələ neçə nəfər qalıb. Onları da gəlib götürməliyəm.

Tibb bacısı Sabirin qolundan tutaraq xəstəxananın həyəti ilə getməyə başladı. Sabir “Niyə tək-tək aparırsınız?” sualını vermək istəsə də, özünü ağıllı göstərməmək üçün susaraq tibb bacısının yanı ilə qaldığı binaya qədər getdi. Binaya daxil olub ikinci mərtəbəyə qalxdıqdan sonra iri dəhlizdən keçərək öz otağına daxil oldu. Tibb bacısı isə onu orada qoyub geriyə, o biri binaya qayıtdı. Sabir üçün gözləməkdən başqa bir şey qalmamışdı. Yatağın üstünə oturaraq Yusifi gözləməyə başladı. Onun sırasına hələ çox var idi. Ona görə də, işi biraz uzanacaqdı. Bu səbəbdən

yerinə uzanaraq vaxtı ötürməyə çalışdı. Elə başını yastığa yenicə qoymuşdu ki, gözləri yuxuya getdi.

***

– Alo, Yasəmən?

– Hə.

– Xəstəxanadan zəng elədilər?

– Niyə? Nəsə olub? – Yasəmən həyəcanla soruşdu.

– Yox, ay qız. O dəqiqə hay-şüvən eləyirsən. Sabiri bugün komissiyadan keçiriblər.

– Həəə... nə deyiblər?

– Narahat olma. Hər şey yaxşıdır. Problem olmayıb. Müsbət rəy alıb. Bugün axırıncı günüdür. Sabahdan evdə olacaq.

– İnşaAllah, ay qardaş. – Sevinərək dedi.

– İstəsən elə səni də apararam. Bir yerdə götürüb gələrik.

– Hə, hə. Mütləq.

– Yaxşı. Hələlik. Telefonu söndürməliyəm.

– Hələlik.

***

Yusif otağa daxil olaraq Sabirin yatdığını gördü. Ona yaxınlaşıb yavaşca toxunaraq Sabiri oyatmağa çalışdı.

– Sabir?

Bir neçə dəfə cəhd etdikdən sonra Sabir axır ki, oyana bildi.

– Hə. – Gözlərini açaraq Yusifə baxdı. – Gəlmisən?

– Hə. Elə indi gəldim.

– Lap yaxşı. – Dikələrək gözlərini ovuşdurdu.

– Çox saxlamadılar. Bir neçə sual verdilər. Sonra da dedilər ki, gedə bilərsən. – Məndən heç nə soruşmadılar.

– Doğurdan, sən niyə elə tez çıxdın? – Maraqla soruşdu.

– Nə bilim. Bəyənmədilər məni. – Gülərək dedi.

– Ola bilər. – Yusif də güldü.

Elə bu an qapı açıldı. Qapını açan onları komissiyaya aparan həkim idi. Əlindəki kağızları havada yellədərək gülümsədi.

– Hazırlaşın. Sabah evə gedirsiniz.

– Sabah? – Sabir dili topuq vura-vura soruşdu.

– Getmək istəmirsən? – Gülərək Sabirə baxdı.

– Yox. İstəyirəm. Ancaq bizə heç nə deməmişdilər. Ona görə...

– Qərar indi verildi. Hazırlaşın. Bugün burada son gününüzdür. Sabah saat ona kimi buradan çıxmış olacaqsınız.

– Çox sağ olun. – Yusif dedi.

Həkim isə Yusifin təşəkkürünə bir söz demədən, sadəcə gülümsəyərək kifayətləndi. Sonra da otaqdan çıxaraq qapını bağladı.

– Eşitdin? Sabah evə gedirik.

– Hə. Eşitdim.

– Sevinmirsən? – Sabir Yusifin üzündəki çaşqınlığı görərək soruşdu.

– Sevinirəm. Çox.

– Narahat olma. Hər şey yaxşı olacaq. İnan mənə. – Əlini Yusifin dizinə qoydu.

– İnanıram. – Təbəssümlə dedi.

– Burada vaxtımızın qurtarmasına az qalıb. – Gözləri ilə otağı süzərək dedi. – Saatlar...

– Hə.

– Bura üçün darıxacaqsan? – Üzünü Yusifə tutaraq soruşdu.

– Bilmirəm. Bəlkə hə, bəlkə də yox. Ancaq burada çox şey öyrəndim.

– Mən də. Həm də yeni insanlar tanıdım.

– Elədir.

– Gəl, çıxaq dəhlizə. Son dəfə gəzişək. – Sabir yataqdan enərək tərliklərini geyindi.

– Yaxşı. – Yusif də ayağa qalxdı.

Otaqdan çıxaraq dəhlizə çıxdılar. Ətrafa göz gəzdirərək dəhlizdə gəzir, xəstələrlə salamlaşır, hal-əhval tuturdular. Son saatlarını onların arasında, onlar kimi keçirtmək istəyirdilər. Sabah isə onlardan ayrılacaq, onlardan başqa biri olacaqdılar. Bəlkə də...

***

## *Ən gözəl Cümə...*

Səhərin erkən saatlarından, göy üzü işıqlanmamış oyanaraq hazır vəziyyətdə gözləyirdi. Gecə çox uzun çəkmişdi. Yuxuya gedə bilməmiş, xəyallar qurmuş, gələcək barəsində düşünmüşdü. Elə indi də otağda var-gəl edir, hərkəsin oyanmasını gözləyirdi. Sıxıntıları var idi. Xəstəxanadan çıxdığında, çöldə nə olacağını heç bilmirdi. Yaxşı ya pis, bunu etməli idi. Qaranlıq dünyasından ayrılmağa məcbur idi. Arabir keçmiş həyatını xatırlayır, köhnə günlərini gözlərinin önündən keçirirdi. Həyat yoldaşını, onunla keçirdiyi günləri düşündükcə nələri itirdiyini bir daha anlayırdı. Qəhərlənir, ürəyini sıxan fikirlərə güc gələ bilmirdi. Otağın divarları arasında gəzinərək dodaqaltı “o sənli günlərim”, – deyə mahnı oxumağa çalışırdı. Bununla da biraz rahatlamaq

istəyirdi. Ancaq daha da kədərə bürünür, dərdinə dərd yükləyirdi.

Hava isə yavaş-yavaş aydınlanırdı. Bir müddət sonra hərkəs oyanacaqdı. Ancaq otaqdaki bir nəfər çoxdan oyanmış, gizlicə onu izləyirdi.

– Quqquuu... Niyə yatmırsan? – Anidən, lakin astaca soruşdu.

Yusif diksinərək səs gələn tərəfə çevrildi.

– Oyaqsan?

– Hə. – Cavid gülərək dedi. – Bəs sən?

– Yata bilmədim. Sən yat. – Əli ilə işarə verdi.

– Gedəcəksən, hə?

– Hə.

– Bizi yaddan çıxartma. Olar?

– Çıxartmaram.

– İnanıram. İnanım? – Gülümsəyərək soruşdu.

– İnan. – Yusif də güldü.

– Yaxşı. – Üzünü çevirərək yastığı başına çəkdi.

Yusifsə, onu inandırmağa çalışsa da, öz dediyinə özü də inana bilməmişdi. Neçə ay idi ki, buradaydı. Onlara çox öyrəşmişdi. Ancaq indi onlardan da ayrılırdı. Və onları bir daha nə vaxt görəcəyi haqqında heç bir fikri yox idi. Bayaqdan başqa fikirlər onu narahat edirdisə, indi üstünə bunlar da əlavə olunmuşdu. İki od arasında qalmışdı. Ya da

ona elə gəlirdi. Özünü özü də anlaya bilmirdi. Onu ən çox sıxan da elə bu idi.

Bu fikirlər içində saatları keçirmişdi. Sabir də çoxdan oyanmışdı. Özü ilə götürəcəyi əşyaları çantaya yığmış, geri qalan əşyaları isə otaq yoldaşları arasında bölmüşdü. Hər şey hazır idi. Səhər yeməyi üçün otaqdan çıxanda Sabir üzünü Yusifə tutaraq yeməkxanaya getməyəcəyini bildirmişdi. Yusif də heç bir söz soruşmamış, eləcə başını yelləməklə kifayətlənmişdi. Sabir isə həmişə telefonla danışdığı otağın qabağını kəsərək həkimin gəlməsini gözləməyə başlamışdı. Elə yenicə qapının yanında oturmuşdu ki, həkim dəhlizə daxil olaraq ona tərəf gəlməyə başladı. Sabiri görən kimi gülərək dedi:

– Bugün zəng etmək olmaz. Bazar günü gələrsən.

– Yox, həkim. Mən başqa bir şey istəyəcəkdim.

– Nə? – Maraqla soruşdu.

– Fəridi görmək istəyirəm.

– Ona icazə yoxdur. Həm bir dəfə səni yaralayıb. Qorxmursan?

– Mənə heç nə etməz. İnanın mənə. Bugün burada son günümdür. Bir neçə saat sonra buradan həmişəlik çıxıb gedəcəm. Son dəfə onu görmək istəyirəm.

– Yaxşı. Gəl mənimlə.

Həkim dəhlizin digər tərəfinə dorğu getməyə başladı. Sabir də onun arxasıyca gedirdi. Bir qədər getdikdən sonra Fəridin qaldığı otağın qarşısında dayanaraq üzünü Sabirə çevirdi.

– Mən də girəcəm. Nə deyəcəksənsə, çox qısa olsun.

– Oldu. Çox sağ olun.

Həkim qapını açaraq Sabiri içəri saldı. Sonra da içəridən qapını bağlayaraq kiminsə girməsinə mane oldu.

Otaqda Fəriddən başqa heç kim yox idi. Fərid isə yatağın üstündə dizlərini tutaraq oturmuşdu. Qapının açıldığını eşidib üzünü qapıya çevirərək gələnin kim olduğuna baxdı. Sabirin içəri girdiyini görən kimi gözlərini bərəldərək ona zillədi.

– Salam, Fərid. – Sabir ehtiyatla ona yaxınlaşıb yatağın yanında qoyulmuş stula əyləşdi. – Mənim adım Sabirdir. Bir neçə dəfə səninlə danışmışıq. Yadındadır?

Fərid heç bir söz demədən ona baxır, eləcə susurdu. Həkim isə kənarda dayanaraq olanları izləyirdi.

– Mənim də bir oğlum var. Səndən çox balacadır. – Gülümsədi. –Bir də məktəbli qızım. Çoxdandır, heç birini görmürəm. – Onunla əvvəl də danışmışdı, ancaq indi daha ətraflı özünü ona tanıtmaq istəyirdi. – Bugün buradan gedirəm. Onları

da görəcəm. Səndən də danışacam. Nə bilmək olar, bəlkə nə vaxtsa, sən də onlarla tanış olarsan. İnanıram ki, görsən çox sevərsən. Elə onlarda.

Sabir uşaqlarından danışır, Fərid də ona qarşı yaranmış nifrəti yox etməyə çalışırdı. Fərid isə bir söz demədən susurdu.

– Mən indi gedirəm. Ancaq yenə gələcəm. Səninlə daha yaxından tanış olmaq üçün. İstəyərsən?

Sualı cavabsız qalmışdı. Sabir ayağa qalxaraq başı ilə sağollaşdı. Sonra qorxsa da arxasını ona tərəf çevirərək qapıya dorğu addımlamağa başladı.

– Bağışla!

Sabir duraraq arxaya çevrildi. Səs Fəriddən gəlmişdi. Ondan bunu eşitmək Sabir üçün çox dəyərli idi.

– Sən bağışla... Hər şey üçün. – Sabirin gözləri dolmuşdu.

– Yolun açıq olsun... Get. – Fərid gülümsəyərək dedi.

– Çox sağ ol.

Sabirin ürəyi yerindən çıxacaq kimi idi. Sevincindən nə edəcəyini bilmirdi. Geriyə dönərək həkimə baxdı. Getmək vaxtının gəlib çatdığını ona bildirərək ikisi də otaqdan çıxdılar. Həkimə təşəkkürünü bildirdikdən sonra yeməkxanaya tərəf boylandı. Yeməkxanada heç kim qalmamışdı. Dəhlizə boylanaraq xəstələrin arasında Yusifi

tapmağa çalışdı. Ancaq Yusif gözə dəymirdi. Qaldığı otağa yaxınlaşıb qapını açmaq istəyəndə Yusif özü qapıdan çıxaraq qarşısında dayandı.

– Bayaqdan səni axtarıram.

– Niyə? Nəsə olub?

– Getmək vaxtıdır. Tibb bacısı dedi.

– İndi? – Həyəcanla soruşdu.

– Hə. Elə indi.

– Yaxşı.

– Al çantanı. – Əlində tutduğu çantanı Sabirə uzatdı.

Sabir çantanı alaraq geriyə döndü. Son dəfə bu dəhlizdə addımlayırdı. Bəlkə də son dəfə bu xəstələri görürdü. Ona görə hamısını bir-bir süzür, onlarla sağollaşırdı.

– Məzahir dayının yanına gedək. – Sabir Yusifin qolundan tutdu.

– Gedək.

İkisi də yaşlı kişinin yanına gedərək onunla sağollaşmaq istədilər.

– Məzahir dayı, biz gedirik.

– Gedin. – Yaşlı kişi Sabirə baxaraq əli ilə getmələrini istədi. – Gedin və azad olun.

– Olacağıq, Məzahir dayı. – Yusif əlini havaya qaldırdı.

Yaşlı kişiylə də sağollaşdıqdan sonra çıxış qapısına doğru addımlamağa başladılar. Elə qapıya

yaxınlaşmışdılar ki, arxadan kimsə uca səslə qışqırmağa başladı.

– Bizə dəli deyirlər. Bizmi dəliyik, yoxsa bu xülyadan ayılmayan insan övladı mı? – Əli ilə pencərəni göstərdi. – Bizim ruhumuzmu xəstədir yoxsa xəstəlik ruhumuzdamı var? – Əllərini yana açaraq coşquyla dəhlizdəkilərdən soruşdu. – Ancaq bir şey açıq-aydındır. Biz nə dəliyik, nə də ruhi xəstə. Bəs biz kimik? Bizə nə ad vermək olar? Bunu sizə mən deyəcəm. Biz Ruhilərik. İnanın mənə! Biz seçilmiş insanlarıq! Bəşəriyyət bizi anlayacaq gücdə deyil. Bizlər burada həbs olunmağa layiq deyilik. Biz çox ali varlıqlarıq. Ona görə də, sizə deyirəm, – əlini dəhlizdəkilərə uzatdı. – Açın qapıları, ruhunuzu azad edin!

Dəhlizdəkilər heç nə anlamasa da onu alqışlamağa başladılar.

– Gedək, Sabir.

– Gedək. – Qapını açaraq dəhlizdən çıxdılar.

Tibb bacısı ilə bir yerdə birinci mərtəbəyə endilər. Sənədlərin yoxlanışından sonra sıra evə getmək qalmışdı. Binadan çıxdıqlarında başlarını qaldırıb xəstəxanaya son dəfə göz gəzdirərək burada keçirdikləri günləri xatırladılar. Sabir də, Yusif də həyəcanlı görünürdülər. Burada tanımışdılar bir-birlərini. İki yad insan burada dostlaşmışdı. Bəlkə bu

dostluğun ömrü daha da uzun olacaqdı. Hər şey qabaq idi, onlar üçün.

Xəstəxananın çıxış qapısında isə onları ailələri gözləyirdi. Sabir uzaqdan Yasəməni görmüşdü, Yusif isə qızı ilə oğlunu. Ayaqları istər-istəməz daha sürətlənmiş, onlara qovuşmaq üçün tələsirdi. Keçmişi unutmaq, yeni bir gələcək üçün sürətlərini artıraraq qaçmağa başladılar. Onlar həyatlarının gözəl anları üçün qaçırdılar.

**Mənsə... mənsə, yeni hekayələr üçün düşüncələrə dalacam. İndi isə sağollaşmaq vaxtıdır, əziz oxucu. Bura qədər oxudun, gördün, hekayəmə şahid oldun. Sənə tanış etdiyim bu hekayədə hadisələr bəzən həqiqət, bəzən də bu biçarə yazıçının könlündən keçənlər oldu. Ancaq hekayəm burada bitdi. Bəlkə də bitmədi. Heç bilmək olmaz))Sənə demişdim, inan mənə. Yox. İnanma mənə, canım oxucu. Sabah nə olacağını bilmək olmaz. İndi isə getmək vaxtıdır. Bəlkə birgün yenə görüşdük. Xudahafiz!**

# SON